www.unec.edu.az

UNEC EKSPERT

#02 (02) DEKABR 2016

Maliyyə sabitliyi
QLOBAL İCTİMAİ MƏHSUL KİMİ

Ai təcrübəsi
kənd TƏSƏRRÜFATINA DƏSTƏK!

"Azeri Light" qiymətinin UNEC PROQNOZU

+ Turizm sektorunda ərəb..."YAYI"

SOSİAL MƏNZİLLƏR: İsveç təcrübəsi

ARAŞDIRMA
İDMAN TURİZMİNİN davamlı iqtisadi inkişafda rolu

İQTİSADİYYATIMIZ
AZƏRBAYCANIN KİMYA sənayesinin ixrac potensialı

İSLAHATLAR
VERGİ MƏCƏLLƏSİNƏ dair təkliflər

BEYNƏLXALQ TƏCRÜBƏ
KÖRFƏZ ÖLKƏLƏRİNİN qeyri-neft sektorunun inkişaf təcrübəsi

NİYƏ UNEC?

İNKİŞAF ETMƏKDƏ OLAN AVROPA VƏ MƏRKƏZİ ASİYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNDƏ İQTİSADYÖNÜMLÜ 4-CÜ UNİVERSİTET OLMAQLA, REGİONUN ƏN YAXŞI 200 UNİVERSİTETİNDƏN BİRİ

Regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir;

Tədris prosesi və kadr hazırlığı Amerika və Avropa təhsil sisteminə uyğundur;

İxtisaslar bakalavr, magistr və doktorantura təhsil pillələri üzrə

Azərbaycan, ingilis, rus və türk dillərində tədris edilir;

Auditoriyada mərkəz nöqtəsi tələbədir;

Tələbə universiteti iki və daha çox ixtisasla (dual major) bitirə bilər;

Tələbələrin müxtəlif mübadilə proqramlarında iştirak etmək imkanı vardır;

Universitetdə 8 fakültə və 37 kafedra fəaliyyət göstərir;

461 professor və fəlsəfə doktoru çalışır.

NİYƏ TÜRK DÜNYASI İŞLƏTMƏ FAKÜLTƏSI (TUDİFAK)?

Fakültədə təhsil tam türk dilində aparılır;

İxtisaslar: İşlətmə, Beynəlxalq münasibətlər,Turizm və Otelçlik;

Dərs proqramları İstanbul Universiteti nümunəsində hazırlanmışdır;

Fakültə Dekanı Türkiyə Universitetlərinin müəllimləri arasından seçilir və fakültənin akademik heyəti, təhsillərini Türkiyədə almış azərbaycanlı və türkiyəli müəllimlər təşkil etməkdədir;

Türk Dünyası İşlətmə Fakültəsinin diplomunun Türkiyə (YÖK) "denkliyi" ekvalentliyi vardır.

UNEC BUSINESS SCHOOL

NİYƏ UNEC, BEYNƏLXALQ İQTİSADİYYAT MƏKTƏBİ (İSE)?

Tam ingilis dilində təhsil;

İxtisaslar: Dünya İqtisadiyyatı, Maliyyə, Mühasibat, Biznesin İdarəedilməsi, İqtisadiyyat;

Fakültənin keçid balı – 601;

Fransa, Almaniya, Niderland, Turkiyə, Koreya, Litva universitetləri mübadilə proqramları;

Qərb universitetlərinin məzunları olan müəllimlər;

London Universitetinin beynəlxalq dərəcə proqramında və Montpellier Universiteti ilə ikili diplom proqramında iştirak imkanı;

HarmonİSE tələbə yaradıcılıq klubu ilə birlikdə maraqlı tələbə həyatı.

NİYƏ UNEC, MBA PROQRAMI?

MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır;

Proqram üzrə bütün fənlərə aid mini kitabxana və praktik məsələlər (case study) toplusu təşkil olunmuşdur;

MBA Proqramında çalışan 100-dən artıq professor-müəllim heyətinin əksəriyyəti ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları və magistrlər təşkil edir;

Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğun müəyyənləşdirilmişdir;

UNEC Biznes Məktəbi EFMD-nin Qlobal şəbəkəsinin üzvüdür;

UNEC-UBIS (University of Business and International Studies);

İkili Magistr Dərəcə Proqramına qoşulma imkanı

Almaniyanın Yena Fridrix Şiller Universiteti ilə mübadilə proqramı;

İxtisaslar: Beynəlxalq biznes, Biznesin idarə edilməsi, İnsan resurslarının idarə edilməsi, Maliyyə, Marketinq, Menecment, Mühasibat uçotu, Qiymətli kağızlar.

MÜNDƏRİCAT

UNEC EKSPERT

TİRAJ: 1000
JURNAL İLDƏ İKİ DƏFƏ NƏŞR OLUNUR.
ƏDLİYYƏ NAZİRLİYİ QEYDİYYAT NÖMRƏSİ #4026

06 Tərəqqinin fəlsəfəsi
08 Müasir reallıqlar və iqtisadi islahatlar strategiyası
10 İqtisadiyyatın şaxələndirilməsi
12 Azərbaycanın iqtisadiyyatının rəqabət qabiliyyətinin artımında universitetlər necə kömək edə bilərlər?
14 Universitet - sənaye əməkdaşlığı Texnoparklar
16 Şist qayçısı və neft qiymətləri
19 "Azeri Light" qiymətinin UNEC proqnozu
20 Ailə biznesi sahibkarlığın inkişafında uğurlu modeldir
22 Özünüməşğulluq və kiçik sahlbkarlıq
24 Turizm sektorunda ərəb "yayı"
26 İdman turizminin davamlı iqtisadi inkişafda rolu
29 Körfəz ölkələrinin qeyri-neft sektorunun inkişaf təcrübəsi
30 Vergi məcəlləsinə dair təkliflər
32 Texnologiyatutumlu kənd təsərrüfatına doğru
37 Azərbaycanda pul kütləsinin dinamikası və iqtisadi artım
38 Ödənişli yol - Beynəlxalq təcrübə
41 Nəqliyyat xidmətlərinin ixracı
44 Səhm bazarı nə vaxt canlanacaq?
46 Ələtdə azad ticarət zonasının perspektivləri
48 Sosial evlərin İsveç modeli
52 Orta gəlir tələsi
56 Maliyyə sabitliyi qlobal ictimai məhsul kimi
58 Gömrük rüsumunun qeyri-fiskal funksiyaları
60 Qiymətəmələgəlmənin psixologiyası

AZƏRBAYCANIN KİMYA SƏNAYESİNİN ixrac potensialı
səhifə 42

UNEC EKSPERT

İŞGÜZAR FƏALİYYƏT
sistemində orta sahibkarlığın əhəmiyyəti
səhifə 54

KƏND TƏSƏRRÜFATINA
dəstək: Aİ təcrübəsi
səhifə 34

REDAKSİYA HEYƏTİ

BAŞ REDAKTOR
prof. Ədalət Muradov

MƏSUL KATİB
i.ü.f.d. Anar Rzayev

TƏRTİBATÇI
Zaur Əzizov

KORREKTOR
Sadiq Qarayev

REDAKSİYANIN ÜNVANI
AZ 1000, Bakı, Azərbaycan,
İstiqlaliyyət küçəsi 6.
Tel.: 012 437 10 86
www.unec.edu.az
expert@unec.edu.az
MƏTBƏƏ: ŞƏRQ-QƏRB

#02 (02) 2016

TƏRƏQQİNİN FƏLSƏFƏSİ

MƏQALƏDƏ MONOPOLİYA İLƏ RƏQABƏT ARASINDAKI QARŞILIQLI ƏLAQƏYƏ BAXILMIŞDIR. EKONOFİZİKA ƏSASINDA GÖSTƏRİLMİŞDİR Kİ, RƏQABƏT MONOPOLİYADAN TÖRƏYİR VƏ ONU SIRADAN ÇIXARDARAQ TƏRƏQQİNİ TƏMİN EDİR.

prof. **ŞAHLAR ƏSGƏROV**

İstehsalın həcminin (İ) zamandan (t) asılılığının kvazi düzxətli olduğunu fərz edək:

$$İ \approx bt \quad (1)$$

Burada, **b** mütənasiblik əmsalı olub, vahid zamanda istehsal olan məhsulun miqdarını göstərir. Aydındır ki, **b**= 0 olanda istehsal fəaliyyəti yoxdur, yəni məhsul istehsal olunmur. Hesab etmək olar ki, mükəmməl monopoliya mühitində bm zamana görə sabit qalır ($\mathbf{b_m}$ = const). Bu halda istehsal var (şəkil1, **aa** düz xətti), ancaq **tərəqqi** yoxdur. Tərəqqinin baş verməsi üçün vahid zamanda istehsal olunan məhsulun miqdarı artmalıdır. Başqa sözlə, **b**–nin də zamana görə artması zəruridir.

Şəkildən görünür ki, **b**-nin artmasını təmin etmək üçün ikinci oxşar firmanın fəaliyyət göstərməsi (bb xətti) vacibdir. Nyutonun cazibə qanununda cisimlər bir-birinə təsir etdiyi kimi, bazar



Şəkil 1. Rəqabət mühitində və sabit texnologiya zamanı məhsulun / xidmətin zamandan asılılığı. Burada b_m təmiz monopoliya, b_{r1} və b_{r2} oliqopoliya mühitinin bucaq əmsallarıdır.

mühitində də firmalar biri-birinə **rəqabət** vasitəsi ilə təsir edir. Başqa sözlə, rəqabət bazarda firmaların birinin digərinə qarşılıqlı təsir vasitəsi kimi çıxış edir. Adam Smitin dediyi "görünməz əl" burada firmaların bir-birinə qarşılıqlı təsir qüvvəsidir. Belə qeyri-mükəmməl monopoliya halında İ(t) asılılığı qırıq xətli (1-2) olar.

Müxtəlif zamanlarda oxşar yeni firmalar yarandıqca, qırıq xətlərin sayı da artır (1-2-3 və s.). Bu halda oliqopoliya mühiti yaranır. İ(t) asılılıqlarının həndəsi toplanması nəticəsində $\mathbf{b_r}$-də zaman artdıqca($b_{r2}>b_{r1}$) artır və tərəqqi baş verir.

Şəkil 1-də **aa**, **bb** və **cc** düz xətlərin bir-birinə paralel olması, müxtəlif zamanlarda qurulmuş firmaların istifadə etdikləri texnologiyaların eyniliyini göstərir. Qrafikdən görünür ki, eyni texnologiya ilə məhsul istehsal edən firmaların sayı çoxaldıqca, rəqabət mühiti mükəmməlləşir.

Beləliklə, mükəmməl monopoliya mühitindən (**aa** xətti) oliqopoliya mühitinə kecdikdə (1-2-3 sınıq xətt) sistem mürəkkəbləşir və onun çıxış xarakteristikasının zamandan asılılığı mürəkkəb sistemlərdə olduğu kimi, qeyri-xətti olur. Üstəlik, sistemin çıxış xarakteristikası firmaların hər birinin çıxış xarakteristikalarından kəskin fərqlənir.

Oliqopoliya mühitində vahid zamanda istehsal olunan məhsulun miqdarının ($\mathbf{b_r}$) artmasını sadəlik xətrinə aşağıdakı düstur ilə ifadə etmək olar:

$$b_r = \mathbf{b_m} + \boldsymbol{\alpha t} \quad (2)$$

Burada α- sabit, b_m-isə təmiz monopolist firmanın bucaq əmsalıdır. Düstur (2) –ni (1) - də nəzərə alsaq, İ-nin zamandan qeyri, xəttli asılı olduğunu görərik. Güman etmək olar ki, hətta dəyişməz texnologiya və mükəmməl rəqabət mühitində (firmaların sayı çox olanda) belə istehsal məhsulunun miqdarı zamanın kvadratı ilə mütənasib artar və tərəqqi baş verər. Burada təhsilə ehtiyac olsa da, elmə ehtiyac yoxdur. Kifayətdir ki, firmaların sayı çox olsun və süni monopoliya olmasın. Çünki azad rəqabət – bazar iqtisadiyyatının hərəkətverici qüvvəsidir. İnkişaf etməkdə olan ikinci dünya dövlətlərinin çoxu bu yolu seçərək inkişaf edirlər. İstehsal məhsulunun zamandan asılılığına təsir edən digər güclü factor texnologiyadır. Məlumdur ki, texnologiya elmdən asılıdır. Elm iqtisadiyyatı zamana görə qeyri-xətti dəyişdirən güclü faktordur. Bu səbəbdən də burada elmə ehtiyac böyükdür. Ona görə inkişaf etmiş ölkələrdə elmə böyük pullar xərcləyirlər ki, öz məxsusi texnologiyalarını yaratsınlar. Elmi inkişaf etdirən subyekt alimdir. Alimlər ideya generatoru olub, inkişafın mərkəzində dayanırlar.

> *Tərəqqinin baş verməsi üçün istehsalın/xidmətin həcmi zamana görə qeyri-xətti artmalıdır. Bu zəruri şərtdir. Rəqabət mühitinin yaradılması isə kafi şərtdir*

Tərəqqinin zəruri və kafi şərti. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, tərəqqinin baş verməsi üçün istehsalın/xidmətin həcmi zamana görə qeyri-xətti artmalıdır. Bu zəruri şərtdir. Rəqabət mühitinin yaradılması isə kafi şərtdir. Texnologiyaları satın almaqla tərəqqiyə nail olmaq mümkündür. Burada elmsiz də keçinmək olar, ancaq pozulmaz antimonopol qanuna ehtiyac böyükdür. Sürətli inkişafın əsasında həm də yeni texnologiya dayanır. Texnologiyanı elm inkişaf etdirə bilər, elmsiz texnologiya yaratmaq qeyri-mümkündür. Bu bəşəri qənaətdir. Təəssüf ki, İslam dünyasında bu gerçəklik hələ dərk olunmamış həqiqətdir.

MÜASİR REALLIQLAR
VƏ İQTİSADİ İSLAHATLAR STRATEGİYASI

> *Effektiv iqtisadi inkişaf strategiyasının işlənib hazırlanması və qəbul olunması milli iqtisadiyyatın dinamik və davamlı inkişafının təmin edilməsinin ilkin şərtidir*

PROF. M.A.ƏHMƏDOV

Son illərdə Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar, yaradılmış iqtisadi, sosial, elmi-texniki, maliyyə potensialı, normativ-hüquqi qanunvericilik və institusional baza ölkəmizə yaxın gələcəkdə milli iqtisadiyyatın formalaşdırılması, inkişafı, prioritetlərin müəyyənləşdirilməsi və qarşıya qoyulan məqsədlərə çatmaq üçün dəyişən reallığa uyğun keyfiyyətcə yeni iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasını obyektiv zərurətə çevirdi.

İqtisadi reallıqları və imkanları nəzərə alaraq ölkə prezidenti cənab İlham Əliyevin milli iqtisadiyyatın dəyişən şəraitə effektiv uyğunlaşmasını və Postneft iqtisadiyyatını formalaşdırmaq üçün kompleks sistemli dinamik və məntiqi iqtisadi islahatların, tədbirlərin başlıca istiqamətlərini, məqsədlərini və hədəflərini müəyyənləşdirdi.

Bütün bunlar öz növbəsində, iqtisadi inkişaf strategiyasının fəlsəfəsinin, paradiqmasının, işlənib hazırlanması konsepsiyasının davamlı inkişaf və təkrar istehsal baxımından metodologiyasının təkmilləşdirilməsini tələb edirdi.

Yaxın perspektivdə reallaşdırılması nəzərdə tutulan problemləri əməli cəhətdən həyata keçirmək üçün ilk növbədə islahatların istiqamətləri müəyyənləşdirildi. Ümumi halda onları aşağıdakı kimi qruplaşdırmaq olar: investisiya-innovasiya; sahibkarlıq mühitinin yaxşılaşdırılması; investisiyanın təşviqi; struktur və institusional islahatların aparılması; milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinin; qeyri-neft sektorunun və ixracının inkişafının stimullaşdırılması; gəlir gətirən əmək tutumlu sahə və istehsalatların inkişafına dövlət dəstəyi; əməkhaqqı, pensiya və müavinət sisteminin təkmilləşdirilməsi; «Made in Azerbaydcan» brendinin təşviqi; və s. Eyni zamanda, iqtisadi islahatlar gedişində bütün strategiyanın müəyyənləşdirilməsinin istisna bilməyən şərti milli iqtisadiyyatın təhlükəsizliyinin gözlənilməsi zərurəti xüsusi qeyd olunmalıdır.

Dəyişən yeni reallıqlar şəraitində qarşıya qoyulan məqsədləri əməli cəhətdən səmərəli reallaşdırmaq üçün "Miili iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri" haqqında Ölkə Prezidentinin 16 mart 2016-cı il tarixində təsdiqlədiyi sərəncamın müstəsna əhəmiyyətə malik olması xüsusi vurğulanmalıdır.

Strateji yol xəritəsində davamlı inkişafın məqsədlərinə uyğun olaraq ölkəmizdə formalaşdırılan inklyuziv və transparent milli iqtisadiyyat modeli iqtisadi artımla sosial inkişafın və sosial bərabərliyin uyğunluğuna əsaslanan güclü, şəffaf və açıq iqtisadiyyatın yaradılmasını nəzərdə tutur. Geniş mənada inklyuziv iqtisadi artım ətraf mühitin qorunmasını, məhsul və xidmət vahidinə çəkilən xərclərin aşağı salınmasını, təhsil və tibbi xidmətin az təminatlı əhali qrupları ücün əlçatan olmasını, ümumən inklyuzivlik iqtisadi artımın humanitar, mənəvi aspektlərinin gücləndirilməsini tələb edir.

Bu konsepsiyanın sosial-iqtisadi proseslərin 360 dərəcəli diaqnostikası əsasında qiymətləndirilməsi öz əksini tapmışdır ki, bu da inkişafın hər hansı bir sahənin, istiqamətin, sferanın səmərəliliyi baxımından deyil, bütünlükdə ölkədə cari dövrdə və perspektivdə həyata keçirilə biləcək təkrar istehsalın səmərəliliyinin təmin edilməsi baxımından dəyərləndirilməsini zəruri edir. Dünya təcrübəsi göstərir ki, hər hansı bir milli iqtisadiyyatda istehsal prosesi səmərəli həyata keçirilə bilər. Lakin ölkədə bölgü, mübadilə prosesi optimal olmazsa, xüsusən də mövcud məhsul və xidmətlərdən səmərəli istifadə olunmazsa, onda ümumi iqtisadi artımdan əldə olunan səmərə kəskin aşağı düşəcək və ölkədə son nəfərədək "kasıblaşan iqtisadi artım" müşahidə olunacaqdır.

Yol xəritəsinin əməli cəhətdən reallaşdırılmasının cox mühüm şərtlərindən biri də inhisarçılığın aradan qaldırılmasıdır ki, bu da öz növbəsində ölkənin malik oldugu maliyyə, elmi-texniki və istehsal potensialına uyğun səmərəli və optimal dövlət tənzimləmə sisteminin tətbiqini tələb edir.

Bu gün ölkəmizin iqtisadçı alimləri qarşısında milli iqtisadiyyatın bütün sahə və istiqamətlərinin sosial-iqtisadi inkişafı ilə bağlı elmi cəhətdən əsaslandırılmış və əməli cəhətdən reallaşdırılması mümkün olan konkret təkliflər və tövsiyələr irəli sürmək kimi strateji bir vəzifə durur.

Bu məqsədlə zənnimizcə, aşağıdakılar xüsusi qeyd olunmalıdır: strateji baxımdan səmərəli neft strategiyasının formalaşdırılması əldə olunan gəlirlərdən səmərəli və düzgün istifadə edilməsi sayəsində bütünlükdə onun Azərbaycanın milli iqtisadiyyatının inkişafının aparıcı qüvvəsinə çevrilməsinin təmin edilməsi; Azərbaycanda uzunmüddətli dövlət proqramları və layihələri əsasında milli iqtisadiyyatın çoxşaxəli inkişafa istiqamətlənməsi, struktur, institutsional dəyişikliklərinin aparılması; milli sahibkarlığın inkişafına güclü dövlət dəstəyinin olması; dövlət büdcəsindən, neft fondundan və digər mənbələrdən maliyyələşmə həyata kecirilən zaman iqtisadi inkişafla sosial inkişaf və infrastruktur sahələrinin inkişafı arasında mümkün qədər optimallığın gözlənilməsi. Çalışmaq lazımdır ki, ölkənin karbohidrogen ehtiyatlarının reallaşdırılmasından əldə olunan gəlirlər birbaşa cari tələbatların ödənilməsinə mümkün qədər az yönəldilsin, əsas prinsip o olmalıdır ki, həmin vəsaitlər bilavasitə milli iqtisadiyyat və onun əsas sahələrinin inkişafı məqsədlərinə yönəldilsin və onların reallaşdırılmasından əldə olunan divident və gəlir istifadə olunsun. Bu ölkənin milli sərvətində gələcək nəsillərin payını qorumağa imkan verər: milli iqtisadiyyatın inklyuzivliyini artırmaq ücün firma və şirkətlərdə gəlirlərin bölgüsü, mövcud əməkhaqqı normaları mütərəqqi dünya təcrübəsinə əsaslanaraq davamlı inkişafın məqsədlərinə uyğun təkmilləşdirilməsi; milli iqtisadiyyatın innovativ inkişafını təmin etmək üçün dövlət büdcəsindən, qeyri-dövlət fondlarından, sahibkarların maliyyə potensialından, elmin, təhsilin və bütünlükdə innovativ inkişafa ayrılan vəsaitlərin həcminin kəskin artırılması zəruri hesab edilir. Müasir mərhələdə sosial-iqtisadi proseslərin ortodoksal monetar tənzimlənməsinə nisbətən daha çox funksional maliyyə-fiskal tənzimlənməsinə üstünlük verilməsi məqsədəuyğundur və s. Təcrübə göstərir ki, sosial-iqtisadi inkişafla bağlı qəbul olunmuş qərarların və reallaşdırılması nəzərdə tutulan tədbirlərin reallığını və obyektivliyini təmin etmək üçün müvafiq makroiqtisadi göstəricilərin hesablanması uçotu və informasiya bazası təmilləşdirilməlidir. Yol xəritəsində qarşıya qoyulan strateji vəzifələrin uğurla reallaşdırılması üçün bazar və dövlət mexanizmi elə optimal nisbətdə tətbiq edilməlidir ki, onlar ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə milli iqtisadiyyatın öz-özünü inkişaf etdirmək, modernləşdirmək, dəyişən şəraitə və tələbə effektiv uyğunlaşmaq, ölkəmizin mövcud potensialından davamlı inkişafın prinsiplərinə əsasən səmərəli istifadəsini stimullaşdırsın.

Məlumdur ki, effektiv iqtisadi inkişaf strategiyasının işlənib hazırlanması və qəbul olunması milli iqtisadiyyatın dinamik və davamlı inkişafının təmin edilməsinin ilkin şərtidir. Çünki son nəticədə reallaşdırılması nəzərdə tutulan inkişaf konsepsiyasına uğurlu həlledici dərəcədə ölkədə mövcud olan tənzimləmə sisteminin nə dərəcədə səmərəli və optimal olmasından asılı olur. Həm də bu zaman iqtisadi inkişaf strategiyası işlənib hazırlayarkən multiplikator effektinin nəzərə alınması ən vacib şərtlərdən biri hesab edilməlidir. Belə ki, ölkəmizdə milli iqtisadiyyat və onun əsas sektorları üzrə qəbul olunan inkişaf konsepsiyası müvafiq tənzimləyici qanunvericilik və normativ-hüquqi baza əsasında həyata keçirilir.

Sosial-iqtisadi inkişafla bağlı qəbul olunan hər bir qanunvericilik aktı kifayət qədər güclü, intellektual yükə malik olmaqla cari və perspektiv məqsədləri nəzərə alınmalıdır. Çünki əslində sosial-iqtisadi proseslərin tənzimlənməsi bu prosesin qanunvericilik bazasını və bu sahədə dövlətin həyata keçirdiyi iqtisadi siyasətin mahiyyətini özündə əks etdirir. Bu baxımdan, ölkəmizdə rəqabətli və sabit inkişaf edən milli iqtisadiyyatın səmərəli fəaliyyətinin təmin edilməsi ölkədə işlənib hazırlanan və tətbiq olunan tənzimləmə sisteminin xarakterindən, effektivliyindən və bütünlükdə bu proseslərin idarə edilməsi səviyyəsindən çox asılı olur. Məhz buna görə də ölkədə tətbiq olunan elə tənzimləmə sistemi effektiv hesab edilməlidir ki, onun reallaşdırılması son nəticədə qarşıya qoyulmuş məqsədlərin əməli cəhətdən səmərəli reallaşdırılmasına imkan versin, stimullaşdırsın.

Ümumən, qanunvericiliyin sosial-iqtisadi proseslərə təsiri qiymətləndirilərkən xərc və alınan nəticə ilə yanaşı, ətraf mühitin qiymətləndirilməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsi, çağdaş və gələcək nəsillərin maraq və mənafelərinin gözlənilməsi problemləri də nəzərdən qaçırılmamalıdır.

İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ

Müasir mərhələdə iqtisadi inkişafı stimullaşdıra biləcək yeni mənbələrin tapılması öz əksini "Milli iqtisadiyyat və onun əsas sektorlarının inkişafının yol xəritəsi" strategiyasında tapmışdır.

İ.E.D.PROF.,**ÜMÜDVAR ƏLİYEV**

Milli iqtisadiyyat və onun əsas sektorlarının inkişafının yol xəritəsi" strategiyasının ana xəttini iqtisadiyyatın şaxələndirilməsi, onun əsas sektorlarının (4 istehsal: neft-qaz, kənd təsərrüfatı, istehlak malları istehsalı, ağır sənaye və maşınqayırma - 2 xidmət sektoru: ixtisaslaşmış turizm, loqistika və ticarət - 2 sosial sektor: uyğun qiymətə mənzillər və kompleks məsələ kimi peşə təlimləri) xüsusilə qeyri-neft sektorunun, yüngül və yeyinti sənayesinin, emal sənayesinin, kənd təsərrüfatının, turizmin, nəqliyyat sektorunun, sosial sferanın, xidmət sferasının və sairin inkişaf etdirilməsi təşkil edir. Ənənəvi olaraq iqtisadiyyatımızın strukturunda daha böyük xüsusi çəkiyə malik olan sahələrdən biri - kənd təsərrüfatı bu problemlərin həllində daha əhəmiyyətli rol oynaya bilər və bunun üçün hər cür əlverişli şərait mövcuddur. Ölkə ərazisinin 55,1%-i kənd təsərrüfatı üçün yararlı torpaqlardır. Onun 30%-i biçənəklər və otlaqlardır.Kənd təsərrüfatının əsas sahələri olan əkinçiliyin və heyvandarlığın inkişafı üçün hər cür əlverişli şərait var. Kənd təsərrüfatı məhsulu istehsalı 2014-cü ilə nisbətən 2015-ci ildə manat ifadəsində 5225,8 mln. manatdan 5635,3 mln. manata qədər artmasına baxmayaraq, dollar ifadəsində 6,7 mld. dollardan 5,5 mld. dollara düşmüşdür. Kənd təsərrüfatı iqtisadiyyatın elə bir həssas sahəsidir ki, bir təsərrüfat ilində nəzərəçarpacaq fayda verə bilər. Dünya bazarında ən bahalı xammallardan biri olan pambıq isteh-salının 2017-ci ildə 300 min tona çatdırılmasının respublikamızda proqnozlaşdırılması da iqtisadiyyatın ən gəlirli sahələrini diqqət mərkəzinə gətirməklə iqtisadi inkişafa nail olmaqdan ibarətdir. Statistik məlumatlara görə, Azərbaycanda 2 mln. 700 min başdan çox iri buynuzlu mal-qara var. Lakin, bu mal-qara çox aşağı məhsuldar olduğundan ət-süd məhsullarına tələbatımızı tam daxili istehsal hesabına ödəyə bilmirik. Az da olsa bu məhsulları idxal etmək məcburiyyətindəyik. Mütəxəssislərin hesablamalarına görə, 500-600 min baş cins mal-qara ölkə əhalisinin ət-süd məhsullarına tələbatını ödəməyə imkan verər. Bu istiqamətdə çox ciddi addımlar atılmaqdadır. Dövlət dəstəyi ilə ölkəyə cins mal-qara gətirilir və heyvandarlıqla məşğul olan sahibkarlara güzəştli qiymətlərlə verilir. Kənd təsərrüfatında əsas sahibkarlıq formalarından biri ailə kəndli və ev təsərrüfatıdır. Kənd əhalisinin şəxsi həyətyanı təsərrüfatı ilə yanaşı, torpaq islahatı nəticəsində aldığı pay torpaqları da vardır,ailə ona daimi və yaxud müvəqqəti istifadə üçün verilmiş torpaq sahəsində bitkiçilik, heyvandarlıq məhsulları istehsal edir. Lakin hamımıza məlumdur ki, xüsusilə kənd yerlərində ailənin investisiya imkanları məhduddur. Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev tərəfindən irəli sürülən ailə biznesinə asan dəstək təşəbbüsü aqrar istehsalın inkişafında əhəmiyyətli rol oynayacaq. ÜDM-də aqrar istehsalın xüsusi çəkisi artacaq. Ölkəyə taxıl idxalı minimuma endiriləcək, ət və süd məhsulları, kartof, meyvə və sair kənd təsərrüfatı məhsullarının idxalına son qoyulacaq.

Xüsusi mülkiyyətin bütün formalarının inkişafına əlverişli şərait yaradılması iqtisadiyyatımızın strukturunun mühüm elementindən birinə çevrilən tikinti-inşaat sektorunun da inkişafına güclü təkan vermişdir (uyğun qiymətə mənzillər, mənzillərin əlçatanlığı). Müstəqilliyimizin müxtəlif illərində ümumi daxili məhsulun təxminən 10-14%-i tikintinin sektorunun payına düşmüşdür. Yerli xammalla işləyən inşaat mterialları istehsal edən müəsisələr işə salınmışdır. Tikintiyə qoyulan əsas vəsaitlə onun ÜDM-də payı arasında bir mütənasiblik müşahidə olunur. 2014-cü ildə əsas kapitala yönəldilmiş vəsait tikintidə 12,6%, ÜDM-də tikintinin payı isə 2015-ci ildə 12,1% olmuşdur. Qeyri-neft sektorunun

əsas sahələrindən biri kimi tikinti sektoru perspektivli sahələrdən hesab olunur.

Şaxələndirilən iqtisadiyyatda əhəmiyyətli rol oynaya biləcək sahələrdən biri də turizmdir. Azərbaycanın təbii-coğrafi şəraiti imkan verir ki, ilin bütün fəsillərində yay-qış turizmi təşkil edilsin. Kurort-turizm sahəsi təsərrüfatın kompleks inkişafının əsas istiqamətlərindən biridir. Azərbaycanda kurort-turizm təsərrüfatının inkişaf etdirilməsi üçün hər cür təbii, iqlim, landşaft şəraiti, iqtisadi imkanlar və tarixi-arxeoloji abidələr kompleksi vardır.

Respublikada ən mühüm təbii-rekreasiya ehtiyatları Xəzər dənizinin sahillərində yerləşir. Yay aylarının bol günəş enerjisi, qızmar qumlar buranın həm istirahət, həm də müalicə üçün istifadə imkanlarını genişləndirir.

Göygöl və onun ətrafında olan göllər sistemi, Batabat gölünün ətrafı, onların suları və yaratdığı mikroiqlim şəraiti mühüm təbii-rekreasiya ehtiyatlarıdır. Şəki-Zaqatala, Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran-Astara, Yuxarı Qarabağ iqtisadi rayonlarında olan dağlar, bu ərazilərdə bitən meşələr, təbii-iqlim şəraiti, qoruqlar və yasaqlıqlar əhalinin istirahət

> *Mütəxəssislərin hesablamalarına görə, 500-600 min baş cins malqara ölkə əhalisinin ət-süd məhsullarına tələbatını ödəməyə imkan verər*

zonalarının təşkil edilməsi və turizmin inkişafı üçün istifadə edilə bilər. Respublikanın digər qoruqları, onlarda olan nadir bitki və heyvan növləri, təbii-iqlim şəraiti də bu məqsədlə istifadə olunmalıdır.

Respublikada mövcud olan mineral bulaqların müalicə imkanları çox böyükdür və onlardan bəzilərinin əsasında iri kurort-sanatoriya kompleksləri yaradılır. Naftalanda və Qalaaltı mineral bulaqları əsasında belə kompleksler tikilmişdir. Naxçıvanda olan mineral bulaqlardan geniş istifadə olunmasının təşkili zəruridir.

İqtisadiyyatın mühüm struktur sahələrindən biri də nəqliyyat sektorudur. Bu sektorun ÜDM-də payı 2015-ci ildə rabitə ilə birlikdə 7,4% olmuşdur.Nəqliyyat sektorunun inkişaf etdirilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər bu sahənin iqtisadiyyatda rolunu daha da artıracaq. Bu gün Azərbaycan iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynaya biləcək rellaşan nəqliyyat layihələrindən biri Bakı Beynəlxalq Dəniz ticarət limanının istifadəyə verilməsidir. Bakı Beynəlxalq Dəniz Ticarət limanı Xəzər hövzəsi ölkələrinin, Rusiya Fedarasiyasının, İran İslam Respublikasının və Qazaxıstanın dəniz ticarəti limanları sırasında müasirliyinə və yükaşırma qabiliyyətinə görə ilk sıralardadır. Azərbaycan Respublikasının Prezidenti cənab İ.H.Əliyev 17 mart 2016-cı il tarixində bu limanın ərazisində azad ticarət zonası yaradılması haqqında sərəncam imzalamışdır. Bütövlükdə nəqliyyat sektorunun inkişaf etdirilməsi, Bakı Beynəlxalq Ticarət limanının istifadəyə verilməsi, qədim "İpək yolu"nun bərpası, neft-qaz boru kəməri şəbəkələrinin genişləndirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişinin başa çatdırılması, TAP və TANAP qaz kəmərlərinin çəkilişi, Rusiya Federasiyası, İran İslam Respublikası və Azərbaycan hökumətlərinin nəqliyyat sektorunun inkişaf etdirilməsi sahəsində əldə etdikləri razılaşmalar, Azərbaycanın Asiyanı Avropaya birləşdirən nəqliyyat dəhlizi rolu oynaması nəqliyyat sektorunun ÜDM-də payını artırmaqla bərabər, ümumi iqtisadi inkişafa təkan verəcək.

Azərbay
iqtisadiyyatın

HAZIRDA AZƏRBAYCAN NEFT YÖNÜMLÜ İNKİŞAF MODELİNDƏN SƏNAYE VƏ AQRAR SEKTORUN MÜHÜM ROLA MALİK OLDUĞU MODELƏ KEÇİD DÖVRÜNÜ YAŞAYIR. BU, BİZİM TARİXİMİZDƏ TƏXMİNƏN SON 130 İL ƏRZİNDƏ ÜÇÜNCÜ, MÜSTƏQİLLİK ƏLDƏ ETDİKDƏN SONRA İSƏ İLK BELƏ TRANSFORMASİYADIR.

Təhsil sistemi insan kapitalının keyfiyyətinə təsir edən yeganə amil deyil. Lakin məhz o, cəmiyyətin intellektual elitasını formalaşdırır.

Hazırkı sənayeləşmə qloballaşan dünya şəraitində baş verir və bu bizə çoxsaylı imkanlar açır. Bununla yanaşı, dünyada yenidən sənayeləşmə prosesi gedir. Belə ki, sənaye Asiyadan Avropa və ABŞ-a "qayıtmağa" başlayır. Nəzərə almalı olduğumuz ondan ibarətdir ki, yeni sənayenin böyük hissəsi əhəmiyyətli dərəcədə avtomatlaşdırılmış və robotlaşdırılmışdır. Bu, əmək bazarına birbaşa təsir göstərir. Bunu Devid Autorun əyrisində aydın şəkildə görmək olar.

Autor əyrisi göstərir ki, aşağı və yüksək ixtisaslı işçilər arasında məşğulluq artmış, orta ixtisaslı işçilər arasında isə məşğulluq azalmışdır. Bunun əsas səbəbi birinci növbədə orta çətinlikli tapşırıqların avtomatlaşdırılmış həllinə geniş yer verilməsidir. Bu işlərdə kifayət qədər şablon elementlər vardır ki, bu da onların asanlıqla avtomatlaşdırılmasına imkan verir. Bundan başqa, bu işlərə görə yüksək əmək-haqqının verilməsi onların avtomatlaşdırılmasının biznes sahibləri üçün iqtisadi baxımdan cəlbedici olmasını şərtləndirir.

Milli şirkətlərin beynəlxalq rəqabətdən qorunmasında dövlət olduqca məhdud imkanlara malikdir. Buna görə də, biz iqtisadi səmərəliliyi prioritet olaraq götürməliyik. Həmişə olduğu kimi, idarəçiliyin keyfiyyəti hər bir uğur və uğursuzluğun təməlində dayanır.

Məqsəd və ona çatmağın metodları müəyyən edildikdən sonra, idarəçiliklə bağlı istənilən tapşırığın yerinə yetirilməsi zamanı resursların (maliyyə, insan, təbii və digər) məhdudluğu faktoru üzə çıxır. Bu məhdudiyyətləri aradan qaldırmağın yeganə yolu mövcud imkanların genişlənməsinə və qarşıya qoyulmuş məqsədlərə nail olunmasına imkan verən istiqamətlər üzrə resursları səfərbər etməkdir. Bu məqalədə mən innovasiya sahəsində intellektual resursların səfərbər edilməsinin vacibliyi ilə bağlı olan aspektə toxunacağam.

Beynəlxalq standartlara əsasən, innovasiya bazara çıxarılan yeni və ya təkmilləşdirilmiş məhsul, yeni və ya təkmilləşdirilmiş texnoloji prosesdə təcəssüm olunan innovativ fəaliyyətin son nəticəsidir. İnnovasiyanın texniki və ya hər hansı bir maddi formada olması mütləq deyidir.

Dünya bazarında bir çox xam məhsulların qiymətinin düşməsi ölkələrin resurs yönümlü inkişaf modelindən innovativ inkişaf modelinə keçməsini stimullaşdırır. Bu inkişaf modelində başlıca komponentlərdən biri "start up" şirkətlərdir. Bu terminin bir neçə formada izahı vardır. Lakin mahiyyət ondan ibarətdir ki, ideyalar öz müəllif və ya müəlliflərinə rahatlıq vermir, onları fəaliyyət göstərməyə, bu ideyaların işlənməsi, istifadə edilməsi və satış yollarını axtarmağa vadar edir. İdeyaya malik olan və ya axtarışda olan insanları bir yerə



Şəkil 1. D. Autor əyrisi

canın ın rəqabət

qabiliyyətinin artımında universitetlər necə kömək edə bilərlər?

maliyyə eksperti **Fərhad Əmirbəyov**

yığmaqla gəlir gətirən şirkətlərin yaradılması prosesini əhəmiyyətli dərəcədə sürətləndirmək olar.

Universitetlərin başlıca funksiyası təhsildir. Universitet həmçinin tədqiqatla, elmi fəaliyyətlə də məşğul ola bilər. Bu, ikinci funksiyadır. Mən digər bir funksiyanı – sahibkarlıq funksiyası kimi qeyd etmək istərdim.

Universitet birbaşa olaraq sənaye klasterinin formalaşması prosesinin başladığı regionun iqtisadi inkişafını stimullaşdıra bilər. Universitetlər biliklərin, texnologiyaların, sahibkarlıq və innovasiyaların yaranması və ötürülməsi mərkəzinə çevrilə bilər.

İnnovativ, elmi və sahibkarlıq fəaliyyəti üçün mühitin yaradılmasına yönəlmiş xidmətlər universitet ətrafında tədris, elmi və maliyyə resurslarının cəmləşməsinə imkan verəcək. Artıq qeyd edildiyi kimi, sənaye dar ixtisaslaşma çərçivəsində cəmləşməyə meyillidir və bunun səbəbi A. Marşala görə, "biliklərin axını" effektidir.

Biliyə tələbatın olduğu yerdə təsil və elmə də tələbat olacaqdır. Azərbaycanda universitetlər ənənəvi olaraq sənayenin inkişaf etdiyi regionlarda yerləşir. Sovet İttifaqı dağıldıqdan sonra bu sənayenin böyük hissəsi obyektiv səbəblərdən yoxa çıxdı. Bununla belə, təhsil sistemini öz institusional keyfiyyətində saxlamaq mümkün oldu. İnkişafın resurs yönümlü modelinin tükəndiyi və ölkənin gələcək inkişafının əsasən sənaye ilə bağlı olduğu bir vaxtda ali təhsil sistemi cəmiyyət üçün xüsusi bir dəyər kəsb etməyə başlayır. Hörmətli Prezident Cənab İlham Əliyevin sədrliyi ilə 7 oktyabr 2016-cı il tarixində keçirilən Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasında təhsil naziri Mikayıl Cabbarov dedi: "Azərbaycanın yeni iqtisadi modeli bizim milli iqtisadiyyatımızın rəqabətqabiliyyətliyinin insan kapitalının keyfiyyətinin artırılması yolu ilə yüksəldilməsini tələb edir. Yeni təhsil klasterlərində yaradılacaq onlarla yeni ixtisaslar iqtisadi subyektlər və müəssisələrlə sıx əməkdaşlıq etməlidirlər".

Şübhəsiz, təhsil sistemi insan kapitalının keyfiyyətinə təsir edən yeganə amil deyil. Lakin məhz o, cəmiyyətin intellektual elitasını formalaşdırır.

Şəkil 2. Ölkələr üzrə iqtisadi məşğulluğu olan ali təhsilli (bakalavr və magistr) əhalinin xüsusi çəkisi, 2015-ci il. %. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatı.

*Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatı



**Ancaq bakalavrlar

Şəkil 2-dən göründüyü kimi, Azərbaycanda ali təhsilli insanların sayının artması potensiali yüksəkdir. Əgər biz bir cəmiyyət olaraq dünya əmək bölgüsü çərçivəsində aşağı əməkhaqqı olan ixtisasları, yəni "kasıblıq üzrə ixtisaslaşma"nı (Autor əyrisində qırmızı xətdən soldakı hissə) deyil, "varlılıq üzrə ixtisaslaşma"nı seçiriksə, vəziyyəti qəti şəkildə dəyişmək lazımdır. Əgər bizim bəzi şəhərlərimizin müasir texnopolislərə çevrilməsi prosesinin mərkəzində universitetlər dayanarsa, bu proses daha sürətli gedər. Azərbaycanın digər şəhərlərində də kifayət qədər perspektivlər vardır. Formalaşan klasterlərə universitetləri daxil etmək və onların bazasında elmi və sahibkarlıq fəaliyyətini təşkil etmək lazımdır. Belə ki, gənclər keyfiyyətli təhsillə yanaşı, həyatda öz yerlərini tapmaq istəyirlər.

Universitetlər insanlara təhsil verməklə, mədəniyyəti yüksəltməklə yanaşı, həm də onların arasında gələcək alimləri, istedadlı sahibkarları, komanda liderlərini müəyyən etməyə kömək edirlər. Bizim şəhərlər klasterlər formalaşdıran sənaye sahələrinin yerləşməsi sahəsinə rəqabətə daxil olmalıdırlar. Burada üstünlük regionun təhsil, elmi, innovasiya və mədəni mərkəzinə çevrilməyə hazır olan universitetin yerləşdiyi şəhərə verilməlidir.

Bu, Azərbaycanın rəqabətqabiliyyətliyini artıracaqmı? Cavab birmənalı şəkildə müsbətdir.

UNİVERSİTET - SƏNAYE ƏMƏKDAŞLIĞI TEXNOPARKLAR

Texnoparklar insan kapitalını sürətli inkişaf etdirən quruluşdur.

Mircavid HƏSƏNOV

Azərbaycanın ümumi ixracının diversifikasiyalaşdırılması, başqa sözlə, onun strukturunda rəqabətqabiliyyətli ixrac təyinatlı məhsulların çeşidinin, əsas etibarilə qeyri-neft ixracı məhsullarının həcminin artırılması vacib və prioritet vəzifələr kimi qarşıda durur. Eyni zamanda, sənaye sahələrinin və qeyri-neft ixracı potensialının yüksəldilməsi ölkənin valyuta ehtiyatının artırılması üçün yeni valyuta mənbələrinin formalaşdırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Dünya ölkələrinin bir çoxunda bu kimi problemlərin həlli məqsədilə texnoparklardan istifadəyə üstünlük verilməklə uğurlu nəticələr əldə edilib. Ona görə də, Azərbaycan iqtisadiyyatının yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələri vasitəsilə diversifikasiyalaşdırılması prosesləri sürətlənir. Sumqayıtda elektrotexnika məmulatları üzrə texnologiyalar parkı son illər Azərbaycanda yaradılan ən müasir və yüksək texnologiyalar əsaslı istehsalatlar şəbəkəsi kimi diqqəti cəlb edir. Ölkəmizdə texnoparkların digər modellərinin də yaradılmasına maraq xeyli yüksəkdir və hazırda kimya xammallarının emalı istiqamətində texnoparka rezidentlərin cəlb edilməsi prosesləri intensivləşir. Ölkə Rəhbərinin 21 dekabr 2011-ci il tarixli Fərmanı ilə yaradılan Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin genişlənməsi ilə yüksək rəqabətqabiliyyətli kimya məhsullarının istehsalının çeşidi və ixrac potensialı əsaslı şəkildə artacaq. Bakı şəhərində Balaxanı Sənaye Parkının və Yüksək Texnologiyalar Parkının, həmçinin Mingəçevir Sənaye Parkının yaradılması da iqtisadiyyatımızın davamlı inkişafının və rəqabət qabiliyyətinin artırılmasında, elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiyalar sahələrinin genişləndirilməsində, elmi tədqiqatların aparılmasında yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasında, yüksək dünya standartlarına cavab verən ixracyönümlü məhsulların çeşidinin artırılmasında əhəmiyyətli rol oynayacaq.

Texnoparkların mahiyyəti ilk növbədə elmi-texniki yeniliklərin işlənməsi, hazırlanması və istehsalata tətbiqi ilə bağlı proseslərin məcmusundan ibarətdir. Texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulması və inkişafına təşəbbüs göstərmək üçün qurulur. Texnoparkda fəaliyyət göstərən şirkətlərə, universitet innovativ elmi nəticələrinin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir. Yəni, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq, onun tətbiq olunması və inkişaf etdirilməsi üçün hərtərəfli şəraitin olduğu innovativ fəaliyyərləri təmin edən məkandır. Başqa sözlə, texnoparklar insan kapitalını sürətli inkişaf etdirən quruluşdur. Bu quruma daxil olan müxtəlif fəaliyyət sahələri yaradıcı insanın ortaya qoya biləcəyi intellektual məhsulların real həyata yolunu açır. Elm və innovativ ideyalar texnoparklarda cəmlənən müxtəlif texnoloji transfer qurumlarında, laboratoriyalarda, texniki mərkəzlərdə, sınaq komplekslərində, istehsal qurğularında, çox sayda mürəkkəb funksiyaları özündə birləşdirən yüksək texnoloji avadanlıqlarda, firma və kompaniyalarda adaptativ hazırlıq mərhələlərini və prosesləri keçir, istehsalata tətbiq olunur, sənaye üsullu məhsula çevrilir, nəhayət, yerli istehlak bazarında yüksək rəqabətqabiliyyətli məhsul olmaqla bərabər, ixrac potensialını da artırır.

Texnoparklar yerləşdiyi regionların iqtisadi inkişaf prioritetlərindən əsas vəzifə və məqsədlərindən asılı olaraq bir sıra formalar - elmi park, innovasiya mərkəzi, kommersiya parkı, texnoloji parklar kimi fəaliyyət göstərir. Onlar adətən universitetlərin, elmi-araşdırma mərkəzlərinin, sənaye potensialına malik ərazilərin yaxınlığında yaradılır. Kommersiya təyinatlı texnoparklar istehsalla, eyni zamanda, hazır məhsulların qablaşdırılması və satışı ilə də məşğul olur. Sənaye təyinatlı texnoparklarda, bir qayda olaraq, yüksək texnologiyalar əsaslı və ixracyönümlü məhsullar istehsal edilir.

Bu xüsusda Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ölkədə ilk İnnovativ Biznes-İnkubatorun yaradıcısı olmaqla yanaşı, texnoparkların inkişafı, ayrı-ayrı dövlət qurumları, qeyri-hökumət təşkilatları və özəl şirkətlərlə sənaye əməkdaşlığı sahəsində fəaliyyətini genişləndirməkdədir. Son illər ərzində UNEC Kapitalbank ASC, Bank of Baku ASC, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası, "AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Türkiyə İş Adamları Birliyi, Azərbaycan Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyəti, ABŞ - Azərbaycan Ticarət Palatası, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Konfederasiyası, Azərbaycan Respublikasının Dövlət Statisitika Komitəsi və Holcim Şirkəti ilə birgə əməkdaşlığa dair müqavilələr imzalayıb. Atılan bu addımlarla UNEC sənaye müəssisələri ilə formalaşdırır, ölkədə texnoparkların fəaliyyətinin genişlənməsində iştirak etmək əzmini gəstərir.

> *Texnoparkların mahiyyəti elmi-texniki yeniliklərin işlənməsi, hazırlanması və istehsalata tətbiqi ilə bağlı proseslərin məcmusundan ibarətdir*

ŞİST QAYÇISI
və neft qiymətləri

Son dövrlərə qədər hesab olunurdu ki, ənənəvi neft istehsalı və bu sahədə fəaliyyət göstərən qlobal və milli şirkətlər uzun dövr ərzində dünya neft bazarının dinamikasının müəyyənləşməsində həlledici rol oynayacaqlar.

Güman edilirdi ki, bu şirkətlərin 5-10 il kimi uzun müddətə başa gələcək yeni yataq axtarışları və istismarı qlobal neft tələbinin ödənilməsində başlıca istiqamət olacaq. Lakin 2009-cu ildən etibarən ABŞ-da şist neft istehsalı sektoruna daxil olan şirkətlərin texnoloji imkanlarını genişləndirməsi, yeni biznes yanaşmalarını tətbiq etməsi qlobal neft istehsalı sahəsində yeni situasiyanın ortaya çıxmasına səbəb oldu. Bu şirkətlər qazıntı və hasilat texnologiyalarını inkişaf etdirərək ənənəvi neft istehsalı ilə məşğul olan şirkətlərlə müqayisədə daha az kapital yatırımı ilə qısa müddətdə istehsal formalaşdırmaq qabiliyyəti əldə etdilər. Nəticədə, ABŞ xam neft hasilatının 10 %-ni təşkil edən şist istehsalı yüksələrək 50 % paya sahib oldu. Bu qısamüddətli yüksəliş (2008-ci illə müqayisədə günə 4 milyon barrel daha çox hasilat) neft hasilatının miqyasında Birləşmiş Ştatların digər iri neft istehsalçıları olan Rusiya və Səudiyyə Ərəbistanı ilə arasındakı fərqi önəmli dərəcədə ortadan qaldırdı. Şist neft istehsalındakı bu tərəqqinin doğurduğu nəticələrdən biri də ABŞ-ın neft ixracına tətbiq etdiyi 40 illik maneəni qaldırması və bu şirkətlərin qlobal bazarlardan faydalanmaq imkanının yaranması idi.

ABŞ şist istehsalçılarının hasilatı artırması və bununla da qlobal təklif həcminin əhəmiyyətli dərəcədə artması ilə qlobal neft bazarları azalan və dəyişkən neft qiymətləri mərhələsinə qədəm qoydu. 2008-ci ildə 145 dollara qədər yüksələn neft qiymətləri ani eniş yaşayaraq artıq 2016-cı ilin əvvəllərində 27 və 42 dollar arasında dəyişirdi. Təbii ki, neft qiymətlərinin bu formada sürətli enişi əsas neft ixracatçılarının və ölkəmiz də daxil olmaqla gəlirləri əsasən neftdən asılı ölkələrin iqtisadiyyatlarını çətinliklərlə üzbəüz qoydu. Bu dəyişiklik həmin ölkələrdə büdcə kəsiri və milli valyutaların dəyərlərinin əhəmiyyətli enişi problemlərini ortaya çıxardı. Hətta neft hasilatı və satışından yüksək səviyyədə valyuta ehtiyatı əldə etmiş Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt, Qatar kimi zəngin körfəz ölkələrinin belə, qarşıdakı on ildə iqtisadiyyatın diversifikasiyasını aparmadıqları təqdirdə eyni formalı çətinliklərlə üzləşəcəkləri gözlənilir.

Neft qiymətləri 2014-cü ildən 2016-cı ilin əvvəlinədək 100 dollardan 30 dollara qədər azalmağa başladığı zaman təhlilçilər ABŞ-da şist istehsalında yüksək enişin olacağını güman edirdilər. Şist istehsalındakı xərclərin ənənəvi sahədəkindən 3 dəfə çox olduğunu, şist yataqlarının verimliliyinin sürətlə azaldığını (adətən birinci ildən sonra yataqlardan əldə edilən hasilat 70 %-dək azalır) və bu sahədəki istehsalçıların yeni



“ABŞ ŞİST İSTEHSALÇILARININ HASİLATI ARTIRMASI VƏ BUNUNLA DA QLOBAL TƏKLİF HƏCMİNİN ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ ARTMASI İLƏ QLOBAL NEFT BAZARLARI AZALAN VƏ DƏYİŞKƏN NEFT QİYMƏTLƏRİ MƏRHƏLƏSİNƏ QƏDƏM QOYDU

ƏHLİMAN ABBASOV”

> “Neft qiymətləri 2014-cü ildən 2016-cı ilin əvvəlinədək 100 dollardan 30 dollara qədər azalmağa başladığı zaman təhlilçilər ABŞ-da şist istehsalında yüksək enişin olacağını güman edirdilər”

investisiyalar üçün maliyyə çətinliklərinin yarandığını nəzərə aldıqda bu potensial sürətli enişin ehtimalı yüksəlirdi. Lakin gözləntilərin əksinə olaraq, 2015-ci ilin martında ən yüksək səviyyəyə çatan şist neft istehsalı, ondan sonra yalnızca 17 % azaldı. Bu da göstərir ki, son illərdə ABŞ şist neft istehsalçıları artıq qiymətlərin aşağı səviyyəsinə də uyğunlaşmağa başlayıblar. Bu məqsədlə xərclərin azaldılması, məhsuldarlığın artırılması, yataqların səmərəli istismarı istiqamətində xeyli irəliləyişlər əldə edilmişdir. Məlumatlar göstərir ki, son iki ildə şist istehsalçıları istehsal xərclərini 40 %-dək azalda bilmişlər. Bununla yanaşı, onlar qazıntı və hasilat qurğularını da daha yaxşı yerləşdirərək yataqlardan istifadənin də məhsuldarlığını artıra bilmişlər. Bu artıq 2009-cu ildən sonra yüksəlişə keçərək dünya enerji bazarının önəmli komponenti halına gələn ABŞ şist istehsalçılarının gəldiyi yeni mərhələdir. Əgər əvvəllər neft qiymətləri aşağı düşdükcə şist istehsalçıları hasilatı dayandırıb bazarı tərk edirdilərsə, yeni mərhələdə bu şirkətlərin aşağı qiymətlər şəraitində belə fəaliyyət göstərəcəkləri gözlənilir. Bu baxımdan, neft qiymətlərinin aşağı səviyyəsində digər bölgələrdəki şist istehsalının azaldığı dövrdə Qərbi Texasda Permian hövzəsindəki yataqların daha çox fərqləndiyi qeyd edilməlidir.

Əsas neft ixracatçılarının dünya neft bazarındakı dəyişən bu dinamikadan zərbə alması onları neft bazarına müdaxiləsi zərurətini də doğurmuşdur. Bu baxımdan, OPEK üzvü ölkələri və Rusiyanın bu istiqamətdə uzun müddət davam edən müzakirələrini qeyd etmək lazımdır. Son 8 ildə ilk dəfə bu ilin sentyabrıda OPEK ölkələrinin Əlcazair görüşündə bir neçə iri neft istehsalçılarının hasilat həcminin azaldılması ilə bağlı razılaşma əldə etməsi neft qiymətlərinin 6% yüksəlməsinə səbəb oldu. Açıqlamalara görə, görüşün nəticəsi olaraq OPEK üzvləri istehsalın günlük 32.5 və 33 milyon barrel arasında olması ilə bağlı konsensus əldə ediblər. Lakin OPEK üzvlərinin digər üzv olmayan hasilatçı ölkələrin də iştirakı ilə bu ilin noyabr ayında planlaşdırılan görüşü bu prosesin gedişi ilə bağlı önəmli olacaq. OPEK ölkələri arasındakı başlıca ziddiyət istehsal məhdudlaşdırılması, yaxud da azaldılmasında hansı tərəfin nə qədər pay götürəcəyidir. Digər tərəfdən, istehsalçıları neft qiymətləri ilə yanaşı, bazar paylarının əldən çıxması təhlükəsi də narahat etdiyindən bu kimi razılaşmaların kağız üzərindən real təcrübəyə keçirmək çətinləşir. Eyni zamanda, uzun müddət istehsalın məhdudlaşdırılması təkliflərinə isti yanaşmayan İranla da bu məsələdə qəti razılığa gəlindiyi, yoxsa sadəcə noyabrdakı görüş üçün ilkin anlaşmanın əldə edildiyi də tam aydın deyil.

Aydındır ki, Vyanada OPEK ölkələri və digər iri neft istehsalçıları arasındakı istehsalın azaldılması ətrafındakı müzakirələr uğurla yekunlaşdığına görə neft qiymətləri müəyyən qədər artacaq. Lakin digər tərəfdən mütəxəssislər hesab edir ki, bu qiymət artımı ABŞ-da şist istehsalının yenidən güclənməsinə səbəb ola bilər. Artan qiymət şəraiti yaranan gəlir imkanından yararlanmaq üçün yeni yataqların istismarına başlanılması və ya əlavə istehsalçıların bazara daxil olması ilə nəticələnəcək. Bu da yenidən bazarda təklif artıqlığının meydana çıxması deməkdir. Bununla yanaşı, Texasın Permian bölgəsində və Nyu-Meksiko bölgəsində qeyd etdiyimiz texnoloji imkanların genişlənməsi ilə son aylarda yataqlardan daha çox neft əldə olunması müşahidə olunur. Eyni zamanda, bu şirkətlər istehsal zənciri yaradaraq istehsal xərclərini də aşağı salmağa başlayıblar. Qiymətlərin 45 dollara yüksəldiyi vaxtlarda artıq öncəki dövrlərdə bazarı tərk etmiş bəzi şirkətlər yenidən istehsalata geri qayıdırdı. Bəzi ekspertlər hesab edir ki, qiymətlərin 50$ və daha artıq səviyyədə qərarlaşması şist istehsalı sahəsində yenidən yüksəlişə səbəb olacaq. Bütün bunlar OPEK ölkələrinin neft bazarına müdaxiləsinin qoyulan hədəflərə çatması baxımından təsirliliyini şübhə altına alır. Artıq çevik və zaman keçdikcə istehsal texnologiyasını inkişaf etdirərək xərclərini aşağı salmağı bacaran ABŞ şist istehsalçıları müasir dövr neft bazarının reallığını müəyyənləşdirir və bu reallıq isə yüksək bazar qiymətləri vəd etmir.

Neft qiymətlərinin son 10 ildə dəyişməsi tendensiyası



"Azeri Light" qiymətinin UNEC proqnozu

UNEC əməkdaşları 2016-20120-ci illəri əhatə edən dövr üzrə "Azərlayt" markalı Azərbaycan neftinin dünya bazarlarında qiymətlərinin elmi əsaslarla ekonometrik modellərlə proqnozlaşdırmışdır.

Tədqiqat UNEC ilə ADNŞ arasında bağlanan müqavilə əsasında 2015-ci ili ikinci yarısı və 2016-cı ilin birinci yarısında yerinə yetirilmişdir. Tədqiqatın əsas nəticələrindən aşağıdakıları qeyd edə bilərik:

- İran neftinin dünya bazarına çıxması qadağasının aradan qaldırılması neftin qiymətini 4,354% düşməsinə, ABŞ-ın neft ixracına qoyulanan qadağanın aradan qaldırılması isə neftin qiymətinin 16,3698% aşağı düşməsinə gətirib çıxarır;

- ARIMA modeli ilə "Azərlayt" markalı neftinin dünya bazarlarında qiymətinin 2016-cı il üzrə orta qiyməti hər barrel üçün təxminən 50 dollar ətrafında qərarlaşacaqdır. Lakin kəskin enmə və qalxma hallarının olması istisna olunmur. Bu zaman min. qiymət 22, max. qiymət isə 88 dollar təşkil edə bilər. Loqarifmik xətti trend modeli ilə isə 2016-cı il üzrə neftin orta qiyməti hər barrel üçün 50,5-51 dollar ətrafında qərarlaşacağı alınmışdır. Bu ARIMA modeli ilə verilmiş proqnoza xeyli yaxındır. Lakin burada da kəskin enmə və qalxma hallarının olması istisna olunmur. Belə ki, orta qiymətdən kənarlaşma intervalı da böyüyür və 30 dollardan 105 dollara qədər ola bilər. Ümumiyyətlə, neftin hər barrelinin qiyməti dünya bazarlarında 2016-cı ildən 2018-ci ilə qədər qalxaraq 80,3-85 dollar təşkil edəcəyi, sonrakı illərdə enərək 2020-ci ildə 72-75 dollar təşkil edəcəyi proqnozlaşdırılmışdır.

Neftin 2016-2020-ci illər üzrə pronozu, 1 dollar barrel ilə

İl	min.	orta	max.
2016	38	51.5	64
2017	48	65	81
2018	67	80.3	94
2019	62	76	79
2020	45	72	98

Beləliklə, hər iki modelin proqnoz nəticələrini ümumiləşdirərək neftin dünya bazarlarında qiymətlərinin 2016-2020-ci illər üzrə dinamikasını aşağıdakı cədvəldəki kimi göstərə bilərik.

Qeyd edək ki, ekonometrik modelləşdirmədə əvvəlcə neftin qiymətinə təsir edən çoxlu sayda amillər: Elmi-texniki tərəqqi, enerji daşıyıcılarının alternativ mənbələrinin kəşfi, etiyatların dəyişməsi, yeni neft yataqlarının kəşfi, iqlim şəraiti, o cümlədən günəş aktivliyinin dəyişməsi, dünya ÜDM-nin artımı (o cümlədən, ABŞ, Çin, Hindistanda ÜDM artımı), hərbi konfliktlər, maliyyə strukturlarında spekulyativ əməliyyatlar, İran üzərindən neft ixracına qoyulan qadağaların aradan qaldırılması, ABŞ-ın öz neftinin ixracına qoyduğu qadağanın aradan qaldırması və s. kimi amillər təhlil edilmişdir. Daha sonra proqnozlaşdırmada istifadə edilən ARIMA-GARCH, ARFIMA-GARCH, ARFIMA-FIGARCH, TREND modelləri araşdırılaraq testləşdirilmiş və nəticədə daha adekvat alınan ARIMA və TREND modelləri ilə proqnozlar verilmişdir.

AİLƏ BİZNESİ

SAHİBKARLIĞIN İNKİŞAFINDA UĞURLU MODELDİR

> "ABAD" layihəsi ölkədə ailə institutlarının bünövrəsinin möhkəmlənməsinə xidmət edəcəkdir

Prezidentin 23 sentyabr 2016-cı il tarixli fərmanı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində formalaşdırılacaq "ABAD" ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunu artırmaq üçün geniş imkanlar yaradır. Pilot layihə çərçivəsində "ABAD" mərkəzlərinin fəaliyyətə başlaması üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə 1 (bir) milyon manat ayrılmışdır.

"ABAD" layihəsinə təkcə dövlət qurumlarından maliyyə və institsional dəstək göstərilmir, eyni zamanda, özəl sektorun da töhfəsi hiss olunmaqdadır. Oktyabrın 21-də SOCAR rəhbərliyi ilə ASAN xidməti arasında keçirilən görüş və imzalanan saziş bu ideyaya marağın artmasını göstərir. SOCAR bu layihəyə dəstək göstərəcək. İnanmaq olar ki, bu ideya populyarlıq qazandıqca ciddi investorların və tərəfdaşların sayı durmadan artacaq.

"ABAD" güclü bir layihəyə çevrilməsi üçün təkcə institsional dəstəyin olması deyil, onun bir biznes layihəsi olaraq ictimailəşdirilməsinə ehtiyac vardır. Müxtəlif media qurumlarında bu ideyanın ortaya çıxma zərurəti ilə bərabər, onun bir biznes konsepsiyası kimi tərəfdaşlara qazandıra biləcəkləri üstünlüklər haqqında təfsilatlı bilgilər verməklə yanaşı, bu istiqamətdə ciddi maarifləndirmə

kampaniyasının aparılmasına böyük ehtiyac vardır. Bunu təkcə bir layihə olaraq qiymətləndirmək də doğru olmaz. Ölkədə ailələrin gəlir mənbələrinin formalaşmasına yardım etməyə ehtiyac vardır. Bu təkcə ailələrin biznes təşəbbüslərinin stimullaşdırılması yox, eyni zamanda, bu ailə institutlarının dayaqlarının möhkəmləndirilməsinə xidmət edəcək. Çünki ölkədə il ərzində nikaha daxil olan 100 ailənin 20-22-si müxtəlif səbəblərdən dağılır. Bu kərpiclərin sökülməsində ailənin maliyyə imkansızlığının da rolu az deyil. Demək, biz bu ideyanın uğur qazanması ilə yanaşı, ölkədə ailə institutlarının bünövrəsinin möhkəmlənməsinə xidmət etmiş olacağıq.

Azərbaycanda ailə biznesinə dövlət dəstəyini təmin etmək məqsədilə "ABAD" publik hüquqi şəxsin yaradılması ailə təsərrüfatlarının hərtərəfli dəstəklənməsi məqsədi daşıyır. Biznes planların tərtib olunmasından başlayaraq, son məhsulun satışınadək və eyni zamanda, maliyyə dəstəyinin göstərilməsinin dəstəklənməsi dövlətin bu sahəyə yüksək qayğı göstərəcəyini nümayiş etdirir.

Araşdırmalar göstərir ki, iqtisadi böhran şəraitində ailə biznesi modeli ilə işləyən strukturlar daha etibarlı və dayanıqlı təsir bağışlayır. Mütəxəssislər bunu ilk növbədə onunla izah edirlər ki, ailə – etibarlılıq, güvənc deməkdir. Bu mənada, ailə münasibətlərinə söykənən biznes modeli də ən çətin anlarda belə etibarlı və güvəncli bir struktura çevrilir. Ailə biznesinin inkişaf istiqaməti fərqlidir o, orta və daha böyük sektora doğru inkişaf edir. Burada ailənin hər bir üzvünün şərəf və məsuliyyət hissi vacib amildir. Ümumi mənafe naminə birlik hissi ailəni birləşdirir, heç kim özünü təkbaşına lider, sahibkar, mütləq hakim hesab etmir. Onlar tədricən inkişaf edərək peşəkar top-menecerlərə, rəqabətə davamlı müəssisənin səmərəli idarəedicilərinə, həm də sıravi üzvlərinə çevrilirlər. Ailə biznesi özünün ənənələrini də yaradır, qoruyur və inkişaf etdirir.

Ailə təsərrüfatları dünyada ən qədim və ən çox yayılan biznes forması hesab edilir. Avropa ölkələrində ailə təsərrüfatları bazardakı təsərrüfatların 70%-dən çoxunu təşkil edir və ölkənin iqtisadi inkişafında və iş yerlərinin yaradılmasında mühüm rol oynayır. Böyük Britaniyada ölkə firmalarının 75%-i, ABŞ-da 90%-ni, Avropa İttifaqı ölkələrinin 85%-ni ailə biznesi şirkətləri təşkil edir. Nisbətən zəif də olsa, Rusiyada da ailə biznesi inkişaf edir. Məsələn, İspaniyada bazardakı təsərrüfatların təqribən 75%-i ailə təsərrüfatlarıdır və onların ÜDM-də payı 65%-ə çatır. Latın Amerikası ölkələrinə ailə təsərrüfatları büdcə daxilolmalarının 50%-nı təmin edir.

Cədvəl 2-də ailə dəyərinin biznesə təsirinin müqayisəsi qeyd edilmişdir:

> *Avropa ölkələrində ailə təsərrüfatları bazardakı təsərrüfatların 70%-dən çoxunu təşkil edir*

Ailə biznesi ilə tanınmış korporasiyalar inkişaf edərək dünya iqtisadiyyatına təsir edən Rokfeller, Ford, Opal-B, Siemens, Adidas, Samsung Electronics kimi maqnatlar böyümüşlər. Almaniyadakı bütün müəssisələrin demək olar ki, 85 faizi ailə şirkətləri və təşkilatlarıdır. Bu şirkətlərdən ən böyüyü qəhvə satışı ilə məşğul olan "Dalmayr" şirkətidir. Hazırda günümüzdə ailə biznesi ilə məşğul olan ən varlı ailə ABŞ-dan olan Uolton ailəsidir. Ailə «Wal-Mart Stores» supermarketlər şəbəkəsinə sahibdir ki, bu şəbəkənin də tərkibinə 4440 supermarket daxildir. Ailə biznesi 1962-ci ildə qurulub və bugünkü günümüzdə onlara 217,8 milyard dollar qazandırır.



MƏNBƏ: Ailə dəyərlərinin biznesə təsiri
Statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Hesab edirik ki, ailə təsərrüfatlarının inkişafı Azərbaycanda məşğulluqu artıracaq, büdcə daxilolmalarını diversifikasiya edərək yüksəldəcək. Bu öz növbəsində əhalinin gəlirlərini yüksəldəcək. Bu o deməkdir ki, ailə təsərrüfatları milli iqtisadiyyatda mühüm sosial-iqtisadi rol oynayacaq. Ailə biznesinin inkişafını təmin edən əsas faktor sürətlilikdir. Bu baxımdan tələb olunaun prosedurların ASAN-laşdırılması və "ASAN Xidmət" Mərkəzlərinin özünü yüksək səviyyədə doğrultması, insanların bu mərkəzlərə yüksək inamı başlanğıcın uğurlu olmasını şərtləndirir".

QEYD: Ailə biznesinin təşkilində bir vacib cəhət də odur ki, bu biznes özünə daha çox inam yaradır. Mümkün deyil ki, aldanasan- deməli, etibar puldan daha önəmlidir. Ona görə də ailə biznesində həm müştəri, tərəfdaşlarla, həm də öz daxillərində konfliktlərə daha az rast gəlinir.

dos. **H. Həmidov**

ÖZÜNÜMƏŞĞULLUQ VƏ KİÇİK SAHİBKARLIQ.

dos. MÜBARİZ MƏMMƏDLİ

İnkişaf etmiş ölkələrdə özünüməşğulluq əlavə gəlir mənbəyi, daha sərbəst həyat tərzi keçirtmək üçün özünün ilkin ehtiyaclarının ödənilməsi mənbəyi kimi çıxış edirsə, inkişaf etməkdə olan ölkələrdə bu yoxsulluğun aradan qaldırılması, əhalinin məşğulluq probleminin həll olunması yolu kimi görülür.

> *Ölkədə özünüməşğulluğun inkişafına dair Dövlət Proqramının qəbuluna ehtiyac vardır*

Özünüməşğulluq ən ilkin sahibkarlıq formasıdır, buna fərdi sahibkarlıq və ya mikrobiznes də demək olar.

Özünəməşğulluğun müsbət tərəfləri bunlardır:

- bacardığın və məmnuniyyət duyduğun işlə məşğul olmaq şansı;
- müstəqil fəaliyyət;
- bacarığa uyğun qazanc;
- iş qrafikinin azad planlanması.

Mənfi tərəfləri bunlardır:

- fəaliyyətin risklərinin müstəqil qarşılanması;
- ilkin mərhələnin maddi və psixoloji ağırlığı;
- planlaşdırma, marketinq, reklam, satış, uçot və s. fəaliyyətlərin təkbaşına həyata keçirilməsi.

Adətən özü üçün işləyənlər daha çox işləməli olurlar və ya da bəzən əmək intizamına çox ehtiyacları yaranır. Yəni tənbəllik və ya özünü həddən artıq yükləmə kimi neqativ hallara düşə bilirlər.

Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununda deyilir: "Özünüməşğulluq - əmək qabiliyyətli şəxslərin müstəqil surətdə özünü işlə təmin etməsidir".

Özünüməşğulluğun təşviqi vasitəsilə az təminatlı ailələrin həyat şəraitini yaşxılaşdırmaq, həm işsizlik problemlərini həll etmək, yoxsulluqla mübarizə aparmaq, ölkə iqtisadiyyatına fayda vermək, sahibkarlıq mühitini aktivləşdirmək mümkündür.

Özünüməşğulluğa nə aid edilir? Öz imkan və bacarıqları ilə digər şəxslərin (fiziki və hüquqi) ehtiyac və sifarişlərini müəyyən haqq müqabilində yerinə yetirmək qabiliyyəti olan hər kəsin göstərdiyi xidmətlər özünüməşğulluğa aid edilə bilər. Özünüməşğulluqla qazanan insanlara iqtisadiyyatın müxtəlif sahələrində rast gəlinir. Məsələn, repititorluq edən müəllim, evdəki texniki problemi həll etmək üçün çağırılmış santexnik, elektrik, öz evində dərzilik xidməti göstərən şəxs, sifariş əsasında evinin mətbəxində şirniyyat bişirən və ya evdəki qonaqlıq üçün kənardan cəlb edilən aşpaz və ofisant, web dizayner və sairə. Minlərlə belə misal çəkmək mümkündür. Müasir şəraitdə mobil telefon xidmətləri bazarı, İT xidmətləri, təbii materiallardan əl işləri (suvenir və aksesuarlar), onlayn təhsil, repetitorluq, sağlıq və idman, təbii kosmetik vasitələr, hüquqi xidmətlər, konsaltinq kimi sahələrdə fərdi sahib-

karlar üçün qazanmaq imkanı daha çoxdur.

Bəzi hallarda kiçik sahibkarlar daimi işçiləri cəlb etmək üçün kifayət qədər maliyyə vəsaitləri çatışmadıqda və ya ümumiyyətlə, daimi işçi saxlamaq sərfəli olmadıqda freelanserləri işə cəlb edirlər. Məsələn, kiçik bir toxuculuq sexiniz var və pambıq parça toxuyursunuz, pambıq iplikləri dəzgaha yükləməmişdən əvvəl onları nişastalamaq lazımdır. Bir ayda 5-6 dəfə belə əməliyyat tələb olunur. Bunun üçün ayrıca mütəxəssisi ştatda saxlamaq isə bahalıdır. Bu zaman sərbəst şəkildə işləyən mütəxəssisi cəlb etmək daha sərfəlidir.

İqtisadiyyat Nazirliyinin məlumatına əsasən ,2015-ci ildə fərdi sahibkarlıqla məşğul olanların sayı 576906 nəfər, kiçik müəssisələrin sayı isə 79037 olmuşdur. Dövlət Statistika Komitəsinin 2014-ci ilə olan məlumatına əsasən, kiçik sahibkarlıq subyektlərinin sayı 186898, bunlardan da 171917-si fərdi sahibkardır. İqtisadiyyat Nazirliyinin məlumatına əsasən isə 2014-cü ilə olan fərdi sahibkarların sayı 519816 nəfərdir. Fərdi sahibkarlar haqqında Statistika Komitəsi və İqtisadiyyat Nazirliyi tərəfindən verilən rəqəmlərdə fərq vardır. Özünüməşğul əhalinin statistik göstəriciləri isə yoxdur. Buna əsas səbəb özünüməşğul təbəqənin qeydiyyata "həvəsli" olmamalarıdır.

Cədvəl 1 mövcud statistik məlumatların reallığı əks etdirmədiyini göstərir.

Dünya Bankının 2014-cü il məlumatına əsasən, Azərbaycan Respublikasında özünüməşğulluq sahəsində olanlar cəmi məşğulluq qabiliyyəti olan əhalinin 66 % təşkil edir. Bununla bərabər, əksər inkişaf etmiş ölkələrdə bu rəqəm daha aşağıdır. Üçüncü dünya ölkələrində isə, əksinə, daha yüksəkdir. Məsələn, ABŞ-da özünüməşğulluq sahəsində olanlar bütün əməkqabiliyyətli əhalinin 6,8 faizini, Surinamda isə 96,6 faizini təşkil edir. Əməkqabiliyyətli əhalinin sayında özünüməşğulluq payına görə, ən az faizə sahib ölkələrə Qətər (0,5%), Səudiyyə Ərəbistanı (5,3%), ABŞ (6,6%), Norveç (7%), Rusiya (7,3%), Kanada (8,5%), Lüksemburq (8,8%), Danimarka (8,8%), Estoniya (9%), ən yüksək faizə sahib ölkələrə isə Surinam (96,6%), Efiopiya (89,5%), Uqanda (80,2%), Tanzaniya (75,9%), Vyetnam (65,1%), Gürcüstan (61%), Albaniya (59,8%) kimi ölkələr aiddir.

Azərbaycanda özünüməşğulluq xüsusilə ticarət və xidmət sahəsində geniş yayılıb. Elmin və texnologiyanın inkişafı ilə İKT sahəsində də özünüməşğulluq artmaqdadır. Bu gün müstəqil fəaliyyət göstərən proqramçılar, web dizaynerlər, smartfonlar üçün proqram əlavələri yazanlar və sairə daha da populyarlaşmaqdadır. Yəni, fərdi kəndli ev təsərrüfatlarından tutmuş yüksək texnoloji sahələrə qədər özünüməşğulluq üçün qazanc imkanları vardır.

Özünüməşğulluğun təşviq edilməsi Azərbaycanda dövlət siyasəti çərçivəsində aparılır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 aprel 2016-cı il "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam vermişdir. Bu sərəncamın icrası ilə əlaqədar olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir ki, bunlardan ən önəmlilərindən biri təlimçilərin hazırlanması olmuşdur.

Prezidentin ayırdığı 6 milyon manatla 86 rayonu əhatə etməklə 1500 aztəminatlı ailə 4 min manatla biznesini quracaq. Seçim aparılarkən ünvanlı sosial yardım alan ailələrə, xüsusilə ən azı 2 nəfər əmək qabiliyyəti olanlara üstünlük veriləcək, layihənin icrasında onlara verilən təsərrüfat əşyalarının, mal-qaranın və sairənin sığortalanması təmin ediləcək. Layihənin sonunda layihə çərçivəsində alınmış avadanlıqlar uğurlu layihə iştirakçılarının mülkiyyətinə veriləcək.

Cədvəl 1. Fərdi sahibkarların sayı

İllər	Dövlət Staistika Komitəsi	İqtisadiyyat Nazirliyi
2010	192588	306933
2011	210643	364600
2012	234634	438141
2013	150816	454997
2014	171917	519860

Cədvəl mövcud statistik məlumatların reallığı əks etdirmədiyini göstərir

STATİSTİKA

Fərdi sahibkarlar haqqında Statistika Komitəsi və İqtisadiyyat Nazirliyi tərəfindən verilən rəqəmlərdə fərq vardır. Özünüməşğul əhalinin statistik göstəriciləri isə yoxdur.

Çox vacibdir ki, özünüməşğulluğun patentləşdirilməsi və ya yüngül şərtlər daxilində vergidə qeydiyyatı aparılsın. Özünüməşğul təbəqənin vergilərə cəlb edilməsi həssas yanaşılma tələb edir. Burada fəaliyyət sahələrinə görə differensial yanaşmanın tətbiqi daha faydalı olardı.

Özünüməşğulluğun dövlət tərəfindən tənzimlənməsinə ehtiyac vardır. Fərdi sahibkarlıqla məşğul olanların qeydiyyatının aparılması mexanizmi işlənməlidir. Özünüməşğulluğun statistikası bu sahənin problemlərinin araşdırılması, müvafiq dövlət siyasəti tədbirlərinin hazırlanması üçün vacibdir.

Özünüməşğulluğun dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətləri fikrimizcə bunlardır:

1. qanunvericiliyin qəbulu;
2. peşəyönümünə, peşə hazırlığına, təhsilə yardım;
3. liberal vergi və ya patent sisteminin tətbiqi;
4. peşə ictimai birliklərinin (sənətkar qardaşlıqlarının) yaradılmasının təşviq edilməsi.

Azərbaycan Respublikasında özünüməşğulluğun inkişafının Dövlət Proqramının qəbuluna ehtiyac vardır. Dövlət Proqramında əhalinin özünüməşğulluğunun inkişafı üçün zəruri şərait yaratmaq, qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlər həyata keçirmək, özünüməşğulluğun inkişaf etdirilməsinə zəmin yaradan və bunu nizama salan yeni qanunvericilik aktlarının qəbul olunması kimi məsələlər öz əksini tapmalıdır.

Turizmdə "ƏRƏB YAYI"

Turizm məşğulluq təminatı və valyuta artırıcı xüsusiyyəti ilə milli iqtisadiyyata kömək olan, beynəlxalq mədəni və ictimai ünsiyyəti artıran təsiri ilə dünyada sülhün və əməkdaşlığın qorunmasında böyük payı olan bir sektordur. dos. **FARİZ ƏHMƏDOV**

Dünya Turizm Təşkilatının açıqlamasına görə 2016-cı ildə turist sayının ötən ilə nəzərən 4% artacağı gözlənilir. Turizm gəlirlərinə gəlincə beynəlxalq turizm 2015-ci ildə 1.5 trilyon dollar gəlir əldə etmişdir.

Azərbaycan da turizm sahəsi üçün Prezident Heydər Əliyev tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasında 2002–2005-ci illərdə turizmin inkişafı üzrə Dövlət Proqramı», habelə «Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı» böyük əhəmiyyət kəsb etmişdir, onların həyata keçirilməsi zəngin infrastrukturun qurulması və ölkəmizin beynəlxalq turizm bazarına inteqrasiyasının təməlinin qoyulması üçün şərait yaratmışdır. O dövrdə əldə edilmiş sosial-iqtisadi təcrübə turizm sahəsinin hərtərəfli inkişafı üçün yeni imkanlar yaratmışdır. Bakının daxili şəhəri olan «İçəri şəhər», Şirvanşahlar sarayının, Qız qalasının və habelə qayaüstü rəsmlər muzeyi «Qobustan»ın YUNESKO-nun dünya mədəni irsi siyahısına salınması, Prezident İlham Əliyevin 2011-ci ili "Turizm İli" elan etməsi və «Eurovision-2012» nüfuzlu mahnı müsabiqəsinin Azərbaycanın paytaxtı Bakı şəhərində həyata keçirilməsi bütün dünyadan turistlərin ölkəmizə axın etməsi üçün şərait yaratdı və ölkənin turizm sənayesinin inkişafına güclü təkan verdi. Son illərdə "Avropa Oyunları-2015", "Formula 1-2016" nüfuzlu mega tədbirlərinin ölkəmizdə keçirilməsi bir çox ölkələrin diqqətini çəkmiş və bu ölkələrdən gələn turist saylarını xeyli artırmışdır. Aşağıdakı cədvəldə 2005-2015-ci illər arasında ölkəyə gələn xarici ölkə vətəndaşlarının sayı və turizm məqsədilə gələn turistlərin sayı yer almaqdadır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sözlərinə görə, son illərdə Azərbaycana gələn turistlərin sayında böyük artım qeydə alınıb. Nazirin sözlərinə görə, ərəb ölkələrindən Azərbaycana gələn turistlərin sayı keçən illə müqayisədə 8 dəfə çoxdur. Bu sahədə aparılan dövlət siyasəti artıq müsbət nəticəsini verməkdədir. Hazırda əsas istiqamət xidmət səviyyəsində keyfiyyət dəyişikliyinə nail olmaqdır. Nazirin qeyd etdiyi kimi, yeni hazırlanan və beynəlxalq təcrübədən istifadə edilməsi nəzərdə tutulan "Turizm haqqında" qanun layihəsinin qəbulu inkişafı daha da sürətləndirmiş olacaq.

Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt vətəndaşlarına Azərbaycan Respublikasının bütün beynəlxalq statuslu hava limanlarında sadələşdirilmiş viza rejiminin tətbiqi ərəb turistlərinin ölkəmizə axınına müsbət təsir göstərmişdir.

Ərəb turistlərin sayının artması turizm sahəsində aparılan strategiyaların və ölkəmizdə keçirilən mega tədbirlərin nəticəsi olaraq dəyərləndirilə bilər. Ərəb turistlərin ölkəyə axını, eyni zamanda biznes əlaqələrinin də inkişafına səbəb olacaqdır.

Təkliflər: Ərəb turistlərin sayının artması ölkəmiz üçün sevindirici haldır. Ancaq bunun davamlı və tarazlı olması üçün bəzi addımların atılması qaçınılmazdır. Ərəb turistlərin sayını artırmaq və davamlılığını təmin etmək üçün aşağıdakı addımlar atıla bilər:

ƏRƏB TURİSTLƏRİN SAYI 8 DƏFƏ ARTIB

-Ölkəmizə gələn ərəb turistlərin ən çox marağında olan turizm növlərindən biri də ov turizmidir. Ərəb turistlərdən daha çox gəlir əldə etmək üçün ov turizmi yüksək səviyyədə inkişaf etdirilməli və hədəf kütlələrə təbliğ edilməlidir.

-Mehmanxalarda və turizm obyektlərində göstərilən xidmət keyfiyyətinin artırılması və qiymətlərin xidmətin keyfiyyət səviyyəsinə görə müəyyənləşdirilməsi ölkəmizə gələn turistlərin məmnunluğunu artıracaqdır.

-Ərəb turistlərin daha çox Quba, Qəbələ, Xaçmaz və Qusar-da turizm fəaliyyətlərinə qatıldığı bilinməkdədir. Adıkeçən turizm bölgələrində ərəb turistlərin daha çox istifadə etdikləri turizm məhsulları müəyyənləşdirilməli və onların keyfiyyətinin daha da yaxşılaşdırılması üçün addımlar atılmalıdır. Bu turizm bölgələrində turistlərin keçirdikləri zamanı artırmaq üçün alternativ turizm növləri və ya turizm məhsulları inkişaf etdirilməlidir.

-Ərəb turistlərin ən çox marağında olan turizm növlərindən biri də qış turizmidir. Ölkəmizə bu məqsədlə çox sayda ərəb turistin gələcəyi gözlənilir. Qış turizmi ilə bağlı infrastruktur təminatı daha da yaxşılaşdırılmalı, ehtiyac olduğu halda infrastruktur təminatın həcmi artırılmalıdır.

-Viza rejiminin yüngülləşdirilməsindən sonra atılması lazım olan addımlardan biri də hədəf ölkələrdən Azərbaycana birbaşa uçuşların təmin edilməsidir. Turistlər tranzit reyslər istifadə etmək yerinə, birbaşa uçuşlara üstünlük verirlər. Buna görə, turistlərin ölkəmizə gəlişi daha rahat formada təşkil edilməlidir.

-Ərəb ölkələrindən gələn turist sayını daha da artırmaq üçün ərəb ölkələrində ölkəmizi təmsil edən turizm büroları açılmalıdır.

Son olaraq, ərəb turistlərin maraq dairəsində olan turizm bölgələrinin və turizm növlərinin yaxşılaşdırılması və xidməti keyfiyyətinin artırılması növbəti illərdə də ərəb ölkələrindən gələn turist sayının artmasına təkan verəcəkdir.

İDMAN TURİZMİNİN

davamlı iqtisadi inkişafda rolu

i.ü.f.d. ELŞƏN MƏMMƏDOV

Müasir turizmin və idmanın bir araya gəlməsi yalnız yeni yerləri və mədəniyyətləri tanımaq üçün deyil, eyni zamanda, bədəni yenidən dinamik hala gətirmək, yeni duyğular yaşamaq və yeni fəaliyyətləri sınamaq üçün mükəmməl bir fürsət təqdim edir. İdman və turizm arasındakı bu qarşılıqlı əlaqə Ümumdünya Turizm Təşkilatı (UNWTO) və Beynəlxalq Olimpiya Komitəsinin (IOC) də diqqətini çəkmiş və 1999-cı ilin sonlarında idman və turizm arasındakı əlaqələri gücləndirmək üçün əməkdaşlıq razılaşması imzalamışlar. Bütün bunların nəticəsində, idman turizmi alternativ bir turizm növü olaraq son illərdə getdikcə inkişaf edən və böyüyən bir sektor halına gəlmişdir.

Xüsusilə olimpiadalar, Dünya kuboku, Beynəlxalq Tennis turnirlərivə s. kimi böyük miqyaslı idman tədbirlərinə olan maraq artımı idman turizminin inkişafında böyük rol oynamışdır. İdman təşkilatlarının ölkə təqdimatına və turizminə təsirini, iqtisadiyyata olan töhfələrini, yeni təsislər yaratmasını nəzərə alan ölkələr bu tədbirləri öz ölkələrində reallaşdırmaq üçün böyük səy göstərirlər. Belə tədbirlərə ev sahibliyi etmək böyük investisiya və büdcə tələb etməsinə baxmayaraq, bu hadisələrin sonunda ölkələr daha çox uğur əldə edir. Beynəlxalq idman tədbirləri ölkələrə, öz mədəniyyətlərini və turizm potensialını tanıtma, mövcud imiclərini inkişaf etdirmə və müsbət imic yaratma fürsəti verir.

Bu baxımdan, beynəlxalq idman tədbirləri ölkənin tanıdılmasında vacib rol oynayır. Beynəlxalq idman tədbirləri təşkil edilən ölkələrin, ya da şəhərin adı bütün dünyada yaddaşlarda qalır (2000-ci il Sidney Olimpiadası, 2008-ci il Pekin Olimpiadası kimi). Bəzi şəhərlər isə belə tədbirlərin mərkəzi halına gəlmişdir. Məsələn, İtaliyanın Turin şəhəri son illərdə ard-arda təşkil etdiyi Qış İdman Oyunları ilə, qış turizmi dedikdə ilk ağla gələn şəhərlərdən biri olmuşdur.

Beynəlxalq səviyyədə idman tədbirlərinin təşkili ölkəyə gələn turist sayının artımına

da əsaslı təsir göstərir. Məsələn, 2000-ci il Sidney Yay Olimpiadasından üç ay sonra Avstraliyaya gələn turistlərin sayı əvvəlki ilin eyni dörü ilə müqayisədə 15% artmışdır. Eynilə 1992-ci ildə təşkil olunan Yay Olimpiya Oyunlarından sonra Barselonaya gələn turistlərin sayında xeyli artım olmuş, 1991-ci ildə 1.727.610 olan turist sayı, 1993-cü ildə 2.455.249 nəfərə qədər yüksəlmişdir.

Beynəlxalq səviyyədə idman tədbirlərinin təsiri sadəcə turistlərin sayının artması ilə məhdudlaşmır, eyni zamanda, turizmdən əldə olunan gəlir artır, tədbirlərin keçiriləcəyi yerlərdə yeni iş yerləri yaranır, bununla da milli iqtisadiyyata və məşğulluğa öz töhfəsini verir.

Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycanın beynəlxalq yarışlara ev sahibliyi etməsində idman nailiyyətlərimizlə yanaşı, iqtisadi nailiyyətlərimiz də vacib rol oynamışdır. Bu gün Azərbaycanda idman və olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.



Artıq Azərbaycanda keçirilən Avropa, Dünya çempionatları silsilə xarakteri daşıyır. Son illər beynəlxalq turnirlərin — bədii gimnastika, qılıncoynatma, taekvando, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya çempionatı, "Baku World Challenge" avtomobil yarışı və Dünya, Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırmışdır. 2015-ci ildə ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-

"Bakı-2015" ilk Avropa Oyunlarının ölkəmizə verdiyi töhfələrdən biri də idman obyektləridir."

2016-cı ildə keçirilən "Formula-1" yarışı ilə bağlı Bakıya 10 mindən artıq turistin gəlməsi gözlənilirdi. Yarışlardan sonra Bakı otellərindən verilən məlumata əsasən, bütün otellərin otaqları demək olar ki, tam sifariş olunmuşdu. Orta hesabla bir turistin 3 gün ərzində bütün xərci 1000 dollar ətrafında qiymətləndirilir. Bu isə təxminən 10 milyon dollar ölkəyə gəlirin gəlməsi deməkdir.

Belə mötəbər yarışların ölkədə keçirilməsi, xarici investisiyaların daha intensiv cəlb olunması, onların özləri ilə bərabər, müasir texnologiyaları gətirməsi və bütün bunların nəticəsi kimi iqtisadiyyatın inkişaf etməsi, əhalinin sosial rifahının yaxşılaşması ilə nəticələnir. Qeyd olunanlarla yanaşı, ölkəmizdə idman turizminin inkişafı üçün aşağıdakı məsələlərə diqqət yetirmək lazımdır:

- İdman turizmi sahəsində dövlət strategiyası işlənib hazırlamalıdır;

- Ölkəmizdə aktiv idman turizmi üçün əlverişli yerlərin tanıdılması istiqamətində işlər görülməlidir;

- İdman tədbirlərinə tamaşaçı qismində gələn turistlərin cəlb edilməsi ilə bağlı marketinq strategiyası və siyasəti işlənməlidir;

- İdman tədbirlərinin turizmin reklamı və məhsuluna çevrilməsi yolları araşdırılmalıdır.

- İdman, turizm və özəl sektor arasında düzgün koordinasiya qurulmalıdır.

2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə həm ölkəmizin, həm də Avropanın idman tarixinə öz adını yazdırdı.

"Bakı-2015" ilk Avropa Oyunlarının ölkəmizə verdiyi töhfələrdən biri də idman obyektləridir. Belə ki, 2017-ci ilin mayında keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəylik Oyunları həmin idman obyektlərində — Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzində keçiriləcək.

"İdman tədbirlərinə tamaşaçı qismində gələn turistlərin cəlb edilməsi ilə bağlı marketinq strategiyası və siyasəti işlənməlidir"

KÖRFƏZ ÖLKƏLƏRİNİN

qeyri-neft sektorunun inkişaf təcrübəsi

TƏHMASİB ƏLİZADƏ

Son 2 ildə dünyada neftin qiymətinin ucuzlaşması həm müsbət mənada, həm də mənfi mənada dünya ölkələrinə təsir göstərir. Bu ucuzlaşmadan fayda əldə edən tərəf nefti idxal edən ölkələr, itirən tərəf isə nefti ixrac edən ölkələrdir. Körfəz ölkələri də neft ixrac edən və dünya neft bazarında əsas oyunçular kimi tanınan ölkələr olaraq, bu ucuzlaşmadan xeyli dərəcədə itirirlər. Bu səbəbdən, körfəz ölkələrinin qarşılarına qoyduqları əsas hədəflərdən biri də qeyri-neft sektorunun inkişafıdır. Bu araşdırma yazısında bu hədəfə çatmaq istiqamətində Körfəz ölkələrinin nə dərəcədə uğurlu və ya uğursuz olduğunu, bu ölkələrin tətbiq etdikləri qeyri-neft sektorunun inkişafı planlarını analiz edəcəyik.

Onu da qeyd etmək lazımdır ki, Körfəz ölkələri bundan öncə də, neftin qiymətinin 1980-ci illərdə kəskin aşağı düşməsi nəticəsində böyük depressiya yaşamış və bu dönəmdə zəif iqtisadi artım tempinə sahib olmuşlar. Bundan sonra Körfəz ölkələri iqtisadiyyatlarının əsasını təşkil edən neft sektorundan asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməyi özlərinə hədəf olaraq müəyyən etmişlər. Hazırda neft qiymətlərində baş verən kəskin enmələr Körfəz ölkələrinə neftdən asılı iqtisadiyyatların sonda uğursuzluqla nəticələnəciyini bir daha göstərmişdir.

Körfəz ölkələri qeyri-neft sektorunun inkişafına hələ 1980-ci illərdə neftin qiymətinin kəskin endiyi dövrdə başlamışlar. Onlar keçən dövr ərzində bu istiqamətdə müəyyən siyasətlər, planlar, strategiyalar hazırlamış və təqdim etmişlər. Ölkələrin qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın diversifikasiyası istiqamətində tətbiq etdikləri siyasətlərə və planlara misal olaraq, biznes mühitinin inkişaf etdirilməsi, gücləndirilməsi, infrastrukturun inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin arıtılması və təhsilə yatırılan investisiyaları göstərə bilərik. (IMF, 2014)

Ümumiyyətlə, Körfəz ölkələrində qeyri-neft sektorunun, özəl sektorun payı hələ də kiçik həcmdədir. Təbii ki, bu ölkələri ayrı-ayrılıqda analiz etsək, o zaman hər ölkənin iqtisadiyyatının şaxələndirilməsi istiqamətində təcrübələri və nəticələri bir-birindən fərqlənirlər. Bu ölkələrin indiyə qədər tətbiq etdiyi strategiyalar hazırkı dövrdə elə də yetərli deyil. Məsələn, Bəhreyn maliyyə sektorunu, bank sektorunu inkişaf etdirməklə, xüsusilə də İslam bankçılığını inkişaf etdirməklə, eyni zamanda, qeyri-neft sektorunda daha çox məhsul istehsalını və ixracatda qeyri-neft sektoru məhsullarının payını artırması ilə öz iqtisadiyyatını diversifikasiya edir.

Bu ölkələr arasında ən çox fərqlənən və yüksək nəticə əldə edən ölkə olaraq Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ). Diaqram 1-də BƏƏ-də 2015-ci il ərzində ÜDM-in sektorlar üzrə bölgüsü təqdim edilir. Beynəlxalq Valyuta Fondunun təqdim etdiyi rəsmi göstəricilərə əsasən, BƏƏ iqtisadiyyatında sektorların ÜDM üzrə payında birinci yerdə enerji sektoru (31%), ikinci yerdə daşınmaz əmlak sektoru (22%), üçüncü yerdə isə pərakəndə satış sektorudur (12%).

Dünya Ticarət Təşkilatının (DTT) təqdim etdiyi rəsmi hesabata əsasən, (DTT, 2016) BƏƏ iqtisadiyyatın diversifikasiyası istiqamətində strategiyasını yüksək texnologiyaların inkişafı, turizim sektorunun inkişafı, emal sənayesi, alternativ enerji sektoru və digər yüksək artıma sahib olan sektorları hədəf olaraq qəbul edir. Bundan başqa, qeyri-neft sektorunun inkişafı istiqamətində qeyri-hidrokarbogen sektorunun ÜDM-də payı 2000-ci ildəki 53% səviyyəsindən 69% səviyyəsinə qədər yüksəlmişdir. BƏƏ-nin əsas şəhərlərindən və mərkəzlərindən biri – Dubay hazırda regionun xidmətlər və ticarət hubu kimi fəaliyyət göstərir. BƏƏ-nin digər mərkəzi şəhəri Abu Dabidə isə Dubaydan fərqli olaraq, neft-kimya sənayesi, emal sənayesi, alternativ enerji sektoru inkişaf etdirilir.

Digər bir Körfəz ölkəsi olaraq Qətərin qeyri-neft sektorunun inkişaf strategiyasını analiz edəcəyik. Qətər son illərdə neft və qazdan asılılığı azaltmaq üçün qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın diversifikasıyası üçün strategiyalar tətbiq etdiyini görə bilərik. Əsasən özəl sektorun inkişafı, xarici investisiyanın cəlb olunması, maliyyə xidmətləri, təhsil, səhiyyə, turizm və idman sahələrinin inkişaf etdirilməsində addımlar atılmışdır. Bu tətbiq edilən strategiyalara misal olaraq göstərə bilərik:

1. Qətər Maliyyə Mərkəzinin yaradılması. Bu mərkəzin yaradılmasının əsas məqsədi maliyyə xidmətlərini ölkəyə cəlb etməkdir.
2. Qətər İnkişaf Bankının yaradılması. Bu bankın yaradılmasının əsas məqsədi özəl sektora maliyyə dəstəyinin təmin olunmasıdır.
3. Qətər Elm və Texnologiya Parkının yaradılması. Əsas məqsəd dünyanın texnoloji bazalı şirkətlərini təmin etməklə, Qətərin elm adamları və sahibkarlarına yeni imkanlar təqdim etməkdir.
4. Təhsilə böyük investisyanın yatırılması.
5. Qətərdə turizim sektorunu daha da inkişaf etdirmək üçün yeni strategiyaların tətbiqi.

Göründüyü kimi, Körfəz ölkələri ümumi olaraq da, ayrı-ayrı ölkələr olaraq da iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişafında müəyyən təcrübəyə sahibdirlər və eyni zamanda, artıq bir neçə layihə, strategiya həyata keçirmişlər. Lakin bu ölkələr hələ də iqtisadiyyat istənilən səviyyədə diversifikasiya edə bilməmiş və qeyri-neft sektorunun inkişafını tam təmin edə bilməmişlər.

Diaqram 1. BƏƏ, ÜDM-in sektorlar üzrə bölgüsü, 2015 (%)



Mənbə: BVF, Neft ixrac edən ərəb ölkələrində iqtisadi diversifikasiya, aprel, 2016

DAİR TƏKLİFLƏR VERGİ MƏCƏLLƏSİNƏ

İslahatlar dövründə şirkətlərin vergiyə cəlb olunması ilə bağlı məsələlər xüsusi əhəmiyyət qazanır. Bu baxımdan, vergi məcəlləsinə dair bəzi təkliflərimizi təklif edirik.

Maddə: 218. Sadələşdirilmiş verginin ödəyiciləri

218.4.1. mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər --

Təklif: bu maddədən beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla sözlərinin cıxarılması təklif olunur

220.6.4. maddəsi əlavə olunsun: - beynəlxalq yük və sərnişin daşımaları ucun əmsal 1,5 və yaxud 2 tətbiq edilə bilər.

218.5.6. mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (bu Məcəllənin 218.1.2-ci, 218.1.3-cü və 218.4-cü maddələrində göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur

Təklif: bu maddə dəyişdirilə bilər.

Hər hansı fəaliyyət növü ilə məşğul olan sadələşdirilmiş vergi ödəyicisi həm də obyektin icarəyə verilməsindən gəlir əldə edirsə, o ikili hesabat aparmağa məcburdur (mənfəət vergisi verməlidir). Bu zaman icarədən əldə etdiyi gəlirin qarşısındakı xərcin mübahisə yaratmaması üçün və ikili hesabatın olmaması üçün icarə haqqından gələn gəlirə də fərqli faizlə (məsələn, 6%) sadələşdirilmiş vergi tətbiq etmək olar.

ƏDV ilə bağlı

Maddə: 166. Vergi tutulan əməliyyatların aparıldığı vaxt.

Təklif: Maddə 166 təkmilləşdirilə bilər - ƏDV bəyannamələri hər ay üçün növbəti ayın 20-nə kimi verilir. Bu maddəyə əsasən vergi ödəyicisi hər ay verdiyi əvvəlki bəyannamələrə dəqiqləşmə verməlidir. Çunki 30 gün müddətində ödənilmiş əməliyyatlar izlənilməlidir.

i.ü.f.d. ***ANAR RZAYEV***

Maddə: 13.2.33. Azərbaycan Respublikası ərazisindən tranzit - gömrük qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası sərhədindəki iki məntəqə arasında Azərbaycan Respublikası ərazisi ilə daşınma.

Beynəlxalq daşıma — yüklərin və sərnişinlərin Azərbaycan Respublikası ilə (Azərbaycan Respublikasının sərhədlərindən) digər dövlətlərdəki məntəqə arasında daşınma sayılır.

Maddə: 165. Verginin sıfır (0) dərəcəsi ilə tutulması

165.1. Aşağıdakı işlərin görülməsinə, xidmətlərin göstərilməsinə və əməliyyatların aparılmasına görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur:...

165.1.4. beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması. Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi;

Təklif: "Beynəlxalq daşıma — yüklərin və sərnişinlərin Azərbaycan Respublikası ilə (Azərbaycan Respublikasının sərhədlərindən) digər dövlətlərdəki məntəqə arasında daşınma sayılır" - tərifindən "(Azərbaycan Respublikasının sərhədlərindən)" hissəsi çıxarılsın. İndiki halda milli beynəlxalq daşıyıcılar daxili məntəqədən sərhədə kimi daşıma üçün ƏDV hesablamalıdırlar, eyni tələb rəqabət aparan xarici daşıyıcılara tətbiq edilmir. Bu həm milli daşıyıcıları daha əlverişsiz vəziyyətə salır və əlavə işlər yaradır.

Maddə: 61.2 .... Vergi orqanları tərəfindən düzgün tutulmayan vergi, maliyyə sanksiyaları, faizlər və inzibati cərimələrin məbləğləri, vergilər üzrə borclar olmadıqda bu Məcəllədə başqa hallar nəzərdə tutulmadıqda vergi ödəyicisinin müraciətinə əsasən, 45 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər.

Təklif: Maddə 61.2-də 45 günün azaldılması və "gələcək ödənişlərin hesabına aid edilə bilər" ifadəsinin "vergi ödəyicisinin razılığı ilə gələcək ödənişlərin hesabına aid edilə bilər" ifadəsi ilə əvəzlənməsi təklif olunur.

Maddə: 65. Vergilər üzrə borcların alınması qaydası

65.1. Vergi ödəyicisi vergi öhdəliyini bu Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə vergi orqanı bu Məcəlləyə müvafiq olaraq hesablanmış və ya yenidən hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsinə dair vergi ödəyicisinə bildiriş göndərir.

65.2. Bu Məcəllənin 65.2.1.1 və 65.2.1.4-cü maddələrində nəzərdə tutulan hallar istisna olmaqla, digər hallarda vergi orqanının hesabladığı və ya yenidən hesabladığı vergilər, faizlər və ya tətbiq etdiyi maliyyə sanksiyaları üzrə vergi orqanı vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra sənədi olan sərəncam verir.

Təklif: Maddə 65-də olan ziddiyyət aradan qaldırılmalıdır. Əgər vergi odəyicisi hətta 3 gündən sonra (vaxt 5 gündür) odənişi həyata keçirsə belə, həmin məbləğ vergi ödəyicisinin təqsiri olmadan vergi orqanlarının uçot bazasında 5 gündən sonra görunmursə, elektron qaydada müvafiq banklara sərəncam göndərilir və bank həmin sərəncamı 1 gün ərzində (adətən həmin gün) icra edir. Nəticədə vergi ödəyicisi eyni məbləği 2 dəfə ödəmiş olur. 5 gün ərzində vergi ödəyicisindən alınmış artıq vəsait 45 gün ərzində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına nəzərə alınır. Nəticədə vergi ödəyicisinin nağd vəsaiti dondurulur.

Əsas vəsaitlərin amortizasiyası ilə bağlı

Maddə: 114.4. Əsas vəsaitlərin kateqoriyaları üzrə amortizasiya ayırmaları bu Məcəllənin 114.3-cü maddəsi ilə hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin vergi ilinin sonuna balans üzrə qalıq dəyərinə tətbiq etməklə hesablanır.

Təklif: Hal-hazırda amortizasiya əsas vəsaitlərin ilin sonuna olan qalıq dəyərinə tətbiq olunur və bu da suni olaraq əsas vəsaitlərin ömrünün uzanmasına xidmət edir. Nəqliyyat vasitələri (maddə 114.3.3) bölməsində amortizasiyanı əsas vəsaitin balans dəyərinə tətbiq olunması təklif olunur.

Maddə: 115. Təmirlə bağlı xərclərin gəlirdən çıxılması

115.1. ... 114.3.3-cü maddələrində göstərilən əsas vəsaitlərin kateqoriyasının ilin sonuna qalıq dəyərinin 5 faizi.

Təklif: Nəqliyyat vasitələri bolməsində təmir xərclərinin ilin sonuna qalıq dəyərinin 5 faizi qədər olması cox azdır və reallığı əks etdirmir və nəticədə əsas vəsaitin qalıq dəyərinin artmasına gətirib çıxarır.

Artıq Vergilər Nazirliyinin uçot-informasiya sistemində kifayət qədər informasiya var. Bu imkan verir ki, vergi ödəyiciləri tərəfindən Vergilər Nazirliyinə təqdim olunmuş hesabatlar və məlumatlar təkrar olaraq digər qurumlara (DSMF, statistika idarəsi, məşğulluq idarəsi) verilməsin və həmin qurumlar özlərinə lazım olan informasiyanı bu sistemdən götürsünlər.

Texnologiya tutumlu kənd təsərrüfatına doğru

"KOBB-DUQLAS" VƏ BEYNƏLXALQ TİCARƏTİN SPESİFİK FAKTORLAR MODELLƏRİNƏ GÖRƏ, MƏHSULUN İSTEHSALINDA İNTENSİVLİK BAXIMINDAN SAHƏLƏR KAPİTALTUTUMLU VƏ YA ƏMƏKTUTUMLU QRUPLARA BÖLÜNMÜŞDÜR

i.e.d. **MÜSLÜM İBRAHİMOV**

YAŞIL İNQİLAB və

Kənd təsərrüfatı sahəsində məhz əməktutumlu məhsulların istehsal olunması qəbul olunur. Başqa sözlə, burada əsasən aşağı ixtisaslı işçilərin əməyi əsas faktor kimi çıxış edir. Lakin Qərb dünyası tərəfindən "Yaşıl inqilab" tendensiyasına qoşularaq elmi-texnologiyaların inkişafında artan templərin yaranmasında məhz kənd təsərrüfatı məhsullarının istehsalına daha böyük önəm verilir. Kənd təsərrüfatının bəşəriyyətin elmi tədqiqatlarının bütün nailiyyətlərini özündə ehtiva edərək təbiət elmlərinin inkişafında təkanverici qüvvə olması danılmaz bir faktdır. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalında son 20 il ərzində təkmilləşdirilmiş aqrotexniki sxemlərin tərkibində istifadə edilən modernləşdirilmiş kənd təsərrüfatı texnikası iri şirkətlər tərəfindən istehsal olunaraq dünyada oliqopoliya tipli bazar yaratmışdılar. Bundan başqa, əkin növbələrinin intensiv sxemlərinin, suvarma torpaqlarının genişləndirilməsi və eyni zamanda, suvarma üsullarının təkmilləşdirilməsi, fitopotoloji və entomoloji vasitələrin müasir tərkibli elementlərinin istifadəsi və digər nailiyyətlər bütünlükdə dünya səviyyəsində elm və texnologiyaların sürətli inkişafına gətirib çıxarmışdır.

İnkişaf etmiş ölkələrdə seleksiya istiqamətində heyvandarlıq və əkinçilik sahəsində yeni sortların, hibritlərin və yeni cins növlərinin kəşfi, mövcudların təkmilləşdirilməsi istiqamətində irimiqiyaslı elmi-tədqiqatların aparılmasına külli miqdarda vəsait cəlb olunur. Bu və digər misallar onu sübut edir ki, artıq kənd təsərrüfatı elmtutumlu sahə olaraq texnologiyatutumluluq səviyyəsinə görə digər sahələri ötüb keçməsi prosesində aktiv iştirak edir.

İqtisadi cəhətdən texnoloji tutumluluq əmsalı texnologiyaların istifadəsi zamanı istehsal prosesində sərf olunmuş faktiki və keçmiş əməyin nisbəti əsasında müəyyən olunur, digər bir ifadə ilə texnologiyatutumluluğu işçilərin sayı və illik texnologiya fondlarının arasında nisbəti göstərir.

Ölkəmizin aqrar sahəsində yüksək texnologiyatutumluluğu səviyyəsinə nail olunması üçün ilk öncə təkmilləşmiş təşkilati-iqtisadi sisteminin istifadə edilməsi daha məqsədəuyğundur. Mahiyyət etibarilə bu kənd təsərrüfatı bitkilərinin istehsal texnologiyalarının, müasir aqrotexniki üsulların və sxemlərin təmərküzləşmə səviyyəsinin artması deməkdir. Elmi-texniki tərəqqinin nailiyyətlərinin öyrənilməsi və istehsal prosesində istifadə edilməsi, müvafiq üsulların iqtisadi səmərəliliyi baxımından seçilməsi və tədbiq edilməsi məhsulun istehsalında texnologiya intensivlik faktorununu gücləndirəcəkdir. Bura ixtisaslaşmanın dərinləşməsi, aqrar istehsalın təmərküzləşməsi, məhsul emalında forma və metodların təkmilləşdirilməsi, əməyin təşkili və digər metodlar daxildir.

Azərbaycanın texnologiyatutumlu səviyyəsinin artmasında iki istiqaməti təklif etmək olar. Ən önəmlisi, rəqabətqabiliyyətli yerli məhsulların hesabına daxili bazarda yerli istehlakçıların tələbinin ödənilməsidir. Burada daxili bazarın xüsusiyyətlərini təhlil edərək çeşidlilik, subsitutluq və digər elementləri nəzərə almaq lazımdır. Bunun üçün ərzaq təhlükəsizliyi və idxaləvəzedici mexanizmləri ayrı-ayrılıqda yox, birgə, bir-birini tamamlayan formada həyata keçirilməlidir. Burada ilk öncə ərzaq təhlükəsizlik səviyyəsinin artırılmasına əsaslanan tədbirlərin davam etməsi ilə bərabər, daxili bazarda idxal məhsullarına qarşı iqtisadi üsulların vasitəsilə rəqabət mübarizəsini aparmaqla daxili istehlakçının alıcılıq qabiliyyətinə uyğun keyfiyyətli məhsulların təklifi artırılmalıdır. Texnologiyaların istifadə edilməsi səhəsində diqqət əsasən məhsuldarlığın artırılmasına, burada il ərzində ən azı 2 dəfə məhsul yığımına, ərzaq məhsullarının istehsalında daha dərin emal prosesini təmin etməkdən ibarətdir. Təbii ki, burada ən əsası xarici texnologiyaların lokallaşması, mənimsənilməsi əsas şərtdir.

İkinci istiqamət dünya ərzaq və kənd təsərrüfatı bazarına ekoloji cəhətdən təmiz məhsulların ixracının artmasıdır. Burada əsasən texnoloji cəhətdən, ərzaq məhsullarının dərin emal prosesində robotlaşdırma texnologiyalarının tədbiqi, yüksək məhsuldar cins heyvanların, bitki sortların və biotexnologiyaların istifadəsi nəzərdə tutulur. Bu istiqamətdə dövlət tərəfindən böyük dəstəyə ehtiyac vardır. Burada güclü elm və təhsil komplekslərinin yaradılması, kənd təsərrüfatı məhsullarının və ərzaq tullantıları dərin və kompleks emal texnologiyaların tədbiqi və sair nəzərdə tutulur.

Yuxarıda vurğulananları nəzərə alaraq bir daha qeyd etmək olar ki, bu gün rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının qənaətbəxş miqdarda istehsal edilməsi ilk öncə bu sahənin texnologiyatutumlu istehsalının təməlində dayanır.

Artıq kənd təsərrüfatı elmtutumlu sahə olaraq texnologiyatutumluluq səviyyəsinə görə digər sahələri ötüb keçməsi prosesində aktiv iştirak edir

TEXNOLOGİYA

KƏND TƏSƏRRÜFATINA DƏSTƏK: Aİ TƏCRÜBƏSİ

Avropada vahid kənd təsərrüfatı siyasətinin həyata keçirilməsi ideyası 1957-ci ildə Aİ ümumi bazarın yaradılması haqqında Roma sazişini imzaladıqdan sonra yaranmışdır. Müqaviləni imzalayan dövlətlər ayrılıqda kənd təsərrüfatına yardımlar edirdilər. Lakin bir dövlət digər Avropa dövlətindən çox yardım edirdisə, ümumi bazar sistemində bu qəbul olunmaz idi. Ümumi bazarın yaradılması haqqında müqaviləni imzaladıqdan sonra vahid kənd təsərrüfatı siyasətinin həyata keçirilməsinə ehtiyac yarandı.

Aİ-də kənd təsərrüfatına dəstək mexanizmləri aşağıdakılardır:
1. Aİ-yə idxal olunan bəzi məhsullara tətbiq olunan rüsumlar. Rüsumların məqsədi idxal olunan məhsulların qiymətlərinin daxili bazarın qiymətləri ilə uyğunlaşdırılmasıdır.
2. İdxal olunan məhsullara tətbiq olunan kvotaların məqsədi daxil olan kənd təsərrüfatı məhsullarını məhdudlaşdırmaqdır.
3. Daxili müdaxilə qiymətləri. Daxili qiymətlər müdaxilə qiymətindən aşağı düşərsə, Avropa İttifaqı daxili qiyməti müdaxilə qiyməti səviyyəsinə çatdırmaq üçün həmin məhsulları fermerlərdən almalıdırlar.
4. Birbaşa subsidiyaların məqsədi müəyyən olunmuş məhsulların yetişdirilməsini stimullaşdırmaqdır. İlkin dövrlərdə birbaşa subsidiyalar müəyyən olunmuş məhsullara tətbiq olunurdu, lakin 2005-ci ildən sonra əkilən bütün torpaqlara və ekoloji təmiz məhsullara tətbiq olunur. Aİ ancaq bu islahatdan sonra kəndlilərə bazarda tələb olunan məhsulları istehsal etmək imkanı yaratdı. Lakin bununla bərabər, bəzi artıq (əlavə) istehsal olunan məhsullara kvotalar tətbiq olunurdu. Buna misal kimi, süd və buğda məhsullarını, çaxır istehsalını göstərmək olar.

Avropa İttifaqı fəaliyyət göstərdiyi dövrlər vahid kənd təsərrüfatı siyasəti daim təkmilləşib dəyişikliklərə məruz qalır. Tətbiq olunan siyasəti dörd dövrə təsnifatlaşdırmaq olar:

Birinci mərhələ 1957-1997-ci illəri əhatə edir. İlk dövrlər Aİ dövlətləri öz aralarında əsas kənd təsərrüfatı məhsullarına vahid qiymətin tətbiq olunmasına qərar vermişdilər. Əsasən də buğda məhsulları və mal əti vahid qiymətə satılırdı. Milli valyutaların məzənnələrindəki dəyişikliklərin nəzərə alınması üçün "yaşıl məzənnə" tətbiq olunurdu. Bir sözlə, yaşıl kurs kənd təsərrüfatı məhsullarının qiy-mətləri milli valyutanın məzənnəsinin dəyişməsi səbəbindən tətbiq olunur.

İkinci mərhələdə (1997-2003-cü illər): "Hərəkətlər planı 2000" adlanan vahid aqrar siyasətin aşağıdakı yeni istiqamətləri əsaslandırılmışdır:
- fermerin rolunun sosial, mədəni və təbii sisteminin inkişafında gücləndirilməsi ilə bağlı çoxfunksion-

AVROPADA VAHİD KƏND TƏSƏRRÜFATI SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ İDEYASI 1957-Cİ İLDƏ Aİ ÜMUMİ BAZARIN YARADILMASI HAQQINDA ROMA SAZİŞİNİ İMZALADIQDAN SONRA YARANMIŞDIR.

i.ü.f.d. **EMİN QƏRİBLİ**

allıq. Fermerlərə ödənişlər hesablanarkən məşğulluq səviyyəsi diqqətə alınırdı;
- kənd təsərrüfatının rəqabətə davamlılığının artırılması;
- ərzağın keyfiyyəti və təhlükəsizliyi üzrə tələblərin mal istehsalçıları tərəfindən yerinə yetirilməsi;
- təbii landşaftlarının qorunub saxlanması və kənd ərazilərinin inkişaf etdirilməsi.

Baxılan dövrdə kənd təsərrüfatı istehsalına investisiyalara məqsədyönlü dəstək istiqamətində tədbirlər tətbiq edilmişdir. İnvestisiya dəstəyi sahəsində əsas tələblər aşağıdakılardan ibarət idi:
- istehsal fəaliyyətinin diversifikasiyası;
- məhsulun keyfiyyətinin yaxşılaşdırılmasının həvəsləndirilməsi; ətraf mühitin mühafizəsi standartlarınariayətedilməsi.
- dövlət dəstəyinin

maksimal məbləği investisiyaların ümumi dəyərinin 40%-ni təşkil edirdi (əlverişsiz regionlarda bu, 50%-dək artırılmışdır).

"Hərəkətlər planı 2000"-nin səciyyəvi cəhətlərindən biri tamamilə yeni tənzimləmə prinsiplərindən istifadə edilməsi idi.

"Kəsişən uyğunluq" prinsipi ondan ibarət idi ki, birbaşa ödəmələri almaq üçün fermerlər Avropa Birliyi ölkələrinin milli qanunvericiliyi ilə müəyyən edilən müvafiq ekoloji tələblərə riayət etməli idilər.

Ödənişlərin modulyasiyası prinsipi qiymətlərə və istehsalçıların gəlirlərinə dəstək və həmin pulların kənd ərazilərinin inkişaf proqramlarının maliyyələşdirilməsi çərçivəsində (məsələn, aqroekoloji tədbirlərin həyata keçirilməsi, əlverişsiz regionlarda istehsalçılara dəstək göstərilməsi) fermerlərə ödənişlərin azaldılması hesabına dəstək vəsaitlərinin yenidən bölgüsünü nəzərdə tuturdu.

Avropa Birliyinin ümumi büdcəsindən və milli fondlardan aqrar sektorun dəstəyinə xərclər iki əsas istiqamət üzrə ayrılırdı:
1. Birbaşa ödənişlər də daxil olmaqla, istehsalçılara bazar dəstəyi və gəlirlərinin stabilləşdirilməsi, bazar qiymətlərinə dəstək üzrə tədbirlər (müdaxilə alışları, məhsulun saxlanılmasına çəkilən xərclər, ixracat subsidiyaları).
2. Kənd ərazilərinin inkişafı (ətraf mühitin mühafizəsi üzrə tədbirlər, əlverişsiz regionların təsərrüfatlarına yardım, keyfiyyət standartlarının yerinə yetirilməsi).

Subsidiyaların təklif edilməsi mənbələri kimi, Avropa Birliyinin birləşmiş büdcə vəsaitləri, həmçinin federal və regional büdcə vəsaitləri çıxış edir.

Almaniyanın kənd ərazilərinin inkişafına ayırılan təxsisatların ümumi məbləğində əlverişsiz regionlarda istehsalın subsidiyalaşdırılmasının xüsusi çəkisi 10,8% təşkil edir.

Ətraf mühitin müdafiəsi ilə bağlı tədbirlərin payına 24,7%, aqrar investisiyaların subsidiyalaşdırılmasının payına – 11,2%, torpaq işlərinin payına 9,6%, kəndlərin bərpasına – 8,8% düşür.

Üçüncü mərhələdə (2004-2007-ci illər) kənd ərazilərinin inkişafı üzrə tədbirlərin maliyyələşdirilməsinin həcmi əhəmiyyətli dərəcədə artdı. Diqqətəlayiqdir ki, fermerlərə maliyyə dəstəyi üçün vəsaitlərin ayrılması zamanı təbiətin mühafizəsi, məhsulun istehsal və emalı, malqaranın saxlanma-bəslənməsində sanitariya-gigiyena standart-larına riayət edilməsi nəzərə alınırdı. Bununla da erkən mərhələlərdə müşahidə olunan subsidiyaların istehsal olunan məhsulun həcmindən asılılığı azaldı.

Dördüncü mərhələ (2007-2013-cü il) "Tədbirlər planı 2000" islahatlar kursunun davam etdirilməsi ilə bağlıdır. Maliyyələşdirmənin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:
- insan potensialının inkişafı üçün şəraitin yaradılması hesabına kənd təsərrüfatı sahəsinin rəqabətə davamlılığının artırılması (peşə təlimi, məlumatlandırma, məsləhətləşmə, gənc fermerlərin həyat şəraitinin yaxşılaşdırılması) və fiziki kapitalın modernizasiyası;
- üzvi istehsal əsasında təbii şəraitin və landşaftın yaxşılaşdırılması;
- yaşayış şəraitinin yaxşılaşdırılması və kənd ərazilərində alternativ fəaliyyətin həvəsləndirilməsi;
- kənd icmalarının və yerli təşəbbüskar qrupların fəallığının həvəsləndirilməsi.

Qeyd etmək lazımdır ki, 2020-ci ilə qədər ümumi aqrar siyasətin əsas prioritetləri daha əvvəl istifadə edilən məqsədyönlü prinsiplərin varisliyini əks etdirir. 2011-ci ilin oktyabr ayında Avropa Komissiyası 2014-2020-ci illər üçün yeni Vahid Aqrar Siyasətin əsas məqsədini təsdiq etdi ki, bu da təbii ehtiyatlardan davamlı istifadə etmək və iqlim dəyişikliyinin nəticələrini yumşaltmaqdan ibarətdir.

2014-2020-ci illərdə vahid aqrar siyasətin əsas istiqamətlərinin büdcə maliyyələşdirməsinin təxminən 420 milyard avro təşkil edəcəyi, yəni 2007-2013-cü illərin səviyyəsini ötəcəyi güman edilir. Belə ki, Avropa Birliyinin ehtiyac duyan vətəndaşlarına ərzaq yardımının göstərilməsi üçün Avropa sosial fondundan təxminən 3 milyard avro həcmində ödəmələr nəzərdə tutulmuşdur. Təxminən 2,5 milyard avro qida məhsullarının təhlükəsizliyin təmin edilməsinə sərf etmək təklif edilir. Daxili bazarda antiböhran tədbirlərinin həyata keçirilməsi üçün rezervin (təxminən 3 milyard avro) yaradılması nəzərdə tutulmuşdur.





AZƏRBAYCANDA PUL KÜTLƏSİNİN DİNAMİKASI VƏ İQTİSADİ ARTIM

RÖVŞƏN CAMALOV

Pul kütləsi ilə iqtisadi artım arasında nəzəri cəhətdən əlaqənin olduğunu Irving Fisher tərəfindən real bazarla monetar bazar arasında birgə tarazlılığının ifadə olunduğu MV=PT düsturu (M-pul kütləsi, V-pulun dövretmə sürəti, P-qiymətlərin ümumi səviyyəsi, T-ticarət əməliyyatlarının həcmi) vasitəsiylə açıqlamaq mümkündür. Belə ki, düstura görə, resursların tam məşğulluğu şəraitində V və T-ni sabit qəbul etsək, M-dəki artım (texnologiyanın və əməyin məhsuldarlığının sabit qalması şərti ilə) mütləq surətdə P-də artım formasında əks olunacaqdır. Klassik iqtisadi məktəbin bu düşüncəsini qısaca izah etsək, tam məşğulluq şəraitində pul kütləsindəki artım qiymətlərdə artımla nəticələnəcəkdir. Keynsyen iqtisadi yanaşmaya görə isə iqtisadiyyat hər zaman tam məşğulluq səviyyəsində deyil, qeyri-tam məşğulluq səviyyəsində də məcmu tələb və məcmu təklif bərabərliyi şəraitində tarazlılığa gələ bilər. Belə olan halda, (qeyri-tam məşğulluq şəraitində) iqtisadi subyektlərin gəlirlərinin artırılması (pul kütləsindəki artım) istehsalın həcmində – real ÜDM-də atrımla nəticələnəcəkdir.

Nəzəri cəhətdən bu əsaslandırmanı Azərbaycan iqtisadiyyatı baxımından nəzərdən keçirdikdə qanunauyğunluğun olduğu müşahidə olunur. Cədvəldə son onillik dövrdə ölkə iqtisadiyyatında pul kütləsinin dinamikasını və iqtisadi artımı əks etdirən rəqəmlər göstərilmişdir. Bu rəqəmlərdən əldə olunan nəticə göstərir ki, onillik dövr ərzində pul kütləsi ilə iqtisadi artım arasında (2015-ci il istisna olmaqla) düz mütanasiblik vardır. Belə ki, bu dövr ərzində bütün pul aqreqatlarında və ÜDM-də artım müşahidə olunur.

Cədvəldə diqqətçəkən əsas məqamlardan biri isə 2015-ci ilə qədər M0 pul aqreqatının istər M2, istər də M3 pul aqreqatlarına olan nisbətlərinin yüksək olmasıdır. Ölkə iqtisasiyyatında nağd pul kütləsinin bu illərdə yüksək olmasının iqtisadi aktivliyə təkan verdiyini, bunun isə öz növbəsində iqtisadi artıma müsbət təsir etdiyini söyləmək mümkündür. 2015-ci ildə devalvasiyanın bir nəticəsi kimi inflyasiya ilə mübarizə aparılması siyasəti nəticəsində bu göstəricilərdə azalma müşahidə olunur. Bu isə əlbəttə ki, iqtisadi aktivliyin və iqtisadi artım rəqəminin azalması ilə nəticələnmişdir. Həmin ildə manatın dövretmə sürətindəki artım (2 dəfəyə yaxın) devalvasiyanın məntiqi nəticəsi kimi manatdan "qaçış"la izah oluna bilər (qısamüddətli effekt). Bu isə öz növbəsində istehlak xərclərinin həcminin qorunmasına və məcmu tələbin həcmininin sabit qalmasına və nəticədə zəif göstərici kimi (1.1 %) də olsa iqtisadi artımın reallaşmasına səbəb olmuşdur.

Ölkədə ticarət əməliyyatların aparılmasında nağd pula olan asılılığın yüksək olması (e-ticarətin zəif inkişaf etməsi) növbəti illərdə inflyasiyanın qarşısının alınması məqsədiylə nağd pul kütləsinin həcminin qorunması və ya artırılmaması kimi xarakterizə olunan sərt monetar siyasət davam etdirilərsə və digər iqtisadi siyasət vasitələriylə iqtisadi aktivlik dəstəklənməzsə, iqtisadi artım mənfi rəqəmlərdə öz əksini tapa bilər (uzunmüddətli effekt).

Pul kütləsi (min. AZN)

İllər	Geniş mənada pul kütləsi (M3)	M2 pul aqreqatı	M1 pul aqreqatı	Banklardan kənarda nağd pul aqreqatı (M0)	Manatın dövretmə sürəti	İqtisadi artım (%)
2006	3435,0	2135,5	1839,6	1311,4	-	34,5
2007	5897,3	4401,6	3621,7	2713,5	-	25,0
2008	8494,5	6081,2	5105,2	4145,9	6,6	10,8
2009	8469,4	6169,4	5231,5	4175,0	5,6	9,3
2010	10527,6	8297,6	6838,5	5455,9	5,0	5,0
2011	13903,5	10997,4	8796,3	7158,4	4,6	0,1
2012	16775,5	13806,6	11122,3	9256,8	3,9	2,2
2013	19289,4	16434,8	12736,9	10458,7	3,5	5,8
2014	21566,4	17435,8	12830,4	10152,5	3,4	2,8
2015	21286,9	8678,3	6897,4	4775,9	6,3	1,1

Mənbəə: *AMB-nın ststistik məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

ÖDƏNİŞLİ YOLLAR

BEYNƏLXALQ TƏCRÜBƏ

i.e.d., prof., T.İ.İmanov

Dünyada ödənişli yollar -Toll Road (WEBSTER lüğətinə görə, giriş üçün rüsum ödənilməsini tələb edən xayvey) təcrübəsi ötən əsrin ortalarından etibarən formalaşmağa başlamış və yol infrastrukturunun özəlləşdirilməsinə icazələrin verilməsi ilə bu sahənin inkişafının əsası qoyulmuşdur. Avropa və ABŞ-ı bu sahənin ilk pionerləri hesab edilsələr də, müvafiq olaraq Dünya Bankının dövlət-özəl sektor tərəfdaşlığını (Public-Private Partnerships, geniş yayılmış akronimdə - PPP) dəstəkləyən təşəbbüsləri ilə Asiya, Afrika və Latın Amerikası ölkələrində geniş yayılmağa başlanmışdı.

Ödənişli yolların 4 növü var:

1. Sıxlıq açan yollar (congestion reliever roads)
2. Aralıq yollar (development roads)
3. Körpü-tunel (bridges and tunnels)
4. Şəhərlərarası magistral yollar (inter-city arterial roads)

Avtomobillə təminat səviyyəsinə görə aparılan təhlil göstərir ki, inkişaf etmiş xarici ölkələrdə hər min nəfərə 450-500 avtomobil düşür. Hal-hazırda Qərbi Avropa ölkələrində bu göstərici 600-700, ABŞ-da 840, Rusiya Federasiyasında 225, Azərbaycanda isə 53 ədəd təşkil edir. Dünya praktikasında ödənişli yollardan istifadəyə görə tətbiq edilən ödəmə formalarına məqsədli yol vergiləri vasitəsi ilə yol infrastrukturunun maliyyələşdirlməsini tənzimləyən faydalı mexanizm kimi baxılır. Standart yol vergisinə əlavə olaraq köhnə «nəqliyyat rüsumları» («Transportation Toll») mexanizmindən istifadə olunması ümumi istifadə təyinatlı yollar çərçivəsi daxilində avtomobillərin hərəkəti üçün xüsusi ideal şəraiti təmin edən «biznes sinif şəbəkəsinə» malik ödənişli yollar seqmentini formalaşdırmağa imkan verir. Ümumi istifadə təyinatlı müasir yol şəbəkəsi, başqa sözlə, avtomobillə təminat səviyyəsinə görə inkişaf etmiş ölkələrdə hərəkət üçün əlverişli şəraiti təmin edən yüksək biznes sinfinə aid yollar əsasən «Road Money», vergi-büdcə sxemi üzrə toplanan vəsaitlər hesabına qurulur. Qeyd etmək lazımdır ki, əksər ölkələrdə yerli maliyyə orqanları və nəqliyyat departamentləri ödənişli yollar institutuna xüsusi önəm verirlər.

Dünyada ödənişli yollar şəbəkəsi ödənişli yolların peşəkar istismarçıları hesab edilən məşhur ASF, SAPRR (Fransa), Autostrade per l'Italia SpA (İtaliya), Abertis 5 (İspaniya) kimi şirkətlərin hesabına ildən-ilə genişlənir.

İYOL

Dünya praktikasında yollardan istifadəyə görə tətbiq edilən ödəmələrə məqsədli yol vergiləri vasitəsi ilə yol infrastrukturunun maliyyələşdirilməsini tənzimləyən faydalı mexanizm kimi baxılır

Uzunluğuna görə o qədər də böyük olmayan ödənişli yol şəbəkəsi Almaniya (AVRO-6 standartları üzrə hər kilometr üçün 0,135; AVRO-5 standartları üzrə isə hər kilometr üçün 0,218 evro təşkil edir) və Avstriya kimi ölkələrdə yalnız kurort ərazilərində mövcuddur. Burada ödənişli girişlər avtomobillərin rekreasiya zonalarına daxil olmasını məhdudlaşdırmaq məqsədi daşıyır. Eyni zamanda, Bundesfernstraßen (Federal Trunk Roads) və ya Motorways kateqoriyasına aid edilən Almaniyanın magistral avtomobil şəbəkəsində çəkisi 12 tondan ağır olan avtomobillərdən ödəniş haqlarını yığmaq üçün ELECTRONIC HGV (Heavy Goods Vehicle) TOLLING SYSTEM adlı yüksək texnologialı bir sistem fəaliyyət göstərir.

Avtomobil yollarından ödənişli əsaslarla istifadə zamanı aşağıdakıları nəzərə almaq lazım gəlir:

- "Nəqliyyat rüsumları" sxemindən bir qayda olaraq regionda nəqliyyat şəbəkəsinin kifayət qədər sıx olduğu zaman istifadə olunur.
- İstehlakçı hüquqlarının qorunması sahəsində normativ-hüquqi bazanın inkişaf etdiyi ölkələrdə ödənişli yollardan istifadəyə görə ödənilən rüsumun həcmi 0,006-0,1 evro/km təşkil edir. Qərbi Avropa ölkələrinin ödənişli yollarında aparılan müşahidə göstərir ki, trafiklərin ödənişli və ödənişsiz yollar arasında bölüşdürülməsi elastik hesab edilən qiymət tariflərinə güclü təsir göstərir. Daha doğrusu, xarici tənzimləmə predmeti hesab edilən tariflər və tarif dərəcələri daha çox standart marketinq hesablamalarına əsaslanır.
- Ödənişli rejimdə işləyən xayvey hər bir istiqamət üzrə 3-4 və daha artıq zolaqlara malikdir. Belə tip yolların bir kilometrinin çəkilişinə cari qiymətlərlə 12-20 mln.dollar, mürəkkəb quraşdırma işlərinin aparılması lazım olan yerlərdə isə təxminən 30-80 mln.dollar tələb olunur. Uzunluğu 50 km olan ödənişli yolların illik saxlanılmasına çəkilən illik xərclərin orta hesabla 25-50 mln. dollar təşkil etməsinə baxmayaraq, bu yollardan istifadəyə görə əldə edilən illik gəlir 60-80 mln. dollara bərabərdir.

Avropada ödəniş rüsumlar üzrə vahid sistem mövcud deyil. Ödənişli yollardan istifadəyə görə terminal, internet, marşrut kartları, PayPal tədiyyə sistemləri vasitəsi ilə tutulan rüsumların 3 sistemini fərqləndirirlər.

1. 1995-ci ildən Belçika, İsveçrə, Danimarka, Lüksemburq, Niderland kimi ölkələrdə istifadə edilən müvəqqəti sisitem (user charge –"evrovinetka"). Evrovinetka avtomobilin ön şüşəsinə

yapışdırılmış xüsusi yarlıqdan ibarətdir.

2. Distansion matris sistemi. Yolun ödənişli hissəsinin giriş və çıxışında şlaqbaum və ödənişləri qəbul edən kassa quraşdırılır. Motosikletlər də daxil edilməklə bütün nəqliyyat vasitələrini əhatə edən bu sistemdən əsasən Fransa, İtaliya, İspaniya, Portuqaliya və Yunanıstanda istifadə edilir. Bu ölkələrin avtomobil yolları şəbəkəsi hələ on il bundan əvvəl rüsumları yığan ASF, SAPRR (Fransa), Autostrade per l'Italia SpA (İtaliya), Abertis (İspaniya) və s. bu kimi xüsusi şirkətlərin idarəetməsinə verilmişdir. Hər bir magi-stral yol üçün bir-birindən fərqlənən tariflər dövlət və nəqliyyat operatorları arasında bağlanmış kontraktlara əsasən müəyyənləşdirilir.

3. Qət edilmiş məsafəyə əsaslanan sistem (toll). Belə bir sistem yükgötürmə qabiliyyəti 3.5 tondan çox olan avtomobillər üçün nəzərdə tutulmaqla əsasən Almaniya, Avstriya, İsveçrə kimi ölkələrdə istifadə olunur. Bu zaman tutulan rüsumun həcmi bütün digər şərtlərlə yanaşı avtomobilin ekoloji sinfindən də asılıdır. Özünə geniş tətbiq sferası tapan bu metodikaya anoloji olaraq Rusiya Federasiyasında «Platon» rus sistemi yaradılmışdır.

4. Asiya təcrübəsi.Asiyada ödənişli yollar yenicə təşəkkül tapmağa başlayan sektordur. Real ödəmə müddəti nəzərə alınmaqla əlverişli investisiya layihələri kimi ödənişli avtomobil yollarının tikintisini həyata keçirmək üçün prinsipial olaraq başqa şərtlər, yəni Qərbi Avropa və Şimalı Amerika ölkələrinə xarakterik olan tarif məhdudiyyətini aradan qaldırmaq tələb olunurdu. Hal-hazırda bir sıra Asiya ölkələrində (Hindistan, Malaziya, Misir, Türkiyə, Tayvan, Nepal və s) belə şərtlər mövcuddur. Bir qayda olaraq, dövlətlə xüsusi mülkiyyət sahiblərinin arasında müxtəlif əməkdaşlıq formalarından birindən «qur-sınaqdan keçirver» («Construct-Operate-Handover») sistemi tətbiq edilir. Hökumət ödənişli yolların, körpülərin, tünellərin layihələndirilməsi üçün əmələgəlmə mənbələri göstərilmədən əvvəllər ölkədən çıxarılan və ya əksinə ölkəyə gətirilən pul vəsaitlərinin yatırımına icazə verir. Belə bir lizenziyaya malik investor heç zaman ölkədən çıxarılması mümkün olmayan qurğuların (yol, körpü, tunel) tikintisinə kapital yönəldir və nəticədə uzun illər boyu öz hesabına yerli avtomobil sahibləri tərəfindən turniklərdən istifadəyə görə ödənilən təmiz - «ağ» pul sahibinə çevrilir. Beləliklə, belə bir sxemin tətbiqi ölkədə bir tərəfdən ödənişli yolların tikintisini sürətləndirirsə, digər tərəfdən kapitalın aministiyası üçün konkret resept verir. Bu tip layihələrin özünü tez ödəməsi üçün əhalinin avtomobillərlə təminat və buna uyğun olaraq sıx sahələrdə trafiklərin konsentrasiyası səviyyəsinin yüksək olması, eləcə də əhalinin nəqliyyat rüsumlarını ödəmək üçün hazır olması tələb olunur. Bu isə öz növbəsində Qərbi Avropa ölkələrinin ödənişli yollarında tətbiq edilən rüsum ilə müqayisədə bir neçə dəfə yüksək olan gediş haqqının tətbiq edilməsinə imkan verir. Sahibkarların xüsusi vəsaitləri hesabına tikilmiş yeni obyektlərdə (körpü, tünel) tariflər hər kilometrə bir dollar təşkil edir. Bütün bunlara xarakterik nümunə kimi son illərdə iri Asiya aqlomerasiyalarında (Honkonq, Sinqapur, Kuala-Lumpur) quraşdırılmış ödənişli obyektləri göstərmək olar. Bu tip obyektlərin maliyyələşməsi əmələgəlmə mənbələri tam şəffaf olmasa da, həm sahibkarların inzibati kapitalları, həm də xarici investorların sərmayəsi hesabına həyata keçirilir.

Özəl sektor nəqliyyat bazarına bir çox üsullarla cəlb edilir. Dünya Bankının müəyyənləşdirdiyi təsnifata əsasən ,dövlətin bu istiqamətdə imtiyazları lizinq, françayzinq və "tik-işlət-köçür" (Build-Operate-Transfer, beynəlxalq təcrübədə istifadə edilən akronimlə, qısaca "BOT") mexanizmləri vasitəsilə həyata keçirilir.

5. Digər ölkələrlə müqayisədə ən geniş yayılmış ödənişli yollar Çində yayıl-mışdır. Bu zaman dünya təcrübəsini hərtərəfli tədqiq edən yerli ekspertlər də hələ 1990-cı illərin əvvəllərində belə bir fikir formalaşdırmışdı ki, yol infrastrukturunun maliyyələşməsi üçün Qərb ölkələrinin «Road Money» vergi sxemindən istifadə etmək lazımdır. Bir sıra obyektiv səbəblərlə əlaqədar olaraq 1990-cı illərdə belə bir sxemə keçid mümkün olmamışdır. Çin hakimiyyəti köhnə, qərb və asiya modelinin kabinələşdirilmiş formasına üstünlük verməklə 4 rüsum formasından istifadə edirlər: yollardan istifadəyə görə tədiyyələr, yolların və yükləri emal edən məntəqələrin saxlanılması üçün yığımlar, xayvey üzrə yollara görə əlavələr, nəqletmə və inzibati yığımlar. Qeyd edilən tədiyyələrin yığılması üçün məntəqələr formal ola-raq magistral yollarda (ikinci texniki kateqoriyadan az olmayan) quraşdırılır. Praktiki olaraq bu tip məntəqələrə demək olar ki, hər 100 km bir rast gəlmək mümkündür.

Ödənişli yolların istismarı üzrə xüsusi təcrübəyə malik ölkələr

Ölkələr	Yol şəbəkəsinin ümumi uzunluğu, min km.	Avtomobil maqistrallarının (expressways) ümumi uzunluğu, min km.	Ödənişli yollar şəbəkəsinin uzunluğu, min km.	Ümumi şəbəkədə ödənişli yolların payı, %-la	Avtomobil magistralları şəbəkəsində ödənişli yolların xüsusi çəkisi, %-lə
ABŞ	6383,4	249,1	8,4	0,13	3,3
Yaponiya	1144,4	15,1	9,2	0,8	60,9
Fransa	981,8	9,8	7,9	0,8	80,6
İspaniya	662,4	9,0	2,6	0,39	28,9
Arqentina	500,0	10,4	9,8	1,96	94,2
İtalya	479,6	6,6	5,6	1,17	84,8
Meksika	303,3	5,7	5,7	1,88	100,0
Portuqaliya	72,5	1,5	1,2	1,66	80,0

NƏQLİYYAT XİDMƏTLƏRİNİN İXRACI

Ölkəmizin inkişaf strategiyasında nəqliyyat sektoru və onun vasitəsilə dünya iqtisadiyyatına inteqrasiya, tranzit daşımaların hesabına geoiqtisadi renta və dünya gəlirinə çıxış əldə edilməsi, ixrac/idxal əməliyyatlarının çevikləşdirilməsi və maya dəyərinin endirilməsi mühüm yer tutur.

Respublikada qeyri-neft nəqliyyat infrastrukturuna son illər külli miqdarda investisiya yatırımları edilmişdir. Bura "Bakı-Tbilisi-Qars" dəmir yolu xətti, "Yeni Ələt Dəniz Limanı", "İpək yolu" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri kimi layihələri aid etmək olar.

Qeyd etməliyik ki, investisiyaların əksər hissəsi nəqliyyatın dəmir yolu və dəniz növlərinin beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına yönəlmişdir.

Fikrimizcə, Azərbaycanın beynəlxalq avtomobil xidmətlərinə, onların ixracına və ölkənin ixrac/idxal əməliyyatlarında oynaya biləcək rola daha çox diqqət ayrıla bilər.

Burada diqqəti bəzi məqamlara yönəltməyi lazım bilirik:

1 **BEYNƏLXALQ AVTOMOBİL DAŞIMALARI** Azərbaycan üçün ənənəvi sahə sayıla bilər. Keçən əsrin 70-ci illərində Azərbaycanda SSRİ-nin nəhəng şirkəti olan "Sovtransavto"nun bölməsi qurulmuşdur və respublika beynəlxalq (Qərb ölkələri daxil olmaqla) avtomobil daşımaları həyata keçirirdi. Bunun nəticəsində ölkədə dayanıqlı kadr potensialı və daşımaçılıq ənənəsi yaranmışdır və hazırda da mövcuddur.

2 **ÖLKƏNİN COĞRAFİ VƏZİYYƏTİ** və regionda yaranmış siyasi durum çevikliyi ilə seçilən avtomobil nəqliyyatının xidmətlərinə tələbi artırır. Bundan hələ ki Türkiyə, İran, Rusiya daşıyıcıları və bu ölkələrin büdcələri yararlanır.

3 **MİLLİ İQTİSADİYYATIN STRATEJİ YOL XƏRİTƏSİ**ndə xüsusi yer almış kənd təsərrüfatı mallarının ixracı əslində avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilməli və mənzil bazarlara çatdırılmalıdır. Belə ki, tez xarab olan mallar nə dəmir yolu, nə də dəniz nəqliyyatı ilə daşına bilməz. Deməli, ölkənin xarici iqtisadi fəaliyyətinin nəqliyyat təminatında avtomobil nəqliyyat aparıcı rol oynamalıdır.

4 **BİZİM QİYMƏTLƏNDİRMƏMİZƏ GÖRƏ,** hal-hazırda ölkə sərhədlərini il ərzində 200 min civarında yük avtomobili keçir. Bu təxminən 10 min avtomobil nəqliyyatı vasitəsinin Azərbaycan bazarını istismar etməsi deməkdir. Azərbaycan daşıyıcılarının payı burada 5%-dən azdır. Ölkəmizin beynəlxalq avtomobil nəqliyyatı donanması 600-700 yük avtomobil vasitəsi ilə məhdudlaşır. Ölkənin bazarını aktiv şəkildə Türkiyə, Rusiya, Ukrayna və hətta Gürcüstan şirkətləri istismar edirlər. Respublikamız hal-hazırda avtomobil xidmətlərinin net idxalçısıdır. Gürcüstanın avtomobil donanması bir neçə minə çatmışdır. Türkiyə, Rusiya, Ukraynanın avtomobil nəqliyyatı donanmalarının hərəkət heyəti on minlərlə ölçülür. Regionda ən kiçik avtomobil nəqliyyatı donanması Azərbaycana məxsusdur.

5 On min beynəlxalq daşımalarla məşğul olan avtomobil nəqliyyatı vasitəsi ölkədə **20 MİNDƏN ARTIQ YENİ İŞ YERİ** yarada bilər.

6 Beynəlxalq daşımalarla məşğul olan **HƏR BİR AVTOMOBİL** nəqliyyatı vasitəsi orta hesabla ayda 4000-4500$ dövriyyə edə bilər. Bu isə öz növbəsində ölkənin tədiyyə balansında xüsusi yer tuta bilər.

7 Beynəlxalq avtomobil daşımaları bazarı kvotalar ilə qorunur və burada **İDXALIN ƏVƏZ EDİLMƏSİ** siyasətinin usullarını tez və effektiv tətbiq etmək mümkündür.

Bütün bunları nəzərə alaraq respublikanın beynəlxalq avtomobil nəqliyyatı daşımalarına xüsusi diqqət ayrılması aktual məsələdir. Ölkənin mütləq üstünlükləri olan bu sektorda xeyli sayda yeni iş yerlərinin yaradılmasına, qeyri-neft sektorunun ixracının nəqliyyat təminatının genişləndirilməsinə nail olmaq olar və bu nəticələri çox tez bir zamanda əldə etmək mümkündür.

i.ü.f.d. **Anar Rzayev**

AZƏRBAYCANIN KİMYA SƏNAYEŞİNİN İXRAC POTENSİALI

Azərbaycan artıq uzun illərdir ixracının əsasını neft və neft məhsulları təşkil edən bir iqtisadiyyata sahib ölkə olaraq, neftdən gələn gəliri digər sahələrə yatırmağa və neftin iqtisadiyyatdakı payını azaltmağa, qeyri-neft sektorunun payını isə yüksəltməyə çalışır.

Təhmasib Əlizadə

Bu anlamda hələ də tam uğurlu nəticələr əldə olunduğunu söyləmək çətindir. Lakin Azərbaycan öz iqtisadiyyatını diversifikasiya etmə yolunda artıq müəyyən mərhələləri keçmiş və bu strategiya ilə davam edən bir ölkədir. Qeyri-neft sektorunun inkişafı həm daxildə rəqabəti gücləndirəcək, məhsul çeşidliliyini artıracaq və əhalinin rifahına müsbət təsir göstərəcək, həm də əsas hədəf kimi ixrac yönümlü məhsulların istehsal olunduğu sənaye sahələrini yaradacaqdır. İxrac yönümlü məhsulların istehsalını reallaşdıracaq sənaye müəssisələrini qurmaq və inkişaf etdirmək ölkə iqtisadiyyatına orta və uzun dönəmdə müsbət təsir göstərəcəkdir.

Kimya sənayesi belə bir sənaye sahəsi olaraq ölkəmizdəki mövcud vəziyyətdə ixrac potensialı olan sahə kimi dəyərləndirlə bilər. Kimya sənayesinin hədəf sənaye sahələrindən biri kimi seçilməsi Azərbaycanın tarixən bu sahədə mövcud olan istehsalı və təcrübəsi ilə bağlıdır. Belə ki, qısa olaraq tarixi proseslərə nəzər salsaq görərik ki, Azərbaycanda kimya sənayesi hələ 19-cu əsrdə yaranmağa başlamış, xüsusən də neft-kimya sənayesi inkişaf etmiş və 20-ci əsrdə də yeni zavodların tikilməsi ilə davam etmişdir. Hazırda isə kimya sənayesinin ixrac potensialını artırmaq istiqamətində bir sıra layihələr həyata keçirilir. Lakin bu sahədə inkişaf daha sistemli şəkildə davam etdirilməlidir.

Kimya sənayesinin ixrac potensialının dəyərləndirilməsi və inkişaf etdirilməsi üçün Azərbaycanda müasir rəqabətə davam gətirə biləcək və standartlara cavab verə biləcək Neft-Qaz Emal və Neft-Kimya kompleksinin tikilməsi hədəflənir. Bu layihənin reallaşdırılması dövrü 2024-cü ilə qədər hədəflənmişdir və bu layihəyə uyğun olaraq, Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR tərəfindən şəhər ətrafında belə bir kompleksin tikintisi üçün layihələndirmə işləri aparılmışdır. Bu kompleksin tikintisi gələcəkdə kimya sənayesində istehsalın həcminə və keyfiyyətinə müsbət təsir göstərər. Eyni zamanda, bu layihə ölkənin ekoloji durumuna də müsbət təsir görərəcəkdir. Bu kompleksdə eyni zamanda Qaz emalı, Neft Emalı, Neft kimyası zavodları, eyni zamanda elektrik stansiyası da mövcud olacaq.

HƏDƏFLƏR: SOCAR Polymer şirkəti hər il 180 000 ton polipropilen və 120 000 ton yüksək sıxlıqlı polietilen istehsal etməyi hədəfləyir.

Kimya sənayesinin ixrac potensialının artırılması üçün SOCAR-ın aktiv rolu vacibdir. SOCAR kimya sənayesində gələcək hədəf olaraq, SOCAR Polymer şirkəti adı ilə polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (HDPE) qurğuları Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilməkdədir. SOCAR Polymer şirkətinin əsas hədəfi kimya sənayesini inkişaf etdirməkdir. Şirkət iki qurğusu vasitəsi ilə hər il 180 000 ton polipropilen və 120 000 ton yüksək sıxlıqlı polietilen istehsal etməyi hədəfləyir. Bu qurğular 2018-ci ildə istismara veriləcəkdir.

Onu da qeyd edək ki, hazırda Azərbaycan aşağı sıxlıqlı polietilen ixrac edir, eyni zamanda, yüksək sıxlıqlı polietilen idxal edir. SOCAR Polymer şirkətinin digər bir hədəfi də məhz idxal edilən məhsulların müəyyən bir qismini əvəz etmək və ölkənin kimya sənayesində ixrac potensialını yüksəltməkdir. Lakin bu hədəflərə çatmaq üçün ən mühim məsələ qarşıya qoyulan məqsəd doğrulutusunda işi doğru yerinə yetirmək və plana uyğun olaraq işi qurmaq gərəklidir.

Bundan başqa, Təmiz Qala, Eco-Industrial Park, Sumqayıt Sənaye Parkı və s. kimi digər ləyihələr də kimya sənayesinin inkişafı və ixrac potensialının yüksəldilməsi ilə bağlı həyata keçirlən və keçirilməsi hədəflənən layihələrdir. Azərbaycanda kimya sənayesinin ixrac potensialının yüksəldilməsində digər bir mühim addım isə daxildə bu sahədə rəqabəti təmin etmək və bu sahədə yeni şirkətlərin yaradılmasını stimullaşdırmaqdır. Eyni zamanda, Azərbaycanın hansı növ məhsullarla dünya bazarına çıxacağı, hansı məhsullar üzrə ixracını artıra biləcəyi kimi məqamlar geniş araşdırma tələb edir.

Ümumilikdə, yekun olaraq onu qeyd etmək lazımdır ki, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətində ölkəmizdə alternativ sənaye sahələrini inkişaf etdirmək çox mühümdür.

SƏHM BAZARI NƏ VAXT CANLANACAQ?

> Səhm bazarı insanları azad vəsaitləri istifadəsiz saxlamağa deyil, alternativ investisiyalara yönəltməyə sövq edə bilər

Səhm bazarının inkişaf etdiyi ölkələrdə əhali demək olar ki, öz vəsaitlərini portfel investisiyası halında şirkətlərə yönəldir ki, bu da iqtisadiyyatda pul kütləsinin daima dövriyyədə olması, səhmlərin yüksək dərəcəli likvidliyi və müəssisələrin dayanıqlı inkişafına böyük zəmin yaradır. Azərbaycanda 1996-cı ildən sonra başlanan özəlləşdirmə siyasəti səhm bazarının inkişafında demək olar ki, ilkin mərhələ olmuşdur. Bundan sonrakı dövrdə, iri neft pullarının ölkəyə daxil olmasından sonra artıq bir çox broker şirkətləri formalaşmış və 2006-cı ildən etibarən broker şirkətləri vasitəsilə iri şirkətlərin özəlləşdirilməsi ənənəvi hal almışdır. Bankların yalnız açıq səhmdar cəmiyyət formasında fəaliyyət göstərməsi tələbi artıq onların səhmlərinin Bakı Fond Birjasında dövriyyəsini sürətləndirmiş və səhm bazarını bir növ canlandırmışdır. Bununla belə, ölkədə əhali tərəfindən səhm bazarına maraq və inam təəssüf olsun ki, istənilən səviyyədə deyil. Bunun da əsas səbəbi kimi, insanların alternativ investisiya vasitələrinə az meyilli olmalarını göstərmək olar. Azərbaycanda artıq 2006-ci ildən başlayan güclü iqtisadi artım və əhalinin gəlirləri nəticəsində qiymət artımı sürətlənməyə başladı. Əmanətlərə yüksək faiz verən banklar və stabil şərait artıq əhalinin banklara inamını artırdı və bank depozitlərinin sayı hər il dəfələrlə artmağa başladı. Bundan başqa, daşınmaz əmlak qiymətlərinin durmadan artması tikinti sahəsində inkişafı sürətləndirdi. İnkişaf etmiş ölkələrdə investorların illik 10% qazanması çox uğurlu nəticə sayıldığı bir vaxtda, 2006-2012-ci illərdə Azərbaycan bankları depozitlərə 15-20% gəlir vəd edirdi. Qeyd edilən dövrdə daşınmaz əmlak qiymətləri

də demək olar ki, ilə 10-15% artırdı. «2011-2020-ci illərdə "Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı» Dövlət Proqramının qəbulu ölkə iqtisadiyyatında kapitallaşma dərəcəsinin yüksəldilməsinə nail olunması, iqtisadi layihələrin maliyyələşdirilməsində qiymətli kağızlar bazarının rolunun artırılması üçün mühüm addım olmuşdur.

2015-ci ildən başlayaraq, neft qiymətlərinin 2 dəfədən artıq düşməsi əhalinin gəlirlərinin azalmasına səbəb olmuşdur ki, bu da daşınmaz əmlak bazarında durğunluq yaratmışdır. Biznes mühitinin zəifləməsi şəraitində banklarda kreditləşmə səviyyəsi azalmış, nəticədə depozit faizləri da əhəmiyyətli dərəcədə enmişdir. Artıq insanlar vəsaitlərini az gəlir gətirən depozit və daşınmaz əmlaka yatırmır və çaşqınlıq içində xarici valyutada saxlamağı üstün tutur. Güclü səhm bazarının olması insanları bu vəsaitləri istifadəsiz saxlamağa deyil, alternativ investisiyalara yönəltməyə sövq edərdi. Bəs nə üçün bu baş vermir?

İlk öncə səhm bazarının strukturuna nəzər salsaq görərik ki, birinci dərəcəli qiymətli kağızlar bazarının inkişafı üçün lazım olan əsas meyarlar hələ də tam təkmilləşməyib. Azərbaycanda özəlləşdirmə nəticəsində yaranan səhmdar cəmiyyətləri çox hallarda investorlar tərəfindən qoyulan tələblərə cavab vermir. Emitentlər və investorlar arasında vasitəçilik fəaliyyətini həyata keçirə biləcək, o cümlədən peşəkar məsləhətçilər kimi çıxış edə biləcək hərtərəfli bacarıqlı vasitəçilərə hələ də böyük ehtiyac vardır. Ölkədə hələ də investisiya bankçılığı lazımi səviyyədə inkişaf etməyib. Peşəkar iştirakçılar dünya praktikasında, xüsusilə ABŞ, Kanada, İngiltərə, Yaponiyada olduğu kimi, bazarda baş verən və baş verə biləcək situasiyanı analiz etməli, bu və ya digər problemlərin aradan qaldırılması üçün lazımi təkliflər verməlidirlər. Şirkət və müəssisələr öz fəaliyyətlərini tam şəffaf aparmalı, investorlara vaxtı - vaxtında maliyyə hesabatlarını təqdim etməlidirlər.

Fond birjasında da struktur dəyişikliklərinin həyata

> Bankların manatla yüksək faiz vəd etməsi də səhm bazarının inkişafını zəiflədən amillərdən biridir

keçirilməsinə ehtiyac vardır. Yaddan çıxarmaq olmaz ki, birja – ikinci dərəcəli bazardır. Azərbaycanda yeni buraxılan qiymətli kağızlar (əsasən səhmlər) fond birjasına birinci dərəcəli bazardan yan keçərək daxil olur. Dünya təcrübəsində göründüyü kimi, fond birjaları əsasən köhnə buraxılışlı qiymətli kağızların, əsasən də səhmlərin "emalı" üzrə ixtisaslaşırlar. Lakin bir şeyi də qeyd etmək lazımdır ki, birjalardan xüsusi və dövlət istiqrazlarının bir hissəsi də keçir. Eyni zamanda, fond birjalarında (əsasən kontinental Qərbi Avropa ölkələrində) yeni buraxılmış səhmlərdə realizə olunur. Bu isə qiymətli kağızlar emissiyasının böyük həcmliliyi ilə izah olunur.

Səhm bazarının canlanması üçün ilkin şərt onun digər investisiyalardan daha gəlirli olması ilə səciyyələnir. Səhm bazarının gəlirliyi manatla olduğundan bu əhalidə artıq ona olan marağı azaldır. Bankların manatla yüksək faiz vəd etməsi də səhm bazarının inkişafını zəiflədən amillərdən biridir. Səhm bazarının canlanması üçün aşağıdakı şərtlərin olması vacibdir:

- Müəssisələrə milli valyutada kreditlərin verilməsi;
- Müəssisələrdə səffaf hesabat sistemi;
- İqtisadi stabilliyin yaradılması və kəskin devalvasiyadan imtina olunması;
- Xarici valyuta təminatının olması;
- Müəssisələrin fəaliyyətində şəffaflığın qarşısını ala biləcək baryerlərin aradan qaldırılması;
- Etibarlı broker şirkətlərinin yaradılması və inkişafı;
- İnvestisiya bankçılığının yaradılması və inkişafı;
- Cəmiyyətin alternativ investisiya ilə bağlı maarifləndirilməsi;
- Universitetlərdə alternativ investisiya sahəsi üzrə kadrların hazırlanması;
- Əhalinin gəlirlərinin artan tempdə davam etməsi; Neftdən asılılığın azaldılması və qeyri-neft sektoruna dövlət investisiyalarının yatırılması.

Manatın dəyərdən düşməsi səbəbindən, alternativ investisiya kimi xarici valyutaya ehtiyac yüksək olaraq qalacaqdır. Bu amilin neytrallaşdırılması üçün qeyri-neft sektounun ixracının artması vacib şərtdir. Bütün bunları nəzərə alaraq səhm bazarının canlanması 2020-ci ildən etibarən daha real görsənir.

Fəxri Məmmədov

ƏLƏTDƏ AZAD TİCARƏT ZONASININ PERSPEKTİVLƏRİ

Seymur C. Əliyev

1

Birbaşa valyuta qazanclarının əldə edilməsi - reallaşdırılan bütün iqtisadi fəaliyyətlər ölkəyə valyuta daxilolmalarını artırmaqla tədiyyə balansına müsbət təsir göstərir

Müasir dünya iqtisadiyyatı son 10 illikdə olduqca mürəkkəbləşmiş və bir o qədər də təzadlar (paradokslar) fonunda irəliləməkdədir. Belə ki, uzun dönəmdir beynəlxalq iqtisadiyyatda əsən qloballaşma (iqtisadi liberalizm) rüzgarı, öz istiqamətini əsaslı şəkildə dəyişməklə yerini tədricən iqtisadi milliləşməyə (iqtisadi proteksionizmə) verməkdədir ki, bunu da biz BREXIT və ABŞ-dakı prezident seçkiləri və onların nəticələri timsalında rahatlıqla müşahidə etmiş olarıq. Ümumiyyətlə, 2008-ci il, maliyyə-iqtisadi böhranı qlobal iqtisadi sistemdə yeni çağırışlar tələb etməklə milli iqtisadiyyatlar qarşısında olduqca dəyişik vəzifələr yaratmışdır.

Milli iqtisadiyyatlarüçün iqtisadi inkişafın təmin edilməsi istiqamətində xarici ticarət siyasətlərini yenidən şəkilləndirmək və dəyişik iqtisadi alətlərin tətbiqi zəruriləşmişdir. Belə alətlərdən biri kimi xüsusi iqtisadi zonalar və onun ayrı-ayrı növləri müstəsna əhəmiyyət kəsb edir.

Ölkəmizin 2014-cü ilin son rübündən etibarən qarşılaşdığı iqtisadi çağırışlar, ölkə iqtisadiyyatı menecmentində yeni iqtisadi şəraitə uyğun siyasət strategiyasının hazırlanıb tətbiq edilməsi situasiyasını yaratmışdır. Belə addımlardan biri və bizcə, ən önəmlisi Ələt Azad Ticarət Zonasının yaradılması təşəbbüsüdür.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri çərçivəsində, prioritet sahələrin müəyyən edilməsi istiqamətində ölkəmizdə xüsusi iqtisadi zonaların yaradılması zərurəti özünü qabarıq şəkildə büruzə verməkdədir. Sözügedən siyasət sənədində sektorlar üzrə təşəbbüslər portfelinin və milli iqtisadiyyat perspektivinə əsaslanan prioritetləşmənin sintezi kimi Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz

4 Məşğulluq baxımından pozitiv effektlər – bu zonalara malik milli iqtisadiyyatlar da mövcud işsizlik probleminin həlli istiqamətlərindən biri kimi qəbul edilir. Xarici investisiya və texnoloji transfer baxımından pozitiv effektlər – bu zonalarda fəaliyyət investisiya və texnologiya tutumlu olduğundan, ev sahibi ölkələrə olduqca pozitiv təsir göstərir.

2 Pozitiv ixrac effekti müşahidə edilməsi - daxildən azad zonalara satılan əmtəə və xidmət ixrac sayıldığından və xarici ticarət xərclərinin azalması ixracatçı şirkətləri təşviq edir

3 Pozitiv idxal effektləri - əmtəənin seçilməsi, sifarişi, qiymətin razılaşdırılması, yüklənməsi, akreditivin açılması və gömrük prosedurlarının reallaşdırılması AİZ-lərdə daha asandır ki, bu da idxalatçı şirkətləri təşviq edir.

Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı təşəbbüs təqdirəlayiq bir hal kimi qiymətləndirilməkdədir.

17 mart 2016-cı il tarixli Prezident Sərəncamının icrası istiqamətində görülən işlərin birinci mərhələsi kimi ölkənin çoxşaxəli nəqliyyat infrastrukturun un yaradılması istiqamətində görüləcək işlərin ilk iki il ərzində 1 milyard dollarlıq investisiyanın cəlb edilməsi proqnozlaşdırılmaqdadır. Hökumətin əsas hədəfi Şanxay, Dubay, Sinqapur və digər beynəlxalq arenada özünü təsdiq etmiş azad iqtisadi zonalar prototipində Ələt azad ticarət zonasının yaradılmasını hədəfləyir.

Azad ticarət zonasında müxtəlif sənaye sahələri, xüsusən də yüngül sənayenin müxtəlif seqmentlərini əhatə edəcək sahələrin yaradılması planlaşdırılır. İlk olaraq zonada anbarlar və əlavə dəyər yaradacaq sahələr olacaq. Növbəti mərhələdə əczaçılıq, neft-kimya, yüngül sənaye, kiçik istehsalat sahələrinin yaradılması nəzərdə tutulub.

İşlərin 2017-ci ilin sonuna qədər yekunlaşdırılması hədəfi ciddi məsləhətçi xidmətlərə ehtiyacını yaratmışdır. Məhz bu istiqamətdə Birləşmiş Ərəb Əmirliklərinin "DP World" şirkəti ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır.

Azad iqtisadi zona üçün 400 hektar yer ayrılıb, gələcəkdə daha 2 min hektar ayrıla bilinəcəyi haqqında rəsmilərin müxtəlif bəyənatları da səslənməkdədir. Perspektivdə «Made in Azerbaijan» brendinin də məhz bu zonada yaranmasının gözlənilən olduğunu təqdirəlayiq hal kimi qiymətləndirilməkdədir."Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanununda xüsusi iqtisadi zonanın 2 əsas rejimi qeyd olunub ki, bu da hesab edirik ki, xarici biznes strukturları cəlb etmək üçün olduqca əhəmiyyətlidir. Bunlar öz növbəsində:

- Gömrük rejimi;
- Vergi rejimi.

Ələt azad ticarət zonasının inkişaf perspektivlərini dəyərləndirərkən sözügedən zonada fəaliyyət göstərəcək biznes strukturlara aşağıdakı mikro və makroiqtisadi təsirlərin göstərəcəyini öncə görmək mümkündür:

1. Azad ticarət zonasında fəaliyyət göstərən biznes strukturların müvafiq vergi güzəştlərinin verilməsi;
2. Bu zonada fəaliyyət göstərən biznes strukturlara idxal rüsumlarının minimuma endirilməsi;
3. Aşağı faiz dərəcələri ilə kredit xidmətlərinin göstərilməsi;
4. Sözügedən iqtisadi zonada həmkarlar ittifaqları fəaliyyətinin qadağan edilməsi;
5. Müvafiq olaraq dünya standartlarında infrastruktur və infrastruktur xidmətlərinin təklifi;
6. Azad iqtisadi zonada iqtisadi bürokratiya və dövlət müdaxiləsinin minimuma endirilməsi və s.

Bütün hallarda Ələt azad ticarət zonası Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı üçün müstəsnə əhəmiyyətə malik bir tətbiq kimi qiymətləndirilməkdədir.

Vardagar 8-21 Helg 9-21
Hemköp
Öppet
Välkommen!

SOSİAL EVLƏRİN İSVEÇ MODELİ

İsveç sosial evlərini təmin edən yerli idarəetmə qurumlarına məxsus olan şirkətlərin əsas missiyası bütün vətəndaşlara münasib qiymətli və yaxşı şəraitli evlər təklif etməkdən ibarətdir.

Sosial evlər sosial həmrəyliyin gücləndirilməsində önəmli rol oynamaqla yanaşı, insanların universal hüquqi kimi dünyanın 100-dən çox konstitusiyasına daxil olmuşdur. Avropa İttifaqında (Aİ) insanlara mənzil yardımı məsələsi Lissabon Sammitindən sonra hüquqi qüvvəyə minmiş və Aİ siyasəti səviyyəsində müzakirəyə çıxarılmışdır.

Avropa İttifaqında sosial evlər əsasən 3 ümümi kriteriya əsasında müəyyən olunur. Birinci kriteriya misiyadır. Sosial evlərin misiyası ümümi maraqa xidmət göstərməkdən ibarət olmasıdır. İkinci kriteriya sosial evlərin məqsədidir. Sosial evlərin məqsədi münasib qiymətli evlərə təklifin artması ilə əlaqədar belə evlərin tikilməsi, idarə olunması və alınmasının təşkilidir. Üçüncü kriteriya isə hədəf qrupudur. Hədəf qrupu insanların sosial iqtisadi statusuna görə müəyyən olunur.

Avropa İttifaqı ölkələri arasında sosial evlərlə bağılı dövlət siyasətinə əsasən iki fərqli yanaşma mövcuddur. Bunlara "qeyri realist" (unrealistic) və "ünvanlı" (targeted) yanaşmalar daxildir. Sosial evlərin tətbiq

Sosial evlər SOSİAL HƏMRƏYLİYİN

gücləndirilməsində önəmli rol oynamaqla yanaşı, insanların universal hüququ kimi dünyanın 100-dən çox konstitusiyasına daxil olmuşdur.

olunduğu Aİ-nin əksər ölkələri ünvanlı siyasət tətbiq edir. Bunlara Birləşmiş Krallıq, Avstriya və bir çox digər Avropa ölkələri daxildir. Qeyri-realist yanaşma, sadəcə, İsveç, Danimarka və Niderland Krallığı tərəfindən tətbiq olunur. Qeyri-realist yanaşma tətbiq edən hər üç dövlətdə sosial evlərin ümumi evlərdə çəkisi 19%-dən çoxdur.

Yaxşı keyfiyyətli və münasib qiymətli mənzillə təmin olunmaq Aİ-nin üzv ölkələri tərəfindən insanların əsas hüquq və ehtiyacını ödəyən bir hal kimi qəbul olunmuşdur. Lakin buna baxmayaraq, hal-hazırda Avropa İttifaqında 3 milyona yaxın insanın münasib evlə təmin olunmasında problem yaşanır. Bu da, əsasən, Avropa İttifaqına üzv ölkələrin bu sahədə tətbiq etdikləri proqram və siyasətin fərqliliyi ilə əlaqələndirilir.

Aİ-nin qanunvericiliyi birliyə üzv olan ölkələrin sosial mənzillə bağlı hüquqi bazasına böyük təsir etmişdir. Lakin buna baxmayaraq, sosial evlərin birlik üzvləri tərəfindən tam qəbul olunan tərifi yoxdur. Misal üçün, sosial evlər Avstriyada "limitli mənfəət evləri" (Limited-Profit Housing), Danimarkada "ümumi evlər" (Common Housing), İsveçdə isə "kommunal mənzillər" (Public Utility Housing) kimi adlanır.

Dünyanın və Aİ-nin sosial evlər təcrübəsinə və onların ümumi sayına görə öndə olan ölkələrindən biri də İsveçdir. 9.5 milyon əhalisi olan İsveçin təxminən 3 milyon vətəndaşı kirayə evlərdə yaşayırlar. Kirayədə yaşayan isveçlilərin təxminən yarısı kommunal mənzillərdə yaşayırlar (SABO, 2016).

QEYD: MƏQALƏDƏKİ İSTİNAD OLUNAN RƏQƏMLƏR VƏ MƏLUMATLAR AVROPA BİRLİYİNİN VƏ İSVEÇİN SABO VƏ ALLMÄNNYTTIG TƏŞKİLATLARININ WEB SƏHİFƏLƏRİNDƏN GÖTÜRÜLMÜŞDÜR

1930-cu illərdə isveçlilərin əksəriyyəti çoxsakinli və yaxşı sərait olmayan evlərdə yaşayırdılar. İkinci Dünya müharibəsindən sonra İsveç dövləti bu məsələnin həll olunması və vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə yerli idarəetmə qurumlarının tabeliyində məhdud məsuliyyətli şirkətlər tərəfindən sosial evlərin tikintisinə başladı. Beləliklə də, İsveç sosial mənzil konsepti yarandı. Hal-hazırda hər 7 isveçlidən biri sosial evdə yaşayır və sosial evlər İsveçdə yaşayış mənzillərinin 20%-ni təşkil edir. Sosial evlərdə yaradılan şərait və qiymətlərin münasibliyi isveçlilər arasında sosial evlərin populyarlığını saxlamaqdadır.

Bir sıra Aİ ölkələrindən fərqli olaraq isveçlilər "sosial ev" sözündən istifadə etmirlər. Sosial ev sektoru İsveç dilində "allmännyttig" adlanır. Bu sözün hərfi mənası "hər kəsin xeyri üçün" və "kommunal mənzillər" kimi başa düşülür. Beynəlxalq kontekstə "ictimai ev" kimi tərcümə olunur. İsveçdə "sosial ev" sektoru hər regionda fəaliyyət göstərən kirayənişin şirkətlərdən ibarətdir. Bu şirkətlər məhdud məsuliyyətli səhmdar cəmiyyətlər kimi fəaliyyət göstərirlər və səhmlərinin əksəriyyəti yerli idarəetmə orqanlarına məxsus olur. Onlar yerli idarəetmə orqanlarına məxsus olmalarına baxmayaraq, biznes prinsipləri əsasında fəaliyyət göstəririlər. Sosial evlərin tikintisində və idarə olunmasında fəaliyyət göstərən şirkətlərin üzv olduğu təşkilatlardan biri də SABO-dur. SABO-nun hal-hazırda 300 üzvi var və onlar 802000 mənzil idarə edirlər.

İsveç sosial evləri cəmiyyətin bütün təbəqələrinin qeydiyyata alınması üçün açıqdır. İsveç sosial evlərini təmin edən yerli idarəetmə qurumlarına məxsus olan şirkətlərin əsas missiyası bütün vətəndaşlara münasib qiymətli və yaxşı şəraitli evlər təklif etməkdən ibarətdir. Bu mənzillərdə qeydiyyatdan keçmək üçün heç

Sosial ev sektoru İsveç dilində "allmännyttig" adlanır. Bu sözün hərfi mənası "hər kəsin xeyri üçün"dür.

İSVEÇDƏ SOSİAL EVLƏR MƏNZİLLƏRİN 20%-Nİ TƏŞKİL EDİR

kəsə məhdudiyyət qoyulmur. Lakin aparılan araşdırmalara görə, bu evlərdə əhalinin daha aztəminatlı qismi, yaşlılar, yalnız ailə başçıları və imiqrantlar daha çox qalır. Belə evlərdə yaşayanların əksəriyyətinin gəliri orta əmək haqqından azdır. Sosial evlərdə yaşamaq istəyən sakinlər müvafiq qurumlarda qeydiyyatdan keçir və öz növbəsini gözləyirlər. Böyük şəhərlərdə bu növbə bir neçə il çəkə bilir. Dövlət tərəfindən icarəyə verilən sosial evlərin satışına icazə verilmir. Müəyyən qisim aztəminatlı vətəndaşlara bu sosial evlərdə yaşayan zaman xüsüsi müavinətlər verilir. 2008-ci ildə İsveçdə kirayə verilən sosial mənzillərdə yaşayan ailələrdən, sadəcə, 4% mənzil müavinəti alınmışdır.

Uzun müddət sosial evləri tikən məhdud məsuliyyətli kommunal şirkətlərə İsveç dövləti tərəfindən subsidiya verilmişdir. Bu subsidiyaların həcmi 2008-2009-cu illərdə 173 milyon avro olmuşdur. Lakin, son illərdə İsveç sosial mənzil sistemi Aİ tərəfindən bir sıra dəyişikliklərə məruz qalmışdır. Misal üçün, 2002 və 2005-ci illər Avropa Əmlak Federasiyası (European Property Federation) İsveçdə sosial mənzilləri tikən şirkətlərə dövlət yardımının verilməsi ilə əlaqədar öz etirazını bildirmişdir. Bu etirazın əsas səbəbi kimi, İsveç sosial evlərinin, sadəcə, aztəminatlı ailələr deyil, hər kəs üçün açıq olması ilə əsaslandırılırdı. Belə ki, onların fikirlərinə görə, bələdiy-yə mənzil şirkətlərinin dövlətdən aldıqları subsidiyalar, əsasən, digər özəl mənzil tikinti şirkətləri ilə haqsız rəqabət aparmasına yol açırdı. Buna görə də 2007-ci ildə İsveç dövləti ölkənin mənzil bazarını liberallaşdırmağa başladı. Nəticə etibarilə İsveç "qeyri-real model"ini Aİ-nin rəqabəti siyasətinə uyğunlaşdırmaq üçün sosial mənzil şirkətlərinə dövlət tərəfindən kompensasiyasını dayandırdı.

Hal-hazırda sosial mənzillərin tikintisi və idarə olunması bu sahədə məşğul olan şirkətlərin gəlirləri hesabına həyata keçirilir. Əsas gəlir mənbəyi sakinlərdən yığılan kirayə haqları təşkil edir.

Hal-hazırda İsveç sosial ev konsepsiyası yeni bir mərhələyə qədəm qoymuşdur. Bir sıra sosial evlərin yenilənməyə və texniki təminatının yaxşılaşdırılmasına ehtiyac var. Xüsusən "The Million Homes" proqramı çərçivəsində tikilən evlərdə bu məsələ özünü qabarıq göstərməkdədir. Bu baxımdan, ən önəmli məsələlərdən biri mənzillərin enerji qənaətli sistemə keçirilməsi üçün böyük investisiyanın tələb olunmasıdır. Eyni zamanda son illər miqrasiya axını ilə əlaqədar olaraq tələbin artması nəticəsində sosial ev bazarında qıtlıq yaranmışdır. Hazırda tikinti xərclərinin artması və subsidiyaların dayanması hesabına sadə insanlara daha əlverişli qiymətə sosial evlərin verilməsində də problemlər yaşanmaqdadır.

Digər bir məsələ isə ondan ibarətdir ki, qanunvericilikdə dəyişikliklərin edilməsi sosial ev tikən şirkətlərin sosial məsuliyyətini işgüzar yanaşma ilə kombinasiya etməsinə vadar edir.

İsveçin sosial ev sektorunun və bu sahədə fəaliyyət göstərən şirkətlərin son zamanlarda üzləşdiyi problemlərə baxmayaraq, sosial evlər İsveç cəmiyyətində aztəminatlı ailələrin və şəxslərin evlə təmin olunmasında çox böyük rola malikdir. Buradakı sosial evlər modeli - müvafiq qiymətə daha gözəl şəraitli evlərin təklif edilməsi bir sıra Aİ ölkələrindən xüsusən seçilir. Eyni zamanda yerli idarəetmə qurumlarına məxsus olduqlarına baxmayaraq, həmin sektordakı şirkətlər biznes psinsipləri əsasında işləyərək dövlətdən subsidiya almayaraq öz xərclərini ödəyirlər.

Turan Süleymanlı

ORTA GƏLİR TƏLƏSİ

dos. ELŞƏN BAĞIRZADƏ

Orta gəlir tələsi anlayışını iqtisadi ədəbiyyata daxil edən iqtisadçılar Indermit Gill və Homi Kharasdır. Bu iqtisadçılar 2007-ci ildə Dünya Bankı üçün hazırladıqları "Şərqi Asiya Renessansı: İqtisadi artım üçün ideyalar" adlı hesabatlarında bu anlayışdan istifadə etmişlər. Qeyd olunan hesabatda orta gəlir tələsi anlayışı və orta gəlir tələsindən çıxış yolları geniş şəkildə təhlil olunmuşdur. Sonralar bu anlayışın iqtisadi ədəbiyyatdakı yerinin möhkəmlənməsində bir çox iqtisadçıların, xüsusilə də Barry Eichengreen, Donghyun Park və Kwanho Shinin tədqiqatları mühüm rol oynamışdır.

Son dövrlər dünya iqtisadiyyatında baş verən proseslər çərçivəsində Azərbaycan kimi təbii resurslara əsaslanan iqtisadiyyatların üzləşdiyi çağırışlar həmin ölkələrin elmi dairələrində bir sıra məsələlərlə yanaşı, məhz orta gəlir tələsi və ondan çıxış yollarının da müzakirəsini zəruri etmişdir.

Orta gəlir tələsi nədir?

Hər hansı bir iqtisadiyyatın adambaşına düşən gəlir göstəricisinin müəyyən bir səviyyəsinə çatdıqdan sonra həmin səviyyəni aşa bilməməsi vəziyyətinə orta gəlir tələsi deyilir. Başqa sözlə, orta gəlir tələsi hər hansı bir iqtisadiyyatın adambaşına düşən gəlir səviyyəsinin müəyyən bir həddini keçə bilməməsi halı və ya müəyyən bir gəlir səviyyəsinə çatdıqdan sonra durğunluq vəziyyətinə düşməsi halını ifadə edir.

İlk dəfə olaraq, bu anlayışı iqtisadi ədəbiyyata daxil edən Gill və Kharasa görə, orta gəlir tələsi, XX əsrdə inkişaf etmiş ölkələrə nisbətən daha yavaş böyüyən və onlarla arasındakı iqtisadi fərqi tamamlaya bilməyən orta gəlirli ölkələrin aşağı əməkhaqqı səviyyəsi ilə rəqabət edən yoxsul ölkələr ilə sənayeləri yetkinləşmiş, texnoloji yeniliklərdə üstün olan zəngin ölkələr arasında sıxışıb qalmalarını ifadə edir.

Orta gəlir səviyyəsi necə müəyyən edilir?

Burada əsas metodoloji məsələlərdən biri məhz hansı gəlir səviyyəsinin orta gəlir səviyyəsi kimi qəbul edilməsidir. Bu anlayış ilk dəfə ortaya atıldığı zaman ABŞ-da adambaşına düşən gəlirin 20%-nin digər iqtisadiyyatlar üçün orta gəlir səviyyəsi kimi qəbul edilməsi yanaşması əsas götürülmüşdür. Başqa sözlə, bu gün ABŞ-da adambaşına düşən gəlir göstəricisini təxminən 50000 ABŞ dolları səviyyəsində qəbul etsək, onda orta gəlir səviyyəsini 10000 ABŞ dolları kimi qəbul etmək mümkündür. Amma buna baxmayaraq, təcrübədə orta gəlir səviyyəsinin müəyyən edilməsi ilə bağlı müxtəlif iqtisadçılar tərəfindən müxtəlif yanaşmalardan istifadə edilir. Ən geniş yayılmış yanaşma isə Dünya Bankının gəlir səviyyəsinə görə ölkələri qruplaşdırması yanaşmasından istifadə edilməsidir.

Hansı iqtisadiyyatlar orta gəlir tələsinə düşmüş hesab

> Yazının məqsədi orta gəlir tələsi probleminin mahiyyəti və ondan çıxış yolları haqqında oxuculara qısa şəkildə məlumat verməkdir

İnkişaf iqtisadiyyatının yeni tədqiqat problemi

olunurlar?

Orta gəlir tələsinə düşən iqtisadiyyatların əsas xüsusiyyətləri arasında aşağı yığım və investisiya səviyyəsi, emal sənayesinin artım tempinin aşağı düşməsi, sənaye istehsalında diversifikasiya səviyyəsinin aşağı olması, əmək bazarı tələblərinin qeyri-adekvat olması və.s göstərmək mümkündür. Bu baxımdan, hər hansı bir iqtisadiyyatın təbii resursları məhduddursa, əhalisi çox və sürətlə artırsa, sənayesinin innovasiya imkanları çox aşağıdırsa onun orta gəlir tələsinə düşməsi qaçılmazdır. Aşağı əməkhaqqı səviyyəsinə malik olan bu ölkələr standart emal sənayesi məhsulları üzrə yoxsul ölkələr qarşısında rəqabət gücü zəifləyən, innovasiya əsasında inkişaf edən ölkələrin isə iqtisadi səviyyəsinə yaxınlaşmaqda çətinlik çəkən ölkələrdir.

Orta gəlir tələsindən necə çıxmaq olar?

Orta gəlir tələsi, heç şübhəsiz ki, inkişaf etməkdə olan ölkələrə xas problemdir. Bu problemin nəzəri şərhi baxımından Solow Neoklassik İqtisadi Artım Modeli böyük əhəmiyyətə malikdir. Bu yanaşmaya görə texnologiya və əmək sabit qalmaqla kapital yığımına əsaslanan iqtisadi artım modeli kapitalın azalan məhsuldarlığı səbəbindən davamlı xarakter daşıya bilmir. Başqa sözlə, yalnız kapital yığımına əsaslanan iqtisadi artım müəyyən müddətdən sonra sıfır səviyyəsinə daxil olacaq və ya orta gəlir tələsinə düşüləcəkdir. Bu halda artıq iqtisadi artımın mənbələri qismində məhsuldarlıqdakı artım, innovasiya və insan kapitalının çıxış etməsi zərurətə çevriləcəkdir. Tədiqatlar göstərir ki, orta gəlir tələsindən çıxan və yüksək gəlir qrupuna daxil olan ölkələrin əsas xüsusiyyətləri də məhz instutlaşmalarını tamamlamaları, texnologiyatutumlu istehsal strukturuna malik olmaları, elmi tədqiqatlara investisiyalarını artırmaları, yüksək əlavə dəyərə malik məhsullar ixrac etmələri, kapital bazarlarını tam şəkildə formalaşdırmaları və istehsalı yüksək ixtisaslı iş qüvvəsilə həyata keçirmələridir.

Orta gəlir tələsindən çıxmaq nə qədər asandır?

Orta gəlir tələsindən çıxaraq yüksək gəlir qruplu ölkələr sırasına daxil olmaq əksər inkişaf etməkdə olan ölkələrin hədəfi olsa da, bunu reallaşdırmaları o qədər də asan deyildir. Dünya Bankının məlumatlarına görə, 1960-cı ildə 101 orta gəlirli ölkədən 2008-ci ildə yalnız 13-ü – Ekvadorial Qvineya, Yunanıstan, Honq-Konq, İrlandiya, İsrail, Yaponiya, Mavriki, Portuqaliya, Porto Rika, Koreya, Sinqapur, İspaniya, Tayvan – orta gəlir tələsindən çıxaraq yüksək gəlirli ölkələr qrupuna daxil olmuşdur. 2012-ci ildə iqtisadçılar Felipe, Abdon və Kumarın apardıqları birgə tədqiqatın nəticələrinə görə, 2010-cu ildə aşağı-orta gəlirli və yüksək-orta gəlirli 52 ölkədən 35-i orta gəlir tələsindədir. Bu ölkələrin 13-ü Latın Amerikasında, 11-i Orta Şərqdə, 6-ı Səhraaltı Afrikada, 3-ü Asiyada və 2-i Avropadadır. Göründüyü kimi, orta gəlir tələsi problemi daha çox Latın Amerikası və Orta Şərqdə toplanmışdır. Latın Amerika və Orta Şərq ölkələrinin 1960-cı ildə orta gəlir səviyyəsinə nail olduqları nəzərə alındıqda bu ölkələrin 50 ildən çoxdur ki, orta gəlir tələsində qalmalarının əsas səbəbi kimi ucuz əmək və bəsit texnologiyalarla rəqabətetmə cəhdini göstərmək mümkündür.

Nəticə və ya iqtisadi siyasət tövsiyəsi

Tədqiqatlar göstərir ki, orta gəlir tələsindən çıxış üçün standart iqtisadi siyasət tədbirləri mövcud deyildir. Lakin orta gəlir tələsindən çıxmış ölkələrin təcrübəsinin təhlili bu baxımdan iki əsas istiqamətdə tədbirlərin həyata keçirilməsinin zəruriliyini ortaya qoyur:

1) Məcmu faktor məhsuldarlığına əsaslanan iqtisadi artıma nail olma: Birbaşa texnoloji inkişafla bağlı olan bu istiqamət, eyni zamanda da yüksək keyfiyyətli təhsil sisteminin mövcudluğunu zəruri edir. Yaponiya, Sinqapur, Tayvan, Cənubi Koreya və İsrail orta gəlir tələsindən məhz texnoloji inkişaf və yüksək insan kapitalına əsaslanan sənayeləşmə siyasəti ilə çıxmışlar.

2) İxtisaslaşmada dərinləşmə. İxtisaslaşma aşağı məhsuldarlıqlı fəaliyyətlərdən yüksək məhsuldarlıqlı sahələrə keçidi təmin edir. Cənubi Koreyanın mikroelektronika və yarımkeçiricilər texnologiyasındakı nailiyyətləri buna misal ola bilər.

Yuxarıda qeyd olunan hər iki istiqamət üzrə nailiyyətlərin əldə edilməsi isə ölkədə daha çox milli yığım səviyyəsinin yüksəldilməsi, elmi araşdırmalara investisiyaların artırılması və innovasiya potensialının gücləndirilməsi, yüksək ixtisaslı iş qüvvəsi üçün insan kapitalına investisiyaların yönəldilməsi, intellektual mülkiyyət və patent hüquqlarının qorunması, əmək bazarının təkmilləşdirilməsi, instutsional islahatların aparılması və infrastruktur investisiyalarının həyata keçirilməsindən asılıdır.

İŞGÜZAR FƏALİYYƏT SİSTEMİNDƏ ORTA SAHİBKARLIĞIN ƏHƏMİYYƏTİ

Prof. Q.N.MANAFOV

Sahibkarlıq sistemi son dərəcə zəngin olsa da, həmin sistemi təşkil edən formaların heç də hamısı iqtisad elmi tərəfindən axıradək və ətraflı araşdırılmamışdır ki, bu da digərləri ilə yanaşı, orta sahibkarlığa da aiddir. Araşdırmalar sübut edir ki, hətta qərb ölkələrinin iqtisadi ədəbiyyatında və əməli təcrübəsində orta sahibkarlığa fərqli mövqelərdən yanaşılır. O, gah kiçik, gah da iri sahibkarlıqla eyniləşdirilir və yanaşı qoyulur. Bununla da orta sahibkarlığın işgüzar fəaliyyət sistemində müstəqil rolu və yeri, əhəmiyyəti və fərqli xüsusiyyətləri kölgədə qalır.

Bununla belə, orta sahibkarlıq üçün xas olan bir sıra cəhətlər vardır ki, bu da onun biznes sistemində fərqli rolunu və əhəmiyyətini, sahibkarlığın digər formalarından, ilk növbədə, kiçik biznesdən fərqli xüsusiyyətlərini ön plana çəkir.

Geniş profilə malik olub, əsasən, istehlak təyinatlı tələbatların ödənilməsinə xidmət edən, kütləvi xarakter daşıyan kiçik biznesdən fərqli olaraq, orta sahibkarlıq çox vaxt dar ixtisaslaşmış istehsalı həyata keçirir və daha məhdud xarakter daşıyan xüsusi tələbatların ödənilməsinə xidmət edir. Orta sahibkarlığın təşkilatı-hüquqi forması kimi çıxış edən orta ölçülü müəssisələrin (firmaların) məhsulu, bir qayda olaraq, naməlum, kütləvi bazar üçün deyil, sifariş və kontraktlar əsasında istehsal edilir və buna görə də daha yüksək keyfiyyətə malikdir. Həm də belə firmalar istehlak mallarından daha çox istehsal təyinatlı məhsullar istehsalı ilə məşğul olurlar. Məsələn, təcrübə göstərir ki, inkişaf etmiş ölkələrdə maşınqayırma sahəsində dar ixtisaslaşmaya malik olan orta ölçülü firmaların xüsusi çəkisi digərlərinə nisbətən daha çoxdur.

Kəskin rəqabət şəraitində orta sahibkarlığın müvəffəqiyyətini təmin edən şərtlərə xüsusi qabaqcıl texnoloji üsullar, buraxılan məhsulun daha yüksək keyfiyyəti, istehlakçıların ənənəvi olmayan tələbatları aiddir. Nisbətən məhdud ixtisaslaşma əsasında sahibkarlıq fəaliyyətini həyata keçirən orta müəssisələrin maddi, texniki, texnoloji, maliyyə və kadr imkanları kiçik müəssisələrə nisbətən daha geniş olub, iri müəssisələrə daha yaxındır.

Əgər kiçik biznesdə "sahibkar", "mülkiyyətçi", "idarəedici-menecer" anlayışları, əsasən, üst-üstə düşürsə, orta sahibkarlıqda bu heç də həmişə belə deyildir. Orta sahibkarlıq, əsasən, şərikli mülkiyyətə əsaslanır, muzdlu idarəedicilərin cəlbedilməsi yolu ilə fəaliyyət göstərir. Başqa sözlə desək, kiçik bizne-

sin təşkilati-hüquqi forması kimi, əsasən, fərdi (ailə) müəssisələri, orta sahibkarlığın isə - ilk növbədə səhmdar cəmiyyətləri (korporasiyalar) çıxış edirlər. Orta sahibkarlıq müəssisələri ixtisaslaşmış işgüzarlıq subyektləri olduqları üçün kiçik müəssisələrə nisbətən kənar təsirlərə daha tez uyğunlaşa bilirlər, bazar konyukturuna və rəqabətə daha davamlıdırlar, bununla bərabər onlar iri müəssisələrlə çox uğurlu rəqabət apara bilirlər, kapitalın təmərküzləşmə səviyyəsinin daimi mənbəyini təşkil edirlər.

Məlumdur ki, son dövrlərdə iqtisadiyyatda baş verən texniki-texnoloji irəliləyişlər, həmçinin mövcud idarəetmə və həvəsləndirmə üsulları sosial-iqtisadi səmərəlilik baxımından müəssisənin optimal həcmi probleminə müasir dövrün tələbləri səpgisində yanaşmanı tələb edir. Bu baxımdan orta müəssisələr həm kiçik, həm də xüsusən iri müəssisələrə nisbətən daha əlverişli mövqedə dayanırlar.

İnkişaf etmiş ölkələrin təcrübəsi orta sahibkarlığın çatışmazlıqlarını da müəyyən etməyə imkan verir. Belə ki, orta sahibkarlığa aid edilən müəssisələr inhisarçılığa meyillidirlər, onlar öz iqtisadi çeviklik səviyyəsinə görə kiçik müəssisələrdən geri qalırlar, bir çox ölkələrdə orta müəssisələrdə çalışan işçilərin öz əməklərinin nəticələrinə görə maddi marağı kiçik müəssisələrdə olduğuna nisbətən daha aşağıdır.

Dünya təcrübəsində orta sahibkarlıq kiçik və iri sahibkarlıqdan həmçinin bir sıra digər parametrlərinə, o cümlədən əmtəə dövriyyəsinin həcminə, istehsal fondlarının dəyərinə, fəaliyyət məqsədlərinə, menecmentin səviyyəsinə, investisiyaların həcminə, işçilərin sayına və s. görə fərqləndirilir. Həmin parametrlər içərisində daha geniş qəbul ediləni - işçilərin sayı, göstəricisi ölkənin iqtisadi, sosial, siyasi və s. xüsusiyyətlərindən asılı olaraq həm müxtəlif ölkələrdə, həm də ölkə iqtisadiyyatının müxtəlif sahələrində (sənayedə, tikintidə, xidmət sferasında, ticarətdə, nəqliyyatda, rəqabətdə və s.) xeyli fərqlənir və kiçik bizneslə müqayisədə bu fərq bəzən 3-10 dəfə arasında təşkil edir.

Orta sahibkarlığı kiçik və iri sahibkarlıqdan fərqləndirən mühüm cəhətlər sırasında maliyyə dayaqları da seçilib ayrılırlar. Orta sahibkarlığın təşkilati-hüquqi forması kimi, əsasən, korporasiyalar çıxış etdiklərinə görə o, daxili və xarici maliyyə mənbələri hesabına investisiyaları həyata keçirməklə daha əlverişli və geniş maliyyə dayaqlarına malikdir.

Bir sıra hallarda orta sahibkarlıq kiçik biznesin təkamülü nəticəsində də meydana gəlir. Bu baxımdan, kiçik sahibkarlıq subyektlərinə məxsus olan şəxsi pul vəsaitləri, habelə kiçik sahibkarlığa dövlətin maliyyə köməkliyi, bu məqsədlə kredit ittifaqlarının vəsaitləri, bankların güzəştli kreditləri və kənardan cəlb edilmiş digər maliyyə resursları, habelə xüsusən tənzimlənən modelli ölkələrdə dövlətin maliyyə məsrəfləri də orta sahibkarlığın maliyyə dayaqlarının formalaşması baxımından əhəmiyyətli ola bilirlər.

Nəhayət, orta sahibkarlığın inkişafı cəmiyyətdə orta təbəqənin təşəkkülü üçün də əlverişli şərait yaradır. Əksər hallarda orta sahibkarlıq subyektləri gəlirlərinin səviyyəsinə görə cəmiyyətin orta təbəqəsinə daha çox aid edilirlər. Bu sosial təbəqənin məqbul səviyyəsinin yaradılması, gələcəkdə isə onun cəmiyyətdə üstün mövqeyinin təmin edilməsi hər bir ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki cəmiyyətin orta təbəqəsi özünün sosial vəziyyətinin qorunub saxlanmasında, bununla da ölkədə ictimai-sosial stabilliyin təmin olunmasında daha çox maraqlıdır. Bu təbəqə stabil vergi ödəyicisidir. Onun iqtisadi vəziyyəti əhalinin investisiya aktivliyinə, dövlət büdcəsinin vəziyyətinə ciddi təsir edir. Cəmiyyətdə orta təbəqənin üstün səviyyəsi ciddi sosial təbəqələşməni aradan qaldırmaqla demokratik vətəndaş cəmiyyətinin təşəkkülünə imkan verir.

Orta sahibkarlığın inkişafı orta təbəqənin təşəkkülü üçün də əlverişli şərait yaradır

Lakin təcrübə göstərir ki, orta sahibkarlığın təşəkkülü öz-özünə, avtomatik şəkildə baş vermir. Başqa sözlə, orta sahibkarlığın formalaşması üçün ilk növbədə dövlət tərəfindən məqsədli, ardıcıl və səmərəli tədbirlər həyata keçirilməlidir. Ən başlıcası isə odur ki, orta sahibkarlığın təşəkkülünə və inkişafına dövlət yardımı kiçik biznesə dövlət köməyi kontekstində olmayıb, müstəqil, xüsusi proqram əsasında həyata keçirilməli, özünə qanunvericilik, iqtisadi və təşkilati istiqamətdə kompleks tədbirlər sistemini daxil etməlidir.

Bu məqsədlə aparılmalı tədbirlər üçün əsas və mühüm cəhət kimi orta sahibkarlığa münasibətdə kiçik sahibkarlıqdan fərqli yanaşma çıxış etməli, bu istiqamətdə müvafiq dövlət siyasətinin elmi əsasları işlənib hazırlanmalı, biznes sistemində rolundan, ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətindən çıxış edərək onu iri sahibkarlıqla yanaşı qoymaq daha məqsədəuyğun hesab edilməlidir.

Maliyyə sabitliyi qlobal ictimai məhsul kimi

XX ƏSRİN SONLARINDAN ETİBARƏN VÜSƏT ALAN QLOBALLAŞMA PROSESİ BİR ÇOX ANLAYIŞIN MƏZMUNUNA TƏSİR EDİB DƏYİŞDİRDİYİ KİMİ, İCTİMAİ MƏHSUL ANLAYIŞINI DA MƏZMUN BAXIMINDAN DƏYİŞDİRMİŞDİR. BU MƏNADA, KLASSİK İCTİMAİ MƏHSUL ANLAYIŞI DA MƏZMUN BAXIMINDAN GENİŞLƏNMİŞ VƏ YENİ BİR ANLAYIŞ; QLOBAL İCTİMAİ MƏHSUL ANLAYIŞI, İQTİSADİ ƏDƏBİYYATDA ÖZ YERİNİ TAPMIŞDIR.

Qlobal ictimai məhsulun təməl xüsusiyyəti, onun dünyanın bütün ölkələri, toplumları və insanları üçün eyni dərəcədə əhəmiyyətə malik olmasıdır. Bu mənada, bütün dünyanı təsir altına alma riski daşıyan HIV kimi yoluxucu xəstəliklərin önlənməsi, ozon təbəqəsinin qorunması, ətraf mühitin çirklənməsinə qarşı mübarizə və s. təşəbbüslər qlobal ictimai məhsul kimi xarakterizə edilir.

Mövzu bu sahədə ilk tədqiqatların 1980-ci illərdən başlamasına baxmayaraq, 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı (UNDP) tərəfindən nəşr olunan "Qlobal icitimai məhsul" adlı əsərlə təkrar gündəmə gətirilmiş və nəzəri cəhətdən əsaslandırılmağa çalışılmışdır. Bu anlayış daha sonra Dünya Bankı tərəfindən nəşr olunan müxtəlif əsərlərdə tədqiqat mövzusu olmuşdur. Hazırda qlobal ictimai məhsul anlayışı, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı, digər beynəlxalq təşkilatlar və düşüncə təşkilatlarının tədqiqat obyektlərindəndir. Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı (UNDP) tərəfindən verilən tərifdə qlobal ictimai məhsulun iki özəlliyinə diqqət yetirilir. Bunlardan birincisi, bu məhsulun ictimai məzmunda olması, yəni istehlakında rəqabətin olmaması və istehlakı nəticəsində əldə olunan faydalılıqdan başqalarının da dolaylı olaraq istifadə etməsi xüsusiyyətləridir ki, bu da klassik ictimai məhsulun təməl xüsusiyyətləri kimi qəbul olunur. İkinci özəllik isə, bu məhsulların istehlakı nəticəsində əldə olunan faydalılıqların ölkələri, bütün insanları və nəsilləri (hazırkı və gələcək nəsilləri) maraqlandıran "kvazi universal" (quasi universial) xüsusiyyət daşımasıdır.

Bu sahədə geniş tədqiqatlar aparan Dünya Bankına görə isə qlobal ictimai məhsul, yoxsulluğun azaldılması və davamlı inkişaf üçün əhəmiyyət daşıyan, yetərli miqdarda təqdim edilməsinin çox sayda

ölkələrin əməkdaşlığından və oxşar mövqedən çıxış etməsindən asılı olan və sərhədləri aşan təsir gücünə malik resurslar, xidmətlər, qaydalar və siyasi təşəbbüslərdir. Qlobal ictimai məhsuldan nəticə etibarilə qlobal səviyyədə bütün insanlar faydalanır və faydalılığı ölkələr, insanlar və nəsillər baxımından universaldır. Bu baxımdan, qlobal ictimai məhsulu, "dünyada bütün insanlar (gələcək nəsillər də nəzərə alınmaqla) üçün ən yetərli olan, istehlak prosesində rəqabətin və məhdudlaşdırmanın mövcud olmadığı, hər bir insanın faydalana bildiyi və maliyyələşdirilməsinin qlobal səviyyədə təmin edildiyi məhsullar" kimi xarakterizə etmək mümkündür. Beynəlxalq sülh və təhlükəsizlik, ekologiya, səhiyyə, dünya mirası, yoxsulluğun azaldılması, maliyyə sabitliyi və s. əsas qlobal ictimai məhsul kimi çıxış edir.

Kapital hərəkətliliyinin sürətlə reallaşdığı günümüzdə maliyyə bazarları sistemində bu hərəkətliliyə kifayət qədər nəzarətin olmaması ölkə iqtisadiyyatları, bütövlükdə isə qlobal iqtisadiyyat üzərində mənfi təsirlər meydana gətirməsini istisna etmir. Bu halların baş verməsi isə qlobal səviyyədə ölkə iqtisadiyyatlarını təhdid edən mühüm amil kimi çıxış edir.

Qlobal ictimai məhsuldannəticə etibarı ilə qlobal səviyyədə bütün insanlar faydalanır və faydalılığı ölkələr, insanlar və nəsillər baxımından universaldır.

Bu mənada, dünya iqtisadiyyatı 1990-cı illərdə bütün maliyyə sistemi üzərində əhəmiyyətli və dərin təsirlər yaradan üç böyük krizisə məruz qalmışdır. Bunlar 1992-ci ildə Avropa Monetar Sistemində, 1994-cü ildə Meksikada və 1997-ci ildə baş verən Cənub-Şərqi Asiya krizisləridir. 2008-ci ildə ABŞ-da ortaya çıxan və qısaca "Mortgage krizisi" olaraq bilinən qlobal maliyyə krizisi isə əvvəlkilərdən daha dərin və daha qlobal səviyyədə reallaşmışdır.

Bu krizislərin nəticələrini diqqətlə araşdırdıqda maliyyə sabitliyinin bir qlobal ictimai məhsul kimi qəbul olunması əhəmiyyət qazanır. Çünki artıq inkişaf etmiş, hətta inkişaf etməkdə olan hər hansı bir ölkədə maliyyə sabitliyinin pozulması, qlobal maliyyə bazarlarına, bütövlükdə isə qlobal iqtisadiyyata birbaşa təsir edir.

Kapitalın sərbəst hərəkəti nəticəsində maliyyə bazarlarındakı dalğalanmaların və krizislərin sürətlə yayılması, ölkələr arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində beynəlxalq idarəetmə və maliyyələşdirmə mexanizminin qurulması zərurətini yaradır. Hazırda bu istiqamətdə üç qurum fəaliyyət göstərir: Beynəlxalq Valyuta Fondu (IMF), Dünya Bankı (WB) və Beynəlxalq Ödəmələr Bankıdır (BIS).

Bilindiyi kimi, IMF-in təməl vəzifəsi beynəlxalq maliyyə sabitliyini təmin etməkdir. Bu məqsədlə tədiyyə balansı problemi olan ölkələrə konsultasiya xidmətləri və maliyyə vəsaitləri təqdim edir, valyuta bazarlarının nizamlı qaydada işləməsini təmin edərək, krizis halında ölkədaxili "dalğalanmaların" yaranmasına və krizisin digər ölkələrə yayılmasına mane olmağa çalışır. Dünya Bankı isə özünün klassik vəzifələrini yerinə yetirməklə yanaşı, maliyyə sektorunda islahatların reallaşdırılması üçün ölkələri maliyyə vəsaitləri ilə təmin edir və eyni zamanda onlara konsultasiya xidmətləri təqdim edir. Hər iki qurumun fəaliyyətlərini nəzərdən keçirərkən belə məlum olur ki, bu qurumlar maliyyə krizislərinin yaranmasının qarşısını almaq üçün vahid qaydalar sistemi qura bilməmiş, sadəcə, bir ölkədə baş verən krizisin başqa ölkələrə yayılmasının qarşısını almaq istiqamətində müəyyən tədbirlər həyata keçirirlər. Ölkə mərkəzi banklarının assosiasiyası kimi fəaliyyət göstərən BIS isə müəyyən göstəricilər emal edərək maliyyə bazarlarını informasiya ilə təminetmə funksiyasını yerinə yetirir. Bazel komissiyası isə maliyyə sabitliyi sahəsində atılmış ən böyük təşəbbüslərdəndir. Basel komissiyası bankların riskli davranışlarını azaldan, səhmdarların idarəetmə və nəzarət güclərini artıran qaydalar yaradaraq bu qurumların daha güclü fəaliyyət göstərməsinə çalışır.

dos. Gəray Musayev

"Maliyyə krizislərinin nəticələrini diqqətlə araşdırdıqda maliyyə sabitliyinin bir qlobal ictimai məhsul kimi qəbul olunması əhəmiyyət qazanır"

Gömrük rüsumunun qeyri-fiskal funksiyaları

Gömrük siyasəti və gömrük fəaliyyəti ölkənin xarici iqtisadi fəaliyyəti ilə hər zaman bilavasitə bağlıdır və dövlətin maliyyə siyasətinin tərkib hissəsini təşkil edir. Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin prinsipləri gömrük siyasətinin əsasını təşkil edir. Digər tərəfdən, gömrük siyasətinin prinsipləri gömrük sistemini birbaşa formalaşdıran qarşılıqlı əlaqəli vacib elementlərdən biridir.

Gömrük rüsumları büdcənin formalaşmasında mühüm rol oynayır. Belə ki büdcənin üçdə bir hissəsi məhz gömrük rüsumlarının daxil olması əsasında formalaşır.

Hal-hazırda gömrük rüsumların 3 əsas funksiyası mövcuddur: fiskal, tənzimləyici və qoruyucu. Eyni zamanda, gömrük rüsumlarının digər funksiyalarını da inkar etmək olmaz, məsələn, nəzarətedici, statistik və balanslaşdırıcı.

Gömrük rüsumların fiskal funksiyası digər funksiyalarla müqayisədə ən qədim tarixə aiddir. Belə ki fiskal siyasət hətta qədim Misir və Babilistan dövlətlərində geniş şəkildə mövcud idi və bu funksiya Avropa ölkələrində XVII əsrin sonuna



Müasir zamanda gömrük rüsumunun qeyrifiskal funksiyalarının rolu (ilk növbədə tənzimləyici fünksiyasının) getdikcə artaraq prioritet təşkil edir

qədər gömrük işinin tək vəzifəsi olaraq qalırdı. Gömrük rüsumların fiskal funksiyasının mahiyyəti ayrı-ayrı fiziki və hüquqi şəxslərin gəlirlərinin müəyyən hissəsini büdcəyə daxil edib və dövlətin xərclərinin maliyyələşdirməsini təmin etməkdir.

Qeyd etmək lazımdır ki, XX əsrin sonlarından başlayaraq, gömrük siyasətində fiskal funksiya üstünlük təşkil edirdi, gömrük rüsumları yüksək səviyyədə müəyyənləşdirilirdi və dövlətin gəlir mənbələrindən biri olaraq hesab olunurdu. Bir qədər sonra gömrük rüsumlarının azaldılması və onların tənzimləyici funksiyasının ön plana çıxması müşahidə olundu. Son illər statistikaya əsasən, gömrük rüsumların fiskal funksiyasının önəmi inkişaf etmiş ölkələrdə düşür. ABŞ-da XIX əsrdə büdcə daxilolmalarının 50%-i idxal rüsumları vasitəsilə təşkil edirdi. Hal-hazırda isə bu rəqəm 1,5% təşkil edir. Eyniliklə bu cür vəziyyət digər bir çox inkişaf etmiş ölkələrdə də mövcuddur. Beləliklə, müasir zamanda gömrük rüsumunun qeyri-fiskal funksiyalarının rolu (ilk növbədə tənzimləyici funksiyası) getdikcə artaraq prioritet mahiyyət təşkil edir.Gömrük siyasətinin də əsas məqsədi gömrük alətlərindən maksimal effektiv istifadə edərək milli iqtisadiyyatın inkişafını stimullaşdırmaqdır.

Gömrük rüsumlarının tənzimləyici funksiyası milli maraqları və yerli istehsalçıların maraqlarını təmin etmək məqsədlə dövlət tərəfindən iqtisadi və qeyri-iqtisadi vasitələrlə ölkənin xarici iqtisadi münasibətlərinə təsirini nəzərdə tutur. Bu kimi tənzimləmə lisenziyalaşdırma, kvotalaşdırma və digər qeyri-tarif məhdudlaşdırma vasitələri ilə həyata keçirilir. İlk dəfə gömrük sferasında bu kimi funksiyalar XVII əsrdə Böyük Britaniyada tətbiq edilmişdir. Bu bilavasitə XVI əsrdə Böyük coğrafi kəşflər və kolonial sisteminin inkişafı ilə bağlı idı. Müstəmləkələrin daha effektiv istismarı və milli sənayenin inkişafı məqsədilə müstəmləkələr yalnız metropoliyalarla ticarət əlaqələrini yaratmalı idi. Məhz XVII əsrin ortalarından başlayaraq tənzimləmə məqsədilə dövlət ölkənin xarici iqtisadi əlaqələrinə aktiv müdaxilə etməyə başladı.

Gömrük rüsumlarının tənzimləyici funksiyası üç istiqamətdən ibarətdir: sabitləşdirici, proteksionist, stimullaşdırıcı. Sabitləşdirici funksiyaya uyğun olaraq gömrük rüsumları idxal olunan və milli istehsal olunmuş məhsullar üçün eyni rəqabət şərtlərini təmin edir, bununla da nə idxal olunmuş, nə də milli istehsal olunmuş məhsullara üstünlüyü yaratmır. Digər tərəfdən, gömrük rüsumların tənzimləyici proteksionist funksiyası vasitəsilə milli bazara xarici məhsulların idxalı məhdudlaşdırılır. Tənzimləyici funksiya eyni zamanda stimullaşdırıcı xüsusiyyət də daşıya bilər. Bu halda gömrük rüsumların dərəcəsi daxili və dünya qiymətləri arasındakı fərqdən aşağı təyin olunur və bununla da ölkəyə idxalı stimullaşdırır. Gömrük rüsumunun stimullaşdırıcı funksiyasının əsas məqsədi bazarda rəqabətin dəstəklənməsini təmin etməkdir. Bu funksiya güzəştlər sistemi vasitəsilə həyata keçirilir. Güzəştlər sisteminin tədbiqi əsasında məhsulların və nəqliyyat vasitələrinin gömrük sərhədlərindən hərəkəti sadələşir.

Gömrük rüsumunun digər qeyri-fiskal nəzarətedici funksiyası əsasında ixracın və idxalın strukturunu, xarici ticarətin saldosunu qiymətləndirmək olar. Bu qiymətləndirmə nəticəsində müəyyən sahələrdə ixracın stimullaşdırılmasını təmin etmək, yaxud geridə qalmış sahələrin inkişafı üçün əlverişli şərait yaratmaq olar.

Gömrük rüsumunun digər qeyri-fiskal funksiyası qoruyucu funksiyadır.

Bu funksiyanın əsas məqsədi dövlətin milli təhlükəsizliyini təmin etməkdir. Milli təhlükəsizlik dedikdə daxili bazarın və istehlakçıların maraqlarının qorunması, qaçaqmalçılığın qarşısının alınması, ekoloji təhlükəsizliyin və terrorizmlə mübarizənin təmin edilməsi nəzərdə tutulur.

Yekun olaraq, belə bir nəticəyə gəlmək olar ki, gömrük rüsumlarının qeyri-fiskal funksiyaları iqtisadiyyatda mühüm rol daşıyaraq ölkədə yeni istehsal potensiyalını gücləndirə və ixrac yönümlü sahələrin genişləndirilməsinə imkan yarada bilər.

i.ü.f.d. **İnara Rzayeva**

Qiymətəmələgəlmənin PSİXOLOGİYASI:

məhsulun qiymətinin formalaşmasına dair 4 strategiya

İ.F.D. XƏLİLOV TURAL

Son vaxtlar Azərbaycanda marketinq anlayışı və faydası haqqında məqalələrin yazıldığını, marketinq, qiymətləndirmə və satış strategiyaları ilə bağlı treninqlərin artdığını çoxlarımız görürük. Böyük şirkətlərin kiçik firmalara nəzərən qiymətləndirmə baxımından üstünlüyü, onların bu sahədə apardıqları tədqiqatlardan irəli gəlir. Dünya praktikasında ticarətdə və biznesin digər sahələrində alıcıların davranışlarını və onların məhsulu hansı qiymətə və hansı şərtlərlə alacaqlarını anlamaq üçün bir neçə metodlardan istifadə olunur. Satış həcminin artırılması üçün istifadə olunan ən populyar 4 strategiyaya ətraflı baxaq.

I. Offerin (təklifin) süni məhdudiyyəti

Əgər siz pərakəndə ticarət mağazalarına tez-tez baş çəkirsizsə, yəqin ki, "Bütün çeşidlərə 50% endirim", "Şok şok şok" və "Yalnız 1 gün qiymətlərin sensasiyalı düşməsi" kimi elanları görmüsünüz. Tale elə gətirir ki, "yalniz 1 gün" fəndi yalnız istirahət günlərinə düşür. Birgünlük endirim digərinə nisbətən müştərilər üzərində daha böyük təsirə malikdir. Bu ümumilikdə əlavə alış-veriş stimulyatorudur. "Yalnız bu gün!" ifadəsinin təsirinə düşməyən müştəri çətin ki, tapılsın. Necə düşünürsünüz, hansı təklif daha sərfəlidir: "ikisini yarı qiymətə al", yoxsa birini alana biri hədiyyə"? Minnesota Universitetinin alimlərinin apardıqları tədqiqatların nəticələrinə görə, insanların əksəriyyəti elə ilk variantı üstün tuturlar, amma yekun xərclər üzrə hər iki variant eynidir. Praktika göstərir ki, bu elanlar süni məhdudiyyətlər əsasında panika yaratmaqla satış həcminini artırır. Alıcılar isə düşünürlər ki, aksiyanın müddəti məhduddur və onlar məhz bu gün öz bazarlıqlarını etməlidirlər.

II. 9 rəqəminin gizli hakimiyyəti

Massaçusets Texnologiya İnstitutunun alimlərinin apardığı tədqiqat sübut edib ki, qiymətin sonu 9 rəqəmi ilə bitən mallara böyük alıcı tələbatı var. Praktika göstərir ki, marketoloqlar son on illikdə axırı 9.99 və ya 95 rəqəmi ilə qurtaran qiymətlərdən daim istifadə edirlər. Məsələ burasındadır ki, bizim beynimiz ədədi kəmiyyəti qəbul edir. Biz soldan sağa oxumağa öyrəşmişik və bu zaman ilk rəqəm bizim yaddaşımızda daha güclü həkk olunur, nəinki vergüldən sonra yazılan digər rəqəmlər. Bu psixoloji hal onunla əlaqədardır ki, biz qiymətləri soldan sağa oxuyuruq və 1.99 manata olan məhsulu 2 manatdan daha ucuz hesab

edirik. Yeri gəlmişkən, bu fəndi qərb marketinqləri "qiymətlərin gözəlliyi" (charm prices) adlandırırlar. Bu qiymətlərin satışların həcminə təsirini də aşağıdakı cədvəldən görə bilərik.

Bundan əlavə, qiymətin .99 ilə qurtarması faktı müştəriyə bu məhsulun artıq endirimdə olmasından xəbər verir, ona görə də insanlar özlərini inandırır ki, bu tip alış-veriş etməklə qabağa düşürlər, əslində isə, sözügedən halda qiymətdəki güzəşt olduqca cüzi və minimal dərəcədədir.

III. "Faydasız qiymətlər"effekti

Bunun üçün biz "The Economist" jurnalının marketinq strategiyasını nəzərdən keçirək. Jurnala abunə olmaq üçün 3 variant təklif olunur.

1. Yalnız internet versiyası üçün - 59$.
2. Yalnız çap variantı üçün - 125$.
3. İnternet versiyası və çap variantı üçün - 125$.

Qeyd edək ki, 2-ci variant tamamilə faydasız görünür, çünki istənilən abunəçiyə aydındır ki, eyni qiymətə jurnalın elektron və kağız versiyasını almaq daha sərfəlidir. Lakin 2-ci variantı götürsək, minimum və maksimum qiymətlər arasında uyğunsuzluğu dərhal müşahidə edərik. Belə vəziyyətdə sağlam düşüncəli hər bir müştəri "endirim ovçusuna" (bargain hunters) çevrilir. 2-ci variantı siyahıya geri qaytaraq. İndi potensial abunəçi 2-ci və 3-cü variantları müqayisə edir və ona elə gəlir ki, ona, həqiqətən, sərfəli sövdələşmə təklif edirlər - eyni vaxtda kağız versiyasının qiymətinə elektron və kağız variantını alır.

IV. "Külli seçim" effekti

Uilyam Paundstoun öz kitabında "Əvəzsiz: Ədalətli dəyərlər haqqında mif" (William Poundstone «Priceless: The Myth of Fair Value») qiymətlərin dəyişməsi haqqında üç eksperimentdən danışıb. İlk eksperiment zamanı istehlakçılara 1.8$-a adi pivə və 2.5$-a premium pivə təklif olunub. İstehlakçıların 80%-i premium-seqmentin içkisini seçiblər. İkinci eksperiment zamanı 1-ci çeşidin qiymətinə 1.6$-lıq daha ucuz pivə əlavə olunub və vəziyyət dəyişib. Bu dəfə ucuz pivədən imtina edərək istehlakçıların 80%-i adi pivəni, 20%-i isə premium-seqmentin pivəsini seçiblər. Və nəhayət, üçüncü eksperiment zamanı çeşiddən ucuz pivəni götürərək onun əvəzinə 3.4$-a super-premium pivəsi əlavə ediblər. Bu dəfə istehlakçıların 85%-i 2.5$-lıq pivəyə, 10%-i 3.4$-lıq pivəyə, 5%-i isə 1.8$-lıq pivəyə üstünlük veriblər. Nəticə öz sözünü deyir.

Nəticədə satış meneceri satış həcmini artırmağı, marketinq meneceri isə qazanmağı düşünür. Ümumiyyətlə, biz mal alanda onun texniki göstəricilərinə çox diqqət etmirik. Xarici müştərilər isə hər şeyə fikir verirlər; qiymətindən, qablaşdırmadan, reklam dəstəyindən, malın hazırlanma yerindən tutmuş, tərkibinə qədər.

Bu gün manatın dollar qarşısındakı devalvasiyası alıcıların alıcılıq qabiliyyətini azaldaraq şirkətlərin büdcə kəsirlərini artırır ki, bu da personalın ixtisarına gətirib çıxardır. Təəssüf ki, yerli şirkətlərdə ilk növbədə, marketinq sahəsi əziyyət çəkir. Şirkət rəhbərləri reklama vəsait ayırmaqda, alternativ kampaniyaların keçirilməsində məntiq görmürlər. Bəzən oxşar qərarlar marketinq şöbəsinin işinin dayanması ilə qurtarır. Fikrimizcə, böhran dövründə şirkətlərimiz ilk növbədə öz strategiyalarını yeniləməlidirlər: yeni müştəriləri axtarmaqdansa, mövcud olan müştəriləri qoruyub saxlamalıdırlar. Bunun üçün dünya təcrübəsində kifayət qədər mexanizmlər, strategiyalar və metodlar mövcuddur. Böhran bir daha təsdiq etdi ki, ölkəmizdə müasir biznes mühitinin tələb etdiyi biznes modelləri reallaşdırmaq lazımdır.

XIX əsrin axırlarında ölkəmizdə **450-dən çox** ipək emalı müəssisəsi fəaliyyət göstərirdi ki, bunlardan **60 iri fabrik** bütün ipək məhsulunun 3/5 hissəsini emal edirdi

Milli sahibkarlıq tariximizdən

Azərbaycanda sahibkarlıq qədim tarixə malikdir. XIX əsrin ikinci yarısında kapitalist münasibətlərinin inkişafı, cəmiyyətin tərkibində əsaslı dəyişikliklərin baş verməsi, burjuaziya və fəhlə siniflərinin formalaşması sahibkarlığın inkişafında yeni bir mərhələnin yaranmasına səbəb oldu. Ölkəmizdə mövcud olan təbii sərvətlər, xüsusilə neft sənayesinin inkişafı xarici iş adamlarının Azərbaycana gəlməsinə, iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə qoymalarına, həmçinin milli sahibkarlığın inkişafına şərait yaratmışdır. Xarici sərmayəçilərin Azərbaycan iqtisadiyyatına yönəltdiyi 213 milyon kapitalın 8%-i Almaniyaya, 30,5%-i Fransaya, 53,3%-i İngiltərəyə məxsus idi. Ayrı-ayrı ölkələrdən gələn milyonçular fərqli sahələrə sərmayə qoymaqla müxtəlif sahələrin inkişafına zəmin yaradırdılar. XIX əsrin sonunda Bakı dünyanın ən böyük sənaye mərkəzlərindən birinə çevrilmişdi. Sahibkarlığın təşəkkülü prosesi XX əsrin əvvəllərində daha da inkişaf etmiş, neft hasilatı üzrə böyük nüfuza malik olan milli sahibkarlar yaranmışdı. Bu dövrdə neft sənayesi ilə məşğul olan 167 müəssisənin 49-u milli sahibkarlara məxsus idi.

Yalnız sənaye sahəsində deyil, kənd təsərrüfatı sektorunda da sahibkarlıq fəaliyyəti genişlənirdi. Azərbaycanın sahibkarlıq tarixində pambıqçılığın, ipəkçiliyin, üzümçülüyün, şərabçılığın, tütünçülüyün, balıqçılığın xüsusi yeri vardı. Bu sahələrin inkişafında milli sahibkarların mühüm xidmətləri olmuşdur.

Bu dövrdə Azərbaycanda toxuculuq və ipəkçilik kimi yüngül sənaye sahələri yerli xammal bazasında inkişaf edirdi. H.Z.Tağıyev 1897-ci ildə əsas kapitalı 2 milyon manat olan "Lifli" maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyətini yaratmışdı. O, 1900-cü ildə hazır məhsul istehsal edən ilk toxuculuq fabrikini açmaqla Azərbaycan iqtisadiyyatının bu sahəsində Rusiyanın

tarix e.d. N.M.Süleymanov

inhisarını zəiflədə bilmişdi.

Nuxa qəzası Cənubi Qafqazda ipək emalı sənayesinin mərkəzinə çevrilmişdi. Nuxa, Şuşa və Ordubadda fəaliyyət göstərən ipək emalı fabrikləri buxar mühərrikləri ilə hərəkətə gətirilən dəzgahlarla təchiz edilmişdi. XIX əsrin axırlarında ölkəmizdə 450-dən çox ipək emalı müəssisəsi fəaliyyət göstərirdi ki, bunlardan 60 iri fabrik bütün ipək məhsulunun 3/5 hissəsini emal edirdi. Cənubi Qafqazda istehsal edilən ipəyin 2/3 hissəsi Azərbaycanın payına düşürdü. Sahibkarlardan A.Məmmədov, L.Lətifov, R.Rzayev, K.Babayev və başqalarının şirkət və müəssisələrində çox yüksək keyfiyyətli ipək istehsal edilirdi. Azərbaycanda milli sahibkarlar yüngül və yeyinti sənaye sahəsində daha geniş şəkildə təmsil olunurdu.

Pambıqçılıq kənd təsərrüfatında əsas inkişaf sahəsinə çevrilmişdi. Cənubi Qafqazda istehsal olunan pambığın 70%-i Azərbaycanda yetişdirilirdi. 1901-1910-cu illərdə pambıq emalı 5,3 dəfə artmışdı.

Pambıqçılıq kənd təsərrüfatında əsas inkişaf sahəsinə çevrilmişdi. Cənubi Qafqazda istehsal olunan **pambığın 70%-i Azərbaycanda yetişdirilirdi**

Sahibkarlığın geniş inkişaf etmiş sahələrindən biri də balıqçılıq idi. Sahibkarlıq fəaliyyətinə aid sahibkar tipli 4 balıqçılıq firması dünya bazarına ixrac edilən ağ balıq kürüsünün 45%-ni verirdi. Bu sahədən dövlət xəzinəsinə hər il 2 milyon manat vəsait daxil olurdu. Milli sahibkarlar arasında H.Z.Tağıyevin fəaliyyəti daha geniş və əhatəli idi. O, yalnız neft sənayesinə deyil, yeyinti, tikinti sənaye sahələrinə, hətta kənd təsərrüfatına da böyük sərmayələr qoymaqla ölkəmizin iqtisadi həyatının bütün sahələrinin inkişaf etdirilməsi qayğısına qalırdı. O, milli sahibkarlar arasında Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran sahibkar olmuşdur. H.Z.Tağıyevlə bərabər, milli sahibkarlardan neft sənayesində Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuza Muxtarov, Manafov, yeyinti sənayesində Ağabala Quliyev, Zülfiqarovlar, Səttar Kərimov, ipək emalı sənayesində Hacı Kərim Vahaboğlu, Hacı Əbdül Rəhimov, Muradov, balıqçılıqda Əhməd Mustafaoğlu və b., gəmiçilikdə Hüseynovlar, Dadaşovlar və onlarla başqaları təmsil etmişlər. Milli sahibkarlar Azərbaycan iqtisadiyyatının inkişaf qayğısına qalmaqla yanaşı, ölkəmizdə məktəb, teatr, xəstəxana binaları tikdirməklə xalqımızın sosial-mədəni inkişafına və sağlamlığına diqqət yetirirdilər.

Sosializm cəmiyyəti quruculuğu dövründə bütün sahibkarlıq növləri qadağan edildiyinə görə Azərbaycanda da milli sahibkarlıq məhv edilmişdir. Yalnız Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 1993-cü ildən başlayaraq Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilərək davam etdirilən iqtisadi siyasət nəticəsində bazar iqtisadiyyatının əsas tələblərindən olan sahibkarlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Bu sahədə 1993-cü ildə qəbul edilmiş "Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)" haqqında Dövlət proqramı və bu istiqamətdə həyata keçirilən islahatlar sahibkarlığın inkişafına əlverişli şərait yaratmışdır.

BREXİT və Avropa İttifaqının gələcəyi

Şübhə yoxdur ki, 2016-cı ilin qlobal iqtisadi situasiyaya təsir göstərə biləcək hadisələri arasında Böyük Britaniyanın Avropa İttifaqı (Aİ) üzvlüyündən çıxması, başqa sözlə, Brexit (British exit) mühüm yer tutur. Referendumun nəticələrinin elan olunması ilk növbədə qlobal maliyyə bazarında nizamın pozulmasına, funt-sterlinqin 1985-ci ildən bu vaxta qədər ən aşağı səviyyəyə düşməsinə və ölkəsinin Aİ-dən çıxmasını istəməyən Britaniya hökumətinin dəyişməsinə gətirib çıxardı. Britaniya valyutasının tarixdə ilk dəfə olaraq bir gün ərzində ABŞ dollarına nisbətdə 11% dəyər itirməsi məsələnin hansı effektə malik olması haqqında çox şey deyir.

Brexit tərəfdarlarının əsas arqumentləri qismində Britaniya iqtisadiyyatının qlobal rəqabətqabiliyyətinin yüksək olması, Aİ-də borc böhranının dərinləşməsi və Avropada miqrasiya məsələsinin kəskinləşməsi çıxış edir. Fikrimizcə, bu arqumentləri şərtləndirən əsas səbəblər kimi Avro və Şenqen zonasına qoşulmayan Britaniyanın "Avropa Vahid Bazarı"nın (European Single Market) imkanlarından tam faydalana bilməməsini və əksinə, "Brüssel bürokratiyası"nın Britaniya iqtisadiyyatına mənfi təsir göstərməsini qeyd etmək olar.

Brexit ilkin mərhələdə FTSE (Financial Times Stock Exchange) və Stoxx Europe 600 indekslərində 8%-ə qədər eniş, Barclays və Llyods Banking Group səhmlərinin 30% ucuzlaşması, Deutshe Bank və İrlandiya Bankı kimi aparıcı maliyyə institutlarının 15-20% dəyər itirməsi ilə müşahidə olundu. ABŞ səhm bazarlarına da ciddi təsir göstərən Brexit Morgan Stanley və Citigroup üzrə 10%, Bank of America, JPMorgan Chase və Goldman Sachs üzrə 5-7% ucuzlaşmanı şərtləndirmiş oldu. Eyni zamanda, neftin qiymətində 5%-dən yuxarı kəskin ucuşlaşma baş verdi.

> **FİKRİMİZCƏ, YAXIN PERSPEKTİVDƏ BRİTANİYANIN Aİ-27 BAZARINA İXRACININ VƏ İDXALININ KƏSKİN AZALMASI MÜŞAHİDƏ EDİLMƏYƏCƏK. DƏQİQ OLAN ODUR Kİ, YAXIN 3-5 İL ƏRZİNDƏ BRİTANİYA İQTİSADİYYATINA QOYULAN XARİCİ İNVESTİSİYA AZALACAQ. Aİ BÜDCƏSİ BRİTANİYANIN BU VAXTA QƏDƏR ÖDƏDİYİ VƏSAİTLƏRDƏN MƏHRUM OLACAQ. ŞÜBHƏ ETMİRİK Kİ, BÜTÜN QEYD OLUNANLAR Aİ ÜÇÜN SARSIDICI İTKİ OLMAYACAQ.**

Nəzərə almaq lazımdır ki, Aİ-nin Almaniyadan sonra 2-ci ən böyük iqtisadiyyatına malik olan Britaniyanın Aİ-dən çıxması proseduruna 2017-ci ilin mart ayında başlanılması gözlənilir. Aİ-nin Lissabon Sazişinin 50-ci maddəsinə əsasən, bu prosesin iki il ərzində başa çatdırılması nəzərdə tutulur. Belə çıxır ki, Britaniya faktiki olaraq Aİ üzvlüyündən 2019-cu ilin martında çıxacaq.

Brexit Aİ-nin öz gələcəyini stabilləşdirməsi və sığortalaması üçün zəruri tədbirlər görməsinin vacibliyini bir daha sübut etmiş oldu. Bir çox məsələlərdə Aİ üzv ölkələri arasında fikir ayrılığının hələ də dərin olması əsas problem olaraq qalır. Bu

YENİ şərait və mümkün modellər

kontekstdə, ilk növbədə vahid valyutanın tətbiqi ilə bağlı fikir ayrılığını qeyd etmək lazımdır. Avrointeqrasiya məsələləri üzrə əksər ekspertlər arasında belə bir ortaq yanaşma mövcuddur ki, Aİ-nin vahid valyutasının məhz Almaniya iqtisadiyyatına daha çox bağlanması nəticəsində avro öz real dəyərindən kifayət qədər yüksək dəyər qazanır ki, bu da avrozonaya daxil olan fərqli iqtisadi inkişaf səviyyəli ölkələrə mənfi təsir edir. Başqa sözlə, avro Almaniya valyutası kimi öz real dəyərindən aşağı, Fransa valyutası kimi isə öz dəyərindən yüksəkdir. Məhz bu amil uzun müddətdən bəri avronun qeyri-stabil valyuta olmasını və bununla da, Britaniyanın öz milli valyutasını saxlamasını şərtləndirib.

Fikrimizcə, Brexit Britaniya iqtisadiyyatına ilk növbədə yaxın beş ildə aşağı iqtisadi artım vəd edir. 2015-ci ildə Britaniya ixracının 48%-i, idxalının isə 51%-i Aİ-27-nin payına düşüb. Aİ-daxili ixrac və idxalın dinamikasının təhlili göstərir ki, Britaniyanın Aİ-27 bazarından asılılıq səviyyəsi Aİ-27-nin Britaniya bazarından asılılıq səviyyəsindən daha yüksəkdir. Bu o deməkdir ki, Aİ-27 bazarlarına çıxış imkanlarının məhdudlaşması Britaniya ixracının azalmasına və bu ölkənin iqtisadiyyatına yönələn xarici investisiyaların aşağı düşməsinə gətirib çıxara bilər. Bununla da, yeni yaranan iş yerlərinin azalması və istehlakçıların daha az vəsait xərcləməsi ümumi iqtisadi geriləməyə səbəb ola bilər.Qeyd olunan gözləntilər Britaniyada işsizlik səviyyəsinin artımını da proqnozlaşdırmağa imkan verir. Britaniya iqtisadiyyatının zəifləməsi paralel olaraq İrlandiya iqtisadiyyatına mənfi təsir edə bilər. Bu arqument İrlandiyanın ÜDM-nin 30%-dən çoxunun Britaniyaya ixrac olunması faktına əsaslanır. Digər tərəfdən, işçi qüvvəsinin Britaniyaya gedişinin çətinləşməsi İrlandiyada əhalinin orta gəlirlərinin ciddi azalmasına səbəb ola bilər.

Aİ-27 üzvləri ilə Britaniya arasında azad ticarət və insanların sərbəst hərəkətinə dair razılıq əldə olunmayacağı təqdirdə Britaniyadan kənara kapital ixracının artacağını düşünmək olar. Başqa sözlə, investorlar funt-sterlinq satmağa (və ya funt-sterlinqdə olan əsas vəsaitləri satmağa) və əvəzində dollar və avroya baglı əsas vəsaitlər almağa çalışacaqlar. Bütün hallarda, Aİ ilə Britaniya arasında yeni ticarət sazişinin və digər iqtisadi razılaşmaların hazırlanması, imzalanması və ratifikasiyasının xeyli vaxt aparacağı dəqiqdir.

Digər tərəfdən, funt-sterlinqin ucuzlaşması Britaniya ixracını stimullaşdıra bilər. 2015-ci ildə Britaniya ixracında maşın, avadanlıq, mühərrik, nəqliyyat vasitələri, dərman preparatları və digər hazır məhsulların üstünlük təşkil etməsini nəzərə alsaq, bu proqnoz kifayət qədər real görünür. Eyni zamanda, Britaniya valyutasının ucuzlaşması ölkənin turizm, enerji və xidmət sektorlarının inkişafına səbəb ola bilər.

Brexit sonrakı dövrdə Britaniya-Aİ əməkdaşlıq formatına dair bir neçə mülahizə irəli sürmək olar. İlk növbədə, Britaniya

Avropa İqtisadi Məkanına (European Economic Area – EEA) qoşulmaqla "Norveç modeli"ni seçə bilər. Məlumdur ki, EEA azad ticarəti və məhsulların sərbəst hərəkətini təşviq edir. Bu modelin seçilməsi Britaniya üçün kifayət qədər asan və az xərclə başa gələ bilər. Lakin bu variantda Britaniya Aİ-yə müəyyən ödənişləri etməkdə davam etməli olduğu halda, Aİ Şurası və Avropa Parlamentində səs hüququndan məhrum olur. Digər tərəfdən də EEA-ya qoşulma Britaniyanın insanların sərbəst hərəkətini qəbul etməsi anlamına gəlir ki, bu da Brexit-in miqrasiya probleminə əsaslanan əsl mahiyyətinə ziddir.

Digər variant olaraq, Britaniyanın Aİ-nin üzvü olan 27 ölkə ilə ayrıca ikitərəfli ticarət sazişləri imzalamasını nəzərdə tutan "İsveçrə modeli"ni nəzərdən keçirmək olar. Bu modelin 3 trilyon dollar ÜDM-i olan Britaniyaya tətbiqinin kifayət qədər uzunmüddətli və mürəkkəb olacağı şübhə doğurmur.

Növbəti variant Aİ-nin üzvləri ilə Aİ ilə razılaşdırılan və müəyyən məhdudiyyətləri nəzərdə tutan ikitərəfli ticarət sazişlərinin imzalanmasını nəzərdə tutan "Kanada modeli" ola bilər. Məlumdur ki, Kanada ilə Aİ arasında Hərtərəfli İqtisadi və Ticarət Sazişi (Comprehensive Economic and Trade Agreement – CETA) 7 ildən çox müddətdə müzakirə olunur və hələ də danışıqlar davam edir. Britaniyanın isə bunun üçün maksimum iki il vaxtı var. Eyni zamanda, ABŞ-la NAFTA çərçivəsində azad ticarət imkanlarından faydalanan Kanada ilə uzun müddətdən bəri Aİ-nin üzvü olmuş Britaniya eyniləşdirilə bilməz. Digər tərəfdən də CETA Britaniya iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və onun Aİ-27 ilə ticarətində mühüm yer tutan maliyyə xidmətlərini əhatə etmir.

Belə nəticəyə gəlmək olar ki, Britaniya ilə Aİ-27 arasında gələcək əməkdaşlığın yuxarıda qeyd olunan hər üç modelin əsasında hazırlanacaq spesifik bir model üzərində qurulacağı daha realdır. Bu modelin formalaşmasında Aİ-nin Ümumdünya Ticarət Təşkilatında təmsilçiliyi mexanizmi mühüm rol oynayacaqdır. Lakin belə bir gözlənti də vardır ki, gələcəkdə digər üzvlərin Britaniya yolunu tutmaması məqsədilə Aİ Britaniya üçün ciddi məhdudiyyətlər tətbiq etməklə onu cəzalandıra da bilər.

Bu kontekstdə Aİ-nin tarixində ilk "desinteqrasiya" hadisəsi hesab olunan Brexit-in Aİ-nin gələcəyinə təsirlərindən danışarkən ilk növbədə Britaniyanın ardınca bir sıra digər ölkələrin də Aİ üzvlüyündən çıxması ehtimalı nəzərdən keçirilməlidir. Mövcud şəraitdə İtaliya, Yunanıstan, Danimarka, Niderland və hətta Fransa bu addımı ata biləcək əsas potensial ölkələr hesab olunur. Belə ki, adıçəkilən ölkələrdə analoji referendumun keçirilməsi çağırışları daha tez-tez səsləndirilir. Bununla belə, fikrimizcə Brexit-in təkrar olunması hazırda real görünmür. Maraqlısı odur ki, Brexit-ə əks çağırışlar da vardır. Bu baxımdan ilk növbədə Şotlandiyanı qeyd etmək olar. Belə ki, Birləşmiş Krallığın üzvü olan Şotlandiya da Brexit-in tərkib hissəsi hesab olunur. Statistikaya əsasən, referendumda Şotlandiya əhalisinin əksəriyyəti Brexit-in əleyhinə səs verib. Hazırda Şotlandiyanın Aİ-nin tərkibində qalması mexanizminin yaradılması tərəfdarlarının sayı artır ki, bu da gələcəkdə Aİ-ni həm də siyasi dilemma qarşısında qoya bilər.

Təbii ki, Brexit-dən danışarkən ABŞ-ı da unutmaq olmaz. Məlumdur ki, ABŞ və Britaniya arasında sıx qarşılıqlı iqtisadi əməkdaşlıq var. Təkcə 2014-cü ildə ABŞ şirkətləri Britaniyaya 600 milyard dollara yaxın investisiya qoyub. Eyni zamanda, ABŞ şirkətləri britaniyalılar üçün ən böyük əmək bazarlarından biridir. ABŞ şirkətlərinin Britaniyadakı istehsalı 2013-cü ildə 150 milyard dollardan artıq olub. Bu, onu deməyə əsas verir ki, ABŞ Aİ-nin digər ölkələri ilə iqtisadi əməkdaşlıqda Britaniyanı həmişə "strateji körpü" hesab edib. Bu isə o deməkdir ki, Brexit bütövlükdə Aİ-ABŞ münasibətlərində fərqli bir situasiya yaratmış olacaq.

Şübhə yoxdur ki, bütün hallarda Brexit Avropanın ümumi mənzərəsini ciddi dəyişmiş olacaq. Amma, Britaniyanın Aİ üzvlüyündən çıxması bu ölkənin Avropadan getməsi demək deyildir. Brexit danışıqları kifayət qədər uzun müddət davam edəcək. Hər hansı bir üzv ölkənin Aİ-dən çıxması üzrə dəqiq müəyyən edilmiş mexanizmin və belə bir təcrübənin olmaması bu prosesin kifayət qədər çətin keçəcəyini, ciddi geosiyasi və geoiqtisadi nəticələrə səbəb olacağını iddia etməyə əsas verir. Bütövlükdə 60 illik Avropa inteqrasiyası prosesinə böyük zərbə vurmuş olacaq Brexit Aİ-nin öz inkişaf strategiyasına və prioritetlərinə yenidən baxmasını da şərtləndirir.

Fikrimizcə, yaxın perspektivdə Britaniyanın Aİ-27 bazarına ixracının və idxalının kəskin azalması müşahidə edilməyəcək. Dəqiq olan odur ki, yaxın 3-5 il ərzində Britaniya iqtisadiyyatına qoyulan xarici investisiya azalacaq. Aİ büdcəsi Britaniyanın bu vaxta

qədər ödədiyi vəsaitlərdən məhrum olacaq. Şübhə etmirik ki, bütün qeyd olunanlar Aİ üçün sarsıdıcı itki olmayacaq.

Avropa inteqrasiyasının gələcəyinə nikbin yanaşmaqla və Aİ tərəfindən zamanında atılacaq müvafiq addımlara ümid etməklə, Brexit-in Aİ iqtisadiyyatının uzunmüddətli perspektivdə inkişafına mane ola bilməyəcəyinə inanırıq. Bununla belə, Brexit-in Britaniya klublarında oynayan Aİ-27 ölkələri futbolçularından tutmuş Aİ-nin təhsil proqramlarından faydalanan Britaniya universitetlərinə qədər çox geniş təbəqəyə birbaşa təsir edəcəyi faktını da unutmuruq.

dos. Ş. Bayramov

unec

Azərbaycan Dövlət İqtisad Universiteti

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət, 6
Tel:(+99412) 437-10-86, Faks: (+99412) 492-59-40
www.unec.edu.az

UNEC İnnovativ Biznes-İnkubatorun STARTAPLARI

ECO travel

Miml

Professional Accounting Center

Peşəkar Mühasibat Mərkəzi

WHATTO

SOSMART

Keep your phone sound smart

UNIWEB

Veb dizayn studiyası

PERFECT PICTURES

SinaqImtahani.Net

LINGVOMONDO

Tərcümə Mərkəzi

Əlaqə:
AZ 1001, İstiqlaliyyət 6, ADİU, otaq 1
Tel/Fax: (+99412) 492 31 21
Mob: (+99450) 856 02 01
E-mail: ibi.aseu@gmail.com
Web: www.ibi.az

www.facebook.com/ibi.aseu.az